www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 23 yanvar 2018-ci il Çərşənbə axşamı № 16 (6905) Qiyməti 60 qəpik

**Xəbər**

## DTX ölkənin valyuta bazarını talayan dəstəni tutdu

yazısı səh.2-də

**Gündəm**

### "Vətəndaşların siyasətçilərə inamı itib" - AŞ PA-nın yeni prezidenti



Avropa Şurası Parlament Assambleyasının qış sessiyası alternativsiz seçki ilə başladı; **Mikele Nikoletti:** "Milli maraqlara yox, ümumi maraqlara xidmət etməliyik"

yazısı səh.2-də

### Sahibkarlar vergi sistemindəki dəyişikliklərdən və gözləntilərindən danışdılar

yazısı səh.3-də

### Müxalifətin vahid namizəd problemi - bu dəfə hansı taktika seçiləcək...

yazısı səh.4-də

### YAP-a bir ildə 24 min nəfər üzv olub; müxalifətə üz tutan varmı...

yazısı səh.5-də

### Atalarının başını yeyən harın məmur övladları - bizdə və xaricdə

yazısı səh.6-da

### SSRİ-ni Qorbaçov, yoxsa xalq cəbhələri dağıdıb?

yazısı səh.7-də

### Afrin əməliyyatı - kiçik ərazidə oynanan böyük oyun

yazısı səh.9-da

### Həmsədr ölkə olan ABŞ-dan işğalçıya inanılmaz dəstək

yazısı səh.11-də

### Dünyanın ilginc köç xəritəsi - faktlar, sarsıdıcı rəqəmlər

yazısı səh.10-da

### Bayıldakı sürüşmə zonasında onlarla ailənin həyatı təhlükədədir

yazısı səh.12-də

### "Ərəb baharı" niyə gözlənilən dəyişiklikləri gətirmədi - təhlil

yazısı səh.13-də

# BAKIDAN TEHRANA BÖYÜK YAXŞILIQ - İRƏVANA BƏD XƏBƏR

Azərbaycan İranı Ermənistandan daha da uzaqlaşdırır, cənub qonşumuzla iqtisadi bağlarımız möhkəmlənir; işğalçı ölkə isə Gürcüstanda pozucu əməllərini davam etdirir: ASALA-nın ardınca erməni partiya sədri Cavaxetiyaya keçmək istədi, buraxılmadı...




yazısı səh.8-də

## Xaləddin İsgəndərov Biləcəri sakinlərini ayağa qaldırdı

İcra başçısının qəsəbə üzrə nümayəndəsinin müavini qanunsuz tikiliyə rəhbərlik edir

yazısı səh.3-də



*İlham Şaban:*

### "Neftin qiyməti 50 dollardan aşağı düşməyəcək"

yazısı səh.5-də



*Elçin Mirzəbəyli:*

### "Rusiyada əyləncəli bir seçki olacaq..."

yazısı səh.4-də



### Rusiyada Mübariz Mənsimovla bağlı araşdırmalar başlandı

yazısı səh.2-də

YENİ MÜSAVAT
N 16 (6905) 23 yanvar 2018



# Prezident İlham Əliyev Davosda Dünya İqtisadi Forumunun prezidenti ilə görüşdü

**Azərbaycan prezidenti İlham Əliyevin Dünya İqtisadi Forumunun illik toplantısında iştirak etmək üçün İsveçrə Konfederasiyasına işgüzar səfəri başlayıb. Dövlət başçısı yanvarın 22-də Davosda Dünya İqtisadi Forumunun prezidenti Börge Brend ilə görüşüb.**

Prezident İlham Əliyev Börge Brendi Dünya İqtisadi Forumunun prezidenti seçilməsi münasibətilə təbrik edib, ona fəaliyyətində uğurlar arzulayıb. Görüşdə Dünya İqtisadi Forumu ilə Azərbaycan arasında uzun illər səmərəli əməkdaşlığın həyata keçirildiyi bildirilib. Söhbət zamanı Azərbaycanın beynəlxalq əməkdaşlığa verdiyi töhfəyə toxunularaq ölkəmizin iştirak etdiyi qlobal layihələr, o cümlədən ötən il istifadəyə verilən Bakı-Tiflis-Qars dəmir yolunun, həmçinin icrası başa çatmaqda olan TANAP layihəsinin əhəmiyyəti vurğulanıb. Zəngin neft ehtiyatlarına malik Azərbaycanda qeyri-neft sektorunun inkişaf etdiyi, ölkəmizə turist axınının getdikcə artdığı bildirilib.

Prezident İlham Əliyev Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı danışıqların hazırkı vəziyyəti barədə məlumat verib.

Söhbət zamanı Dünya İqtisadi Forumu ilə Azərbaycan arasında əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.

Dövlət başçısı yanvarın 22-də Davosda ABŞ-ın "Black Rock" şirkətinin təsisçisi, müşahidə şurasının sədri və icraçı direktoru Lourens Fink ilə də görüşüb.

# Ölkədən 80 milyon dollar valyuta çıxaran dəstə tutuldu



**Azərbaycan ərazisində valyuta dövriyyəsində manipulyasiya və valyuta qaçaqmalçılığı faktları ilə bağlı davam edən cinayət işi üzrə 15-18 yanvar 2018-ci il tarixlərində həyata keçirilmiş kompleks əməliyyat-istintaq tədbirləri nəticəsində "qara bazar" adlandırılan alternativ valyuta dövriyyəsi iştirakçılarından ibarət cinayətkar şəbəkə ifşa edilib, qanunsuz fəaliyyətlərinin qarşısı alınıb.**

Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) İctimai əlaqələr şöbəsindən "Report"a verilən məlumata görə, müəyyən edilib ki, qeyd olunan şəxslər tərəfindən 2017-ci il ərzində Azərbaycan Respublikasının gömrük sərhədindən gömrük nəzarətindən gizli, bəyan edilmədən hissə-hissə ümumilikdə 80 milyon 731.282,0 ABŞ dolları, 5 milyard 270.227.972,0 Rusiya rublu, 248 min 915 avro məbləğində xarici valyuta nağd formada qaçaq yolla ölkədən çıxarılıb.

Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 206.3.1, 206.3.2, 192.2 və digər maddələri ilə istintaq aparılan cinayət işi üzrə Azərbaycan Respublikasının vətəndaşları Məmmədov Aqil Kamandar oğlu, Mustafayev Mustafa Abuzər oğlu və Babayev Vüqar Ədalət oğlu, habelə Gürcüstan vətəndaşı İzmailov Mamed Həşim oğlu və qeyd olunan silsilə cinayət əməllərinin digər iştirakçıları saxlanılaraq cinayət məsuliyyətinə cəlb ediliblər.

Hazırda istintaq-əməliyyat tədbirləri davam etdirilir.

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01**

# "Vətəndaşların siyasətçilərə inamı itib" - AŞ PA-nın yeni prezidenti

## Avropa Şurası Parlament Assambleyasının qış sessiyası alternativsiz seçki ilə başladı; **Mikele Nikoletti:** "Milli maraqlara yox, ümumi maraqlara xidmət etməliyik"



**Yanvarın 22-də Fransanın Strasburq şəhərində Avropa Şurası Parlament Assambleyasının (AŞ PA) qış sessiyası öz işinə başlayıb.**

Nəzərə çatdıraq ki, sessiya yanvarın 26-dək davam edəcək.

Sessiyanın açılış günündə, öncədən gözlənildiyi kimi, AŞ PA-nın yeni prezidenti seçilib. Habelə, vitse-prezidentlər və qurumun insan haqları üzrə komissarı seçilib.

Yanvarın 22-də, İtaliyalı deputat Mikele Nikoletti AŞ PA-nın yeni prezidenti vəzifəsinə təsdiq olunub.

M.Nikoletti AŞ PA prezidentliyinə yeganə namizəd olduğundan səsvermə keçirilməyib və avtomatik təsdiqlənib.

Mikele Nikoletti 19 noyabr 1956-cı ildə İtaliyada anadan olub. O, Trento, İnnsburck və Boloniya universitetlərində elmi tədqiqat işləri aparıb, fəxri müəllim vəzifəsində çalışıb. Boloniya Universitetinin doktorudur, elmi işləri siyasətin nəzəriyyəsi və etikasına həsr edilib.

M.Nikoletti İtaliyanın AŞ PA-dakı nümayəndə heyətinin və sosialistlər qrupunun rəhbəridir. O, 2013-cü ildən Parlament Assambleyasında ölkəsini təmsil edir. 2014-cü ildən AŞ PA-da İtaliyanın nümayəndə heyətinə rəhbərlik edir, 2016-cı ildən isə Sosialistlər Qrupunun rəhbəridir.

Nəzərə çatdıraq ki, 2017-ci ilin payızında Pedro Aqramunt səhhətində yaranan problemlə əlaqədar AŞ PA prezidenti vəzifəsindən könüllü istefa verib.

**Yeni sədr Mikele Nikolettinin assambleyada sədr kimi çıxışı maraqlı olub. O, Avropa Şurası məkanında münaqişələrin sayı artdığını və bunun narahatlıq doğurduğunu bildirib. AŞ PA prezidenti deyib:** "Biz bu münaqişələrin həllinə nail olmadığımıza görə vətəndaşların siyasətçilərə inamı itib".

**O söyləyib ki, avropalı siyasətçilər bu məsələdə daha diqqətli olmalıdır:** "Biz Parlament Assambleyasının nüfuzunun qalxması üçün birlikdə səylər göstərməliyik. Ayrılıqda milli maraqlara yox, ümumi maraqlara xidmət etməliyik".

Assambleyanın iclasında Azərbaycanın nümayəndə heyətinin rəhbəri Səməd Seyidov da yenidən AŞ PA-nın vitse-prezidenti seçilib.

Səməd Seyidovla bərabər yanaşı, daha 17 nəfər vitse-prezident təsdiqlənib.

Qeyd edək ki, S. Seyidov buna qədər də rotasiya qaydasında AŞ PA-nın vitse-prezidenti olub.

Daha sonra iclasda gündəliyə uyğun olaraq "Konfliktlər və onların humanitar fəsadları" mövzusuna həsr edilmiş sessiya çərçivəsində Avropadakı münaqişələr, bu konfliktlərdən əziyyət çəkən insanların yaşadığı çətinliklər, Fələstin-İsrail münaqişəsinin sülh yolu ilə tənzimlənməsi prosesi, Avropada antisemitizmin artması, İslamofobiya və ksenofobiya ilə mübarizədə Avropa Şurasının və digər əlaqədar qurumların rolu məsələləri barədə fikir mübadiləsi aparılıb.

Müzakirələrin gedişində çıxış edən Avropa Şurasının baş katibi Torbyörn Yaqland Azərbaycanda cəzaların humanistləşdirilməsinə dair atılan addımları müsbət qiymətləndirib. (APA)

**Sitat:** "Azərbaycanda həbsə salınmaqla bağlı cinayət hüququna dair tədbirlər hazırlanıb. Bu, müsbət addımdır".

Qeyd edək ki, ötən il fevralın 10-da Azərbaycan prezidenti İlham Əliyev "Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi barədə" sərəncam imzalayıb. Artıq bir müddətdir ki, sərəncamın icrasına başlanılıb...

Parlament Assambleyasının qış sessiyası çərçivəsində yanvarın 24-də Ermənistan prezidenti Serj Sərkisyanın da çıxış edəcəyi gözlənilir.

Azərbaycanın AŞ PA-dakı daimi nümayəndə heyətinin üzvü Vüsal Hüseynov isə sessiyanın sonuncu günü - yanvarın 26-da "İşgəncə və ölüm cəzası üçün istifadə olunan malların ticarətinə qarşı beynəlxalq qaydaların gücləndirilməsi" mövzusunda məruzəsini təqdim edəcək.

❑ **M.MAHRIZLI, «Yeni Müsavat»**

# Rusiyada Mübariz Mənsimovla bağlı araşdırmalar başlandı

**Rusiya Federasiyasının Federal Vergilər Xidməti xarici şirkətlərin Mübariz Mənsimova məxsus "Palmali" şirkətinin nizamnamə kapitalında payın alqı-satqısı üzrə bağladığı sövdələşmələrin qanunauyğunluğunu yoxlayır.**

Virtualaz.org news.ru-ya istinadən xəbər verir ki, bu barədə Dövlət Dumasının təhlükəsizlik və kurrupsiya ilə mübarizə komitəsi sədrinin birinci müavini Dmitri Savelyev məlumat verib.

Mənbə xatırladır ki, əvvəllər bu cür xahişlə parlament üzvü Rusiya Federasiyasının istintaq orqanlarına müraciət etmişdi. Onun sözlərinə görə, "Palmali"nin iştirakı ilə vergi cinayətləri barədə "Moskovski komsomolets" nəşrindəki yazıdan sonra xəbər tutub. Həmin yazının müəllifləri iddia edirlər ki, türkiyəli iş adamı Mübariz Mənsimovun əməlləri üzündən Rusiyanın dövlət büdcəsi on milyonlarla dollar vəsait itirib.

Sənədlərə əsasən, 2013-cü ilin sonlarında Rostovda qeydiyyatdan keçmiş "Palmali" MMC-nin səhmlərinin sahibi olan Türkiyə şirkəti "Palmali" Gemi Hizmetleri ve Agentelik Anonim Sirketi Rusiyadakı firmanı satmağı qərara alır. Alıcı kimi isə Maltada qeydiyyatdan keçmiş "Palmali Holding Co. Ltd" çıxış edir. Baxmayaraq ki, hər iki şirkətin sahibi eyni adamdır-Mübariz Mənsimovdur. Başqa sözlə, bu alqı-satqı bir cibdən alıb o biri cibə qoymaqdır. Hərçənd "Deloitte Malta" audit şirkətinin hesabatına əsasən "Palmali" MMC 230 milyon dollara satılıb.

Bu sövdələşmənin əsasında "Palmali" Gemi Hizmetleri və Agentelik Anonim Sirketi 2013-cü ildə "Palmali Holding Co. Ltd"-dən avans kimi 140 milyon dollar alıb. 2014-cü ildə isə pulun qalanı-40 milyon dollar ödənilib. Baxmayaraq ki, "Palmali" MMC-nin səhmlərini "Palmali Holding Co. Ltd" 2014-cü ilin yanvarında almışdı. Ən maraqlısı isə budur ki, alqı-satqı müqaviləsi 2015-ci il noyabrın 5-i tarixə imzalanıb. Lakin müqavilədə şirkətin 230 milyon dollara yox, 38 dəfə ucuz-6.1 milyon dollara satıldığı göstərilir. Nəticədə Türkiyə şirkəti Rusiya büdcəsinə 44.8 milyon dollar vergi ödəməli olduğu halda cəmi 1.22 milyon dollar ödəyib.

Daha öncə bildirdiyimiz kimi, Rusiya Dövlət Dumasının deputatı, təhlükəsizlik və korrupsiyaya qarşı mübarizə komitəsi sədrinin birinci müavini Dmitri Savelyev qalmaqallı azərbaycanlı oliqarx Mübariz Mənsimovun şirkəti barədə faktların araşdırılması üçün İstintaq Komitəsinə sorğu göndərib.

# "Qoroskop" qəzeti fəaliyyətini dayandırdı

## **Səbuhi Rəhimli:** "Metro keçidlərindən qəzet yayımının yığışdırılması vəziyyəti gərginləşdirib"

**1999-cu ildən ayda iki dəfə dərc olunan "Qoroskop" qəzeti öz fəaliyyətini dayandırıb. Bu barədə musavat.com-a qəzetin baş redaktoru Səbuhi Rəhimli açıqlama verib.**



O bildirib ki, metro keçidlərindən qəzet yayımının yığışdırılması və son illər çap məhsullarının oxucu sayının minimuma enməsi vəziyyəti gərginləşdirib: "Birinci devalvasiyadan sonra isə fəaliyyətimizdə ciddi problemlər yarandı. Düz 3 ildir ki, gəlirsiz çap olunuruq. 2017-ci ildə isə ən tərəfsiz mətbu orqan olan "Qoroskop"un satışı hətta mətbəəyə olan borcu da bağlamağa imkan verməyib. Bu səbəbdən də yeni ildən fəaliyyətimizi dayandırmışıq".

❑ **Xalidə Musavat.com**

**Vergilər Nazirliyində rəhbər dəyişikliyi aparıldıqdan sonra başlanan proseslər sahibkarlar arasında razılıqla qarşılanır. Bu barədə "Yeni Müsavat"a danışan sahibkarlar vergi orqanlarında başladılan yeniliklərin bir çoxunun onların xeyrinə olduğunu deyirlər.**

# "Gün gələcək, vergiyə çağırılanda qorxu keçirməyəcəyik"

## Sahibkarlar vergi sistemindəki dəyişikliklərdən və gözləntilərindən danışdılar




Belə ki, öncə də məlumat verdiyimiz kimi, əvvəlki illərdə əsassız olaraq müxtəlif müəssisələrə hesablanaraq yazılan borcların silinməsi prosesi başladılıb. Bu zaman vergi əməkdaşları iş adamlarına özləri müraciət edir, borcun silinməsi yolları ilə bağlı qarşılıqlı müzakirələr aparırlar. Bundan əlavə, aldığımız məlumata görə, vergilərlə bağlı yaranan problemlərə görə vergi orqanlarına müraciət edən sahibkarlara münasibət ciddi şəkildə dəyişib. "Mənim ötən ilin 3-cü rübündən vergi borcum yaranmışdı. Dördüncü rüb ərzində dəfələrlə vergi orqanlarından mənə zəng olundu, hesablarıma sərəncam qoyuldu, hətta hədə-qorxu gəlirdilər. Elə böyük də məbləğ deyildi. Bir neçə gün əvvəl getdim, ödəniş qrafikimi müəyyən etdik, razılaşdıq. Əvvəllər belə münasibət yox idi - borcu olana heç bir güzəşt etmirdilər, başa sala bilmirdik ki, çətinliyimiz var. İndi amma hesablarımı da açdılar, şərait yaratdılar ki, işləyib borcumu ödəyim". Bunu "Yeni Müsavat"a sahibkarlardan biri dedi.

**Başqa bir sahibkar isə sadələşmiş vergi ödəyicisidir. Fazil Məmmədov nazir olduğu dövrdə zorla 6 faizlik ödənişə cəlb olunub:** "Mənimlə bərabər 10-a yaxın sahibkarı çağırdılar, faktiki olaraq, məcburən vergi dərəcəmizi 4 faizdən 6 faizə qaldırdılar. Mən xırda sahibkaram, haradandır məndə ildə 200 min manatdan yuxarı dövriyyə? Dillənəni hədə-qorxu ilə susdururdular. Bu barədə söhbət açmağa belə qorxurduq. On gün olar müraciət etmişəm, yenidən 4 faizə qayıtmaq üçün. Deyiblər, hesabat dövrü keçsin, gələrsiniz müzakirə edərik, yenidən hesablama apararıq".

Sahibkarlar bildirirlər ki, vergi orqanlarında onlara olan münasibətin dəyişməsindən sonra vergi qanunvericiliyində də dəyişikliklərin olacağına dair məlumatlar yayılıb. Onlar qanunvericilikdə sahibkarların xeyrinə yumşalmanın olacağını gözləyirlər.

**Onu da qeyd edək ki, iş adamları Vergilər Nazirliyi yanında Bakı şəhər Lokal Gəlirlər Departamentinin 33 əməkdaşının işdən alınmasını müsbət dəyişikliklərin biri kimi xarakterizə edirlər:** "Vergidə kök salmış bəzi neqativ işləri aradan qaldırmaq üçün hələ çoxları çıxarılmalıdır. Digər departamentlərdən də çıxarılanlar var, bir çoxları barədə mətbuatda hələ məlumat getməyib. Biz də gözləyirik davamı necə olacaq. Hər halda, biz bütün yaxşı olmayan, işimizi əngəlləyən səbəblərin aradan qalxacağına ümid edirik. Son 1-2 həftədə müşahidə etdiklərimizin hamısı bizim xeyrimizədir hələ ki. İnşallah, belə də davam edəcək. Gün gələcək ki, vergiyə çağırılanda qorxu keçirməyəcəyik".

Bir məsələni də bildirək ki, son günlər bəzi sahibkarların elektron sistemdəki nasazlıqlarla bağlı narahatlığı yaranıb. Belə ki, onların şəxsi hesablarında bəzi qarışıqlıqlar meydana çıxıb. Bu barədə Vergilər Nazirliyinə də müraciət olunub. Oradan sistemdə təkmilləşmə işləri aparıldığı və tezliklə qarışıqlıqların aradan qalxacağı bildirilib.

❑ TURQUT
"Yeni Müsavat"

# Xaləddin İsgəndərov Biləcəri sakinlərini ayağa qaldırdı

## İcra başçısının qəsəbə üzrə nümayəndəsinin müavini qanunsuz tikiliyə rəhbərlik edir

**Binəqədi Rayon İcra Hakimiyyətinin fəaliyyətini xüsusi istintaq qrupu araşdırdığı bir vaxtda Biləcəri qəsəbəsində daha bir qanunsuz tikinti aparılmaqdadır. Bu barədə redaksiyamıza Biləcəri qəsəbəsi, Asəf Zeynallı küçəsi, ev 22 "a" və Mehdi Hüseynzadə küçəsi, ev 17-də yerləşən binaların sakinləri məlumat veriblər.**



Sakinlər deyiblər ki, 3 binanın həyətində olan 4 sotluq yaşıllıq sahədə 30-dan çox ağac məhv edilib və ərazidə təyinatı naməlum tikili ucaldılır. Bununla bağlı sakinlər Binəqədi Rayon İcra Hakimiyyətində olublar. Onları qəbul edən Namiq Məmmədov məsələdən xəbərsiz olduqlarını deyib. Sonradan isə ağacların məhv edilməsi hesabına aparılan tikintinin dayandırılması üçün hər hansı bir addım atılmayıb. Sakinlər deyirlər ki, tikintini aparan Orxan və Murad adlı şəxslərdir. Orxan özünü sakinlərə Binəqədi İcra Hakimiyyəti başçısının Biləcəri qəsəbəsi üzrə nümayəndəsinin müavini kimi təqdim edir. Sakinlərin etirazları, müraciətləri qulaqardına vurulur. Onların sözlərinə görə, 1 saylı Bakı İnzibati-İqtisadi Məhkəməsinə iddia ilə müraciət edərək ərazidə tikintinin dayandırılmasını və ağacların əkilməsini tələb ediblər.

İddia ərizəsini imzalayan 30 sakin qeyd edib ki, binalarla əhatə olunan həyətyanı sahədə 40 il əvvəl ağcaqayın, qovaq, şam, küknar, söyüd, əncir, tut, gilənar, nar, zeytun və iydə ağacları əkilib və sakinlər tərəfindən onlara qulluq edilib. 2017-ci ilin mayına qədər sakinlər zəngin, göz oxşayan yaşıllıq ehtiyatı hesabına öz gündəlik istirahətlərini, azyaşlı uşaqlar, yeniyetmələr mənalı və sağlam əyləncələrini qurublar. 13-14 may 2017-ci il tarixində şənbədən bazar gününə keçən gecə saatlarında səssiz kəsici elektrik aləti ilə bir dəfəyə13 ağac kəsilib. Sakinlər bu haqda 6-cı polis şöbəsi, yerli Bələdiyyə və ETSN-in Bakı Şəhər Ekologiya və Təbii Sərvətlər Departamentinə məlumat veriblər. Sakinlər qeyd edirlər ki, ağaclar kəsilməzdən 1 il əvvəl ərazi Eldar Rəhimov tərəfindən zəbt olunub. Sonradan isə ərazi alqı-satqı müqaviləsi əsasında Tellər Məmməd qızı Məmmədovaya satılıb. Ağaclar kəsiləndən sonra onların şikayətlərinə əsasən Eldar Rəhimov cərimələnib. Ərazidə tikinti işlərinin aparılması dayandırılıb. Ötən ilin may-sentyabr aylarında sakinlər kəsilmiş ağacların əvəzinə yeni ağaclar əkiblər. Sakinlər deyir ki, 2017-ci ilin 3 oktyabrında həyətə yenidən tikinti materialları daşınıb və ərazi çəpərlənib. İçəridə qalan ağacların yenidən kəsilməsinə başlanıb. Sakinlərin etirazlarına və dövlət qurumlarına müraciətlərinə rəğmən ərazidə gecə-gündüz fasiləsiz tikinti işləri aparılır. Ərazidə olan dövlət qurumlarının təmsilçilərinə sahibkarın naməlum nümayəndələri tərəfindən Bakı Şəhər İcra Hakimiyyətindən verilmiş 14.09.2017-ci il tarixli 418 nömrəli sərəncam göstərilir. Burada Şəhərsalma və Tikinti Məcəlləsinin və Memarlıq və Şəhərsalma Baş İdarəsinin 17.07.2017-ci il tarixli, 18/03-8/1869 saylı məktubu əsasında Binəqədi rayonu, Biləcəri qəsəbəsinin ərazisində vətəndaş Tellər Məmməd qızı Məmmədovaya qeyri-yaşayış obyektinin tikintisinə icazə verildiyi göstərilir. Lakin onların təqdim etdikləri heç bir sənəddə konkret ünvan, küçə, küçənin nömrəsi qeyd edilməyib. Sakinlər deyir ki, cavabdehlərin hərəkətlərini özbaşınalıq, vəzifə səlahiyyətlərindən sui-istifadə halı kimi qiymətləndirirlər.







Yada salaq ki, bu ilin əvvəlində Binəqədi Rayon İcra Hakimiyyətinə xüsusi istintaq qrupu göndərilib. İstintaqçılar rayon ərazisində aparılan tikintilərin qanuniliyini, ekologiyaya vurulan ziyanla bağlı görülən tədbirlərin müvafiq qanunvericiliyə uyğun olub-olmaması və rayonun rəhbər vəzifəli şəxslərinin qəbul etdikləri qərarların qanunlarla uzlaşıb-uzlaşmamasını yoxlayırlar. Xəbər verdiyimiz kimi, təcrübəli müstəntiqlərdən ibarət qrup vaxtilə təcili yardım stansiyası üçün inşa edilən və tikintisi yarımçıq qalan binanın həyətində aparılan qanunsuz tikintilər və Zeytunluq deyilən ərazideki ağacların kəsilməsi, Azadlıq prospektində yaşıllıqların məhvi ilə bağlı faktlar toplayır, rayon sakinləri sorğu-sual olunur. Bu günə qədər Binəqədi Rayon İcra Hakimiyyətinin bir neçə səlahiyyətlisinin də rayonda baş verən cinayət xarakterli əməllərlə bağlı dindirildiyi bildirilir. Qaynağımız bildirib ki, istintaq qrupu yanvarın 5-6-da Binəqədi rayonuna ezam olunub və bu günə qədər topladığı çox ciddi faktlar var.

X.İsgəndərov bir müddət əvvəl ətrafındakıları başına toplayaraq rayon ərazisində satılan torpaq sahələri ilə bağlı sənədləri təcili səliqəyə salmalarını tapşırıb. Qanunsuz tikintilərlə mübarizə aparmaq görüntüsü yaratmaq üçün addımlar atılması göstərişini verib. Bundan sonra rayonun Sulutəpə qəsəbəsində söküntü işlərinə başlanıb. Tikinti aparanlar başçının əraziyə göndərdiyi rayon təsərrüfat şöbəsinin müdiri Qüdsi Bayramova, başçının qardaşı oğlu Valeh İsgəndərova deyiblər ki, işə başlamazdan əvvəl onların nümayəndələrini razı salıblar.

Buna baxmayaraq, tikintilərin sökülməsinə verilmiş göstərişin icrası bəzi ünvanlarda baş tutub. Narazı qalan 100-ə yaxın rayon sakini Sulutəpə bələdiyyəsinin qarşısına toplaşaraq icra başçısının qanunsuz göstərişinin qarşısının alınmasını tələb ediblər. Rayon sakinləri iddia edir ki, Xaləddin İsgəndərovun söküntü işlərini gerçəkləşdirən dəstələrinə ümumi rəhbərliyi rayon təsərrüfat şöbəsinin müdiri Qüdsi Bayramov həyata keçirir. Atası Həsən Bayramov Binəqədi seçki dairəsinin sədridir. Həsən Bayramov Azərbaycan Beynəlxalq Universitetində Elşad Abdullayevin müavini olub. Qüdsi Bayramov əvvəl Binəqədi Gənclər və İdman İdarəsinin müdiri olub. İddiaya görə, Binəqədi rayonu ərazisində aparılan bütün tikintilərdən pullar Qüdsi Bayramovda toplanır. Vətəndaşın tikinti aparmağa sənədi var, yoxdur, bu, Qüdsi Bayramovu maraqlandırmır. Deyir ki, tikinti aparılırsa, rəsmi icazə ilə yanaşı, qeyri-rəsmi icazə də alınmalı, buna görə pul verilməlidir. Verilmirsə, vətəndaşı tikinti aparmağa qoymurlar, işinə mane olurlar. Tikinti-söküntü ilə əlaqəli maliyyə məsələlərinə Sulutəpə qəsəbəsində Ramin, Fuad, Azər, Biləcəridə Orxan, Novxanıda Rəşad, Binəqədi kəndində Pərviz, Zaur, Arif nəzarət edirlər. Orxan başçının vaxtilə sürücüsü olan Azər Kazımovun oğludur. 26 yaşlı Orxan Kazımov Biləcəri qəsəbəsi icra nümayəndəsinin müavinidir. Bu şəxslərin qeyri-rəsmi icazəsi olmasa, kimsə tikinti apara bilməz. Binəqədi rayonunda vəziyyət belədir və əhali arasında da haqlı narazılıqlara səbəb olur.

**Məsələ ilə bağlı Binəqədi Rayon İcra Hakimiyyəti ilə əlaqə saxladıq. Telefon zənglərimiz cavabsız qaldı.**

❑ E.MƏMMƏDƏLİYEV,
"Yeni Müsavat"

**2018-ci ilin oktyabrında Azərbaycanda prezident seçkisi keçirilməlidir. Bu isə o deməkdir ki, seçkiyə 9 aydan da az vaxt qalıb. Təcrübə göstərir ki, hakimiyyət müxalifətlə müqayisədə namizəd məsələsində problem yaşamır. Hakimiyyətin seçkidə vahid namizədi olur. Vahid namizəd məsələsində ciddi problemlər məhz müxalifət düşərgəsində yaşanır. Son prezident seçkisində-2013-cü ildə bu problem daha ciddi formada yaşanmışdı. Sonrakı illərdə siyasilərin açıqlamalarından belə məlum olmuşdu ki, 2013-cü ildə Müsavat Partiyasının o zamankı başqanı İsa Qəmbərin vahid namizəd olmasının qarşısı Milli Şura adlı qurumun yaradılması və kinorejissor Rüstəm İbrahimbəyovun vahid namizəd kimi meydana çıxarılması ilə alınıb. Rüstəm İbrahimbəyov-Milli Şura Rusiya proyekti olub. Nəticə isə məlumdur.**

# Müxalifətin vahid namizəd problemi - bu dəfə hansı taktika seçiləcək...

## Tanınmış partiya sədrindən xəbərdarlıq; "2018-ci il prezident seçkisində də yeni bir "Milli Şura ssenarisi"nin və növbəti bir "İbrahimbəyov"un meydana çıxarılacağı ehtimalı var"

2018-ci il prezident seçkisində müxalifət düşərgəsinin vahid namizədinin öz daxillərindən, yoxsa yenə də kənardan olub-olmayacağı məsələsi yenə sual olaraq aktuallaşır. 2013-cü ildə Milli Şura proyektində iştirak etməyən və özünün namizədliyi ilə seçkidə iştirak edən **ADP sədri Sərdar Cəlaloğlu** bildirdi ki, hakimiyyətin namizəd dəyişikliyi real olaraq gündəmə gələcəyi halda 2018-ci il prezident seçkilərində də yeni bir "Milli Şura ssenarisi"nin və növbəti bir "İbrahimbəyov"un meydana çıxarılacağı ehtimalı var. Lakin bu dəfəki ssenari bir qədər fərqli şəkildə ola bilər. Bu ssenaridə müxalifət düşərgəsindən də iştirak edənlərin olacağı istisna deyil. Lakin bəri başdan bilmək lazımdır ki, bu baş verəcəyi halda onların kənardan və öz içlərindən irəli sürəcəyi namizəd müxalifətin vahid namizədi deyil və ola bilməz: "Əslində 2013-cü ildə Rüstəm İbrahimbəyov bütün müxalifətin vahid namizədi deyildi. Sadəcə, bir müddət onu, sonra isə Cəmil Həsənlini bu cür təqdim edirdilər. Halbuki 2013-cü ildə seçkidə müxalifətdən 2-dən yuxarı sayda namizəd iştirak edirdi.


Sərdar Cəlaloğlu

2013-cü ildə Milli Şuranın yaranması zamanı Azərbaycandakı rusiyapərəst qüvvələr o proyektdə, Milli Şuranın təşkilatlanmasında bilavasitə iştirak eləmirdi. Bu işdə Azərbaycandan kənardakı qüvvələr, məsələn, Abbas Abbasov, bir qrup azərbaycanlı milyarder iştirak edirdi və Rüstəm İbrahimbəyov qabağa verilmişdi. Rüstəm İbrahimbəyovun vasitəsilə də əslində rusiyapərəst olmayan bir neçə ənənəvi tanınmış müxalifət partiyası prosesə cəlb edilmişdi. Bu dəfə isə ssenari bir qədər fərqli ola bilər. Moskva Azərbaycan daxilindəki rusiyapərəst qüvvələrin iştirakı ilə bir format yarada və bu format-təşkilat 2013-cü ildə yaradılmış Milli Şuradan güclü ola bilər. Çünki bu dəfə yaradılacaq təşkilatın Azərbaycan hakimiyyəti daxilində çox ciddi dəstəyi olacaq. 2013-cü ildə Rusiyada yaşayan ruspərəst qüvvələr vasitəsilə bir neçə müxalifət partiyasını prosesə Rüstəm İbrahimbəyovun vasitəsilə cəlb etməklə Milli Şura formatı yaradılmışdı. Bu dəfə Rusiyanın hakimiyyət daxilindəki ruspərəstlər və onların uzantıları ilə apardığı işin nəticəsi olaraq meydana hansısa adda güc çıxa bilər.

Mən nəzəriyyəçiyəm, başqa siyasətçilərdən fərqli olaraq hadisələrin həm də nəzəri modellərini özüm üçün hazırlayıram. Tutaq ki, qarşıdan prezident seçkiləri gəlir və iki variant var; ya status-kvonun dəyişməsi, ya dəyişilməməsi. Birinci variantda Rusiya heç bir problem yaratmaz. İkinci variant seçilsə isə ciddi maneələr, təzyiqlər yaradacaq".

**S.Cəlaloğlu hesab edir ki, budəfəki seçkidə Azərbaycanın müxalifət düşərgəsindən dövlətin birinci şəxsi vəzifəsinə iddialılar arasında az və ya çox dərəcədə həm təcrübəsi, həm də özünün şəxsi kriteriyaları baxımından ən uyğun namizəd İsa Qəmbərdir:** "Əbülfəz Elçibəy indi olmadığına görə mən hesab edirəm ki, İsa Qəmbər müxalifətin bu missiyasını yerinə yetirməyə həlelik tək və yeganə lider sayıla bilər. Hansısa kənar proyektlər ortaya çıxarılsa, o proyektlərə qarşı da müxalifətin namizədi kimi İsa Qəmbər uyğun namizəddir".

❑ **Etibar SEYİDAĞA**
**"Yeni Müsavat"**

# İki aydan sonra Rusiyada nələr olacaq?

## Elçin Mirzəbəyli: "Əyləncəli seçki olacaq..."
## Elşən Mustafayev: "ABŞ Putinə seçki taktikası ilə cavab verməyəcək"


Elçin Mirzəbəyli


Elşən Mustafayev

**Martın 18-də Rusiyada keçiriləcək prezident seçkisi yaxınlaşdıqca proseslər sürətlənir. Artıq iddiasını irəli sürənlər arasından qeydə alınanların sayı günbəgün artmaqdadır. Xaricdən müdaxilə baxımından hazırkı prezident Vladimir Putin hakimiyyəti üçün bu seçkinin elə də asan keçməyəcəyi bildirilir.**

Doğrudur, daxildə Putinin asan qələbə qazanacağı və ona rəqib olacaq layiqli bir namizədin olmadığı açıq şəkildə göz önündədir. Lakin 2016-cı ilin noyabrında ABŞ-dakı prezident seçkisinə Kremlin müdaxilə etdiyi barədə iddialar hələ də gündəmdən düşməyib. Bu baxımdan Amerikanın Rusiyadakı bu seçkidə Putini devirmək, buna nail olunmazsa, ölkəni daxildən qarışdırmaq üçün revanş edəcəyi ehtimalları kifayət qədər yüksəkdir. İki aydan sonra Rusiyada nələrin ola biləcəyi indidən ciddi suallar doğurur.

**Politoloq Elçin Mirzəbəyli şimal qonşumuzdakı bu seçkilərin əyləncəli olacağını düşünür:** "Rusiyada bu ilin martında keçiriləcək seçkilər daha öncəki seçkilərdən maraqlı olacaq. Namizədlərin siyahısına diqqət yetirsək, prosesin şou elementləri ilə müşayiət olunacağını görə bilərsiniz. Əyləncəli seçki olacaq. Qeydə alınmış namizədlərə öz təbliğatlarını aparmaq üçün maksimum imkanlar yaradılacaq. Çoxsaylı debatlar təşkil olunacaq. Amma bütün bunlar nəticəyə təsir göstərməyəcək. Putin Rusiyası Nazirlər Kabinetində müəyyən kosmetik dəyişikliklər aparacaq və yoluna davam edəcək. ABŞ-ın Rusiyadakı seçki prosesinə müdaxiləsindən söhbət gedirsə, indiki halda bu inandırıcı görünmür. Əvvələ, bu ehtimal çox güman ki, Rusiya rəsmiləri tərəfindən nəzərdən keçirilib və adekvat tədbirlər görülüb. Digər tərəfdən, elektron sistemlər Rusiyada seçki prosesinin cüzi bir hissəsini əhatə edir. Hətta həmin o cüzi hissədə də ənənəvi metodlardan alternativ kimi istifadə edilir. Digər tərəfdən, söhbət seçkinin nəticəsini kiminsə xeyrinə dəyişməkdən gedirsə, Putinin rəqibləri arasında beləsi yoxdur. Və bu rəqiblər Putinlə müqayisədə həddən artıq zəifdirlər. Hazırda Rusiyada kütləvi aksiyaları təşkil edə biləcək və xalqı ardınca aparacaq hər hansı qüvvə nəzərə çarpmır. Ola bilsin ki, bəzi şəhərlərdə müxtəlif sosial şüarlarla aksiyalar keçirilsin. Amma bu aksiyaların da effektiv olmayacağını düşünürəm. Zənnimcə, Putin hakimiyyəti sosial problemlərin artmaması üçün müəyyən tədbirlər həyata keçirəcək. Qoşunların Suriyadan çıxarılmasını da məhz bu kontekstdən dəyərləndirmək olar. Qarşıdakı 1 ildə Kreml daha çox daxili problemlərin həllinə və postsovet məkanına diqqət ayıracaq".

**Siyasi şərhçi Elşən Mustafayev Rusiyanın kənardan gələn təzyiqlərə əhəmiyyət verməyəcəyini düşünür:** "Rusiyada bu il keçiriləcək prezident seçkisində ölkənin ictimai -siyasi həyatına ciddi təsir edəcək halların olacağına inanmıram. İlkin olaraq onu demək istəyirəm ki, Navalnı də daxil olmaqla, Putinə alternativ ola biləcək namizədlər seçkinin nəticələrinə az da olsa təsir edəcək səslər qazanmaq iqtidarında deyillər. Bu o demək deyil ki, Putin Rusiya vətəndaşlarının əksəriyyəti tərəfindən dəstəklənir. Birincisi, inzibati resurslar, federasiya subyektləri-xüsusilə qeyri rusların çoxluq təşkil etdiyi subyektlər Putinin seçilməsi üçün rahatlıqla işləyəcəklər. İkincisi isə Rusiyada avtoritar rejimi dəyişməyə hazır narazı elektorat olsa da, onların əksəriyyətinin lider kimi qəbul etdikləri namizədlər hələ ki yoxdur. Məhz bu da narazı çoxluğun böyük hissəsinin seçkilərə qatılmamasına gətirib çıxarır. Sözsüz ki, ABŞ və Qərb Rusiyada yeni bir hakimiyyətin yaranmasında maraqlıdırlar və bu məqsədlə demokratik müxalifətə dəstəklərini həmişə veriblər. Amma Rusiyanın bəzi milli xüsusiyyətləri çox zaman xarici qüvvələrin təsirlərini zəiflədir. Bunun da səbəbləri SSRİ vaxtına gedib çıxır. Bilirik ki, sovetlər dönəmində dünyada iki supergüc kimi ABŞ və SSRİ bütün sahələrdə rəqib olublar və bir sıra məsələlərdə isə hətta düşmən münasibətlər özünü göstərirdi. Aparılan təbliğat da insanlar arasında ABŞ-a həmişə nifrət aşılayırdı. Sovetlər dağılandan sonra Rusiyada imperiya ambisiyaları açıq şəkildə özünü göstərdi və Rusiya yenə də özünə rəqib kimi ABŞ-ı hədəf seçdi, insanları da buna inandırmağa çalışdı. Məhz onun nəticəsidir ki, bu gün ABŞ-ın dəstəklədiyi istənilən siyasətçi, namizəd əksər insanlar tərəfindən satqın, Rusiya dövlətinin maraqlarını satan şəxs kimi dəyərləndirilir. Bu səbəbdən seçkiyə ABŞ-ın təsiri Rusiyanın ABŞ-dakı seçkilərə təsirindən qat-qat zəif olacaq. Amma istənilən halda, seçki vaxtı və seçki sonrası liberal müxalifətin etirazlarının şahidi ola bilərik. Keçən il Rusiyanın 20-dən çox şəhərində eyni vaxtda etiraz mitinqlərinin olması məhz liberal müxalifətin təşkil etdiyi aksiyalar idi. Mən hesab edirəm ki, bu seçki Putin üçün əvvəlki seçkilərdən daha rahat olacaq. Namizədlərin zəif olması, Qərb, ABŞ-Rusiya qarşıdurması səbəbi ilə ölkədə güclü patriotik təbliğatın getməsi, ABŞ-la bağlı açıq şəkildə dövlətə düşmən obrazının yaradılması cəhdləri indiki rejimin hakimiyyətdə qalmasına xidmət edən amillərdir. Seçkinin necə keçməsindən asılı olmayaraq Rusiya bu seçkinin nəticələrinə xaricdən veriləcək qiymətlərə də məhz həmin "düşmənçilik" səbəbindən əhəmiyyət verməyəcək. Ona görə də hesab edirəm ki , ABŞ gələcəkdə Putinə seçki taktikası ilə cavab verməyəcək, tamam fərqli bir ssenari hazırlayacaq".

❑ **Cavanşir ABBASLI,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 16 (6905) 23 yanvar 2018

# YAP-a bir ildə 24 min nəfər üzv olub

## Müxalifətə üz tutanlar varmı; partiya yetkililərindən cavab...

**YAP sədrinin müavini, icra katibi Əli Əhmədov partiyanın İdarə Heyətinin iclasında hakim partiyanın sıralarının 2017-ci ildə genişləndiyini açıqlayıb. O bildirib ki, Yeni Azərbaycan Partiyasının sıralarının genişlənməsi ötən il ərzində də davam edib, il ərzində 24 min nəfərdən çox yeni üzv qəbul edilib. Nəticədə partiya üzvlərinin sayı 710 min nəfəri keçib.**

YAP-a müxalifətdə olan partiyaların bu sahədə durumunun necə olduğunu araşdırdıq. Müxalif partiyaların da sıralarına qoşulanlar olubmu?

Müsavat Partiyasından məlumat verildi ki, 2017-ci ildə partiyaya üzvlük üçün müraciət edənlərin sayı artıb. Nəticədə Müsavat üzvlərinin sayında artım olub. Demək olar bütün rayon təşkilatlarında yeni üzvlər qəbul edilib.

**AĞ Partiyanın sədri Tural Abbaslı bildirdi ki, kəmiyyətlə yox, keyfiyyətlə öyünməyin tərəfdarıdır:** "Biz daha çox keyfiyyətə üstünlük verməyi düzgün sayırıq. Təbii ki, ötən il AĞ Partiyanın sıraları genişlənib. Düzdür, Əli müəllimin dediyi fantastik rəqəmlərlə olmasa da bizim məqbul hesab etdiyimiz miqdarda artır. Bizim daimi fəaliyyət istiqamətlərimizdən biri də yeni üzvlərin cəlb olunmasıdır. Bunun üçün də planlaşdırılmış addımlar atılır, işlər görünür. Nəzərə alsaq ki, bugünkü hakimiyyətin təzyiqləri sayəsində cəmiyyətdə siyasi fəaliyyətə münasibət heç də yaxşı deyil, o zaman bu işin nə qədər ağır olduğunu siz də qəbul edərsiniz. Biz çalışırıq ki, cəlb etdiyimiz üzvlər AĞ Partiyanın ideologiyasını dərk etsin və siyasi istiqamətini emosional deyil rasional şəkildə dəstəkləsin. Yeni insanları emosialarından istifadə edərək cəlb etməyi doğru hesab etmirəm. Zatən belə üzvlərin dayanıqlığı və güvənirliyi də kifayət qədər olmur. AĞ Partiya üçün keyfiyyət kəmiyyətdən öndə gəlir. Əminəm ki, bundan başqa digər üsullarla partiyalara cəlb olunanların nə partiyalarına, nə də cəmiyyətə verə biləcəyi heç bir töhfə olmayacaq və ola da bilməz".

**ADP sədrinin müavini Taliyət Əliyev isə bildirdi ki, ADP-yə ötən il ərzində üzvlər qəbul olunub, lakin bu, əvvəlki illərlə müqayisədə azdır:** "Hesab edirəm ki, müxalifət partiyalarındakı bu sahədəki vəziyyət bir-birindən elə də kəskin fərqlənməz. Çünki ölkədə siyasi təqiblər əvvəlki illərlə müqayisədə daha da güclənib. Müxalif partiya üzvü olanlar hər addımbaşı problemlərlə üzləşir. YAP 24 min üzvün necə qəbul olunduğu isə bəllidir".



**AMİP katibi Elşən Mustafayev dedi ki, indiki dövrdə Azərbaycanda müxalifətdə olan partiyaya üzv olaraq aktiv fəaliyyət göstərmək istəyi hamıya məlum olan səbəblərə görə riskli və cəsarət tələb edən bir addımdır:** "Ona görə də müqayisə üçün hər hansı rəqəm göstərməyim yersiz olar. Bütün bunlara baxmayaraq 2017-ci ildə AMİP sıralarına qoşulan yeni üzvlərin dinamikasında artım olub. Bu artım xüsusilə Bakı şəhəri üzrə daha qabarıq görünür. Əhəmiyyətlisi isə odur ki, yeni üzvlərin əksəriyyətini bugünkü situasiyaya xüsusi baxışları olan, ölkəsini, millətini sevən 18-25 yaş arası gənclər təşkil edir. Onların da 80 faizdən çoxu ali təhsillilər və tələbələrdir".

**Ümid Partiyasının sədr müavini Tamilla Qulami bildirdi ki, partiyaya keçən il ərzində əksəriyyəti gənclər olmaqla yüzlərlə üzv qəbul edilib:** "YAP-dan fərqli olaraq, bizim sıralarımızın genişlənməsində təkcə partiyamızın yox, həm də yazılan üzvlərin özünün xəbəri olub, özləri müraciət ediblər və sənədləşmədə iştirak edib, özləri imza atıblar. Həm də könüllü şəkildə".

**KXCP sədrinin müavini Xəzər Teyyublu qeyd etdi ki, YAP hakimiyyət partiyası olduğu üçün büdcə təşkilatlarında işləyənlərin oraya üzv olması böyük bir hadisə sayılmamalıdır:** "Aydın məsələdir ki, dövlətdən maaş alan insanlar YAP üzvü olmasalar işlərinin itirilməsi təhlükəsi ilə üzbəüz qalacaqlarını düşünürlər. Ona görə də YAP-a üzv yazılanların sayı çox olur. İnkişaf etmiş ölkələrdə bu cür partiyaçılıq prinsipləri olmaz. Müxalifət partiyalarına isə bəlli səbəblərdən kütləvi axın yoxdur. Bu gün ölkədə ortada olan orta nəsil var ki, onlar siyasi fəaldırlar. KXCP sıralarına da 2017-ci ildə üzvlər qəbul edilib. Kütləvi olmasa da yeni üzvlər cəlb olunub".

❑ **Etibar SEYİDAĞA,
"Yeni Müsavat"**

# Neftin qiyməti il ərzində hasilatçı ölkələri sevindirəcək...

## İlham Şaban: "Neftin qiyməti 50 dollara və ondan aşağı həddə düşməyəcək"

**Dünya birjalarında neftin qiyməti bahalaşmaqda davam edir. Belə ki, ICE London qitələrarası birjasında "Brent" markalı neftin 1 barelinin dəyəri 70 sent, yəni 0,29% artaraq 68.81$-a təklif olunub. Nyu-Yorkun NYMEX əmtəə birjasında keçirilən elektron ticarət əməliyyatlarında WTI neftinin qiyməti 21 sent, yəni 0,33% bahalaşaraq 63,58$-da qərarlaşıb.**



Bəs görəsən, 2018-ci ildə neftin orta qiyməti 70 dollar civarında ola bilərmi? Hansı fundamental iqtisadi əsaslar neftin bahalaşmasını şərtləndirir və bu davamlı olacaqmı?

"Yeni Müsavat"ın suallarını cavablandıran **Neft Araşdırmalar Mərkəzinin rəhbəri İlham Şaban** bildirdi ki, neftin qiyməti nə qədər korreksiyaya uğrasa da, 60 dollar ətrafında dəyişəcək: "Ötən həftə "Brent" markalı neftin qiymətində ilk dəfə ucuzlaşma müşahidə olundu. O, nəinki 70, hətta 69 dollardan aşağı bir göstəriciyə qədər endi. Hazırda 68,80 dolları qiyməti ilə hərraclarda satılır. Neftin qiymətində belə bir korreksiya gözlənilən idi. Ancaq bu da kifayət qədər yüksək qiymətdir. Bu gün OPEK və Rusiya yenidən qeyd ediblər ki, 2018-ci ilin sonuna qədər neft hasilatının azaldılması ilə bağlı Vyana sazişinə bütün müddəaları ilə əməl ediləcək. Bunun nəticəsində bazarda stabillik və neftə olan tələb yüksək səviyyədə olacaq. Bu, neftin qiymətlərində az da olsa, 02,-0,3 faiz artıma meyllilik yaradır. Ancaq başqa bir məsələni də vurğulayım ki, Beynəlxalq Enerji Agentliyi 2018-ci illə bağlı maraqlı bir proqnoz açıqlayıb. Qeyd edib ki, cari ildə ən böyük hadisələr heç də OPEK-in hansı ölkənin kvotalara nə qədər əməl etməsi ilə bağlı aylıq hesabatları olmayacaq. İstər OPEK, istər OPEK+ ölkələrinin açıqlamaları birinci dərəcəli olmayacaq".

**İqtisadçının sözlərinə görə, ən böyük sürpriz ABŞ-dakı hasilatın artımı və Amerika qitəsində olan böyük neft hasilatçısı Venesuelada neft hasilatı ilə bağlı göstəricilər olacaq:** "ABŞ-da neft hasilatı ilk dəfə rekord həddə çatacaq, gündəlik hasilat 10 milyon bareli ötəcək. Venesuelada isə antirekord olacaq, çox böyük sürətlə aşağı düşəcək. Yeni Venesuelanın bu ilin əvvəlindəki açıqlamaları göstərdi ki, 2017-ci ilin yanvar-dekabr ayları ərzindəki hasilat göstəricilərində bu ölkədə neft hasilatı 600 min barel azalıb. Bu, fantastik bir rəqəmdir. OPEK öz üzərinə 2017-ci il ərzində hasilatın 1,2 milyon barel azaldılmasını götürmüşdü, 558 min barel də OPEK+ ölkələrinin üzərinə qoyulmuşdu. Sadəcə, bir ölkə - Venesuela o kvotanın yarısını yerinə yetirib. Hasilatın bu cür aşağı düşməsi tendensiyası yenə də 2018-ci ildə davam edəcək. Ona görə ki, Venesuelada neftin qiymətləri yüksəkdir, 2017-ci ildə 2016-ci illə müqayisədə neftin qiymətlərində 25-28 faiz arasında artım müşahidə olunub. Ancaq hasilatın həcmində kəskin azalma var. Kapital xərclərinin azaldılması hesabına onlar qarşıda duran investisiya məsələlərini həll etməyə çalışırlar. Çünki nefti çıxartmaq da mühüm xərc tələb edir. Venesuela neftinin böyük bir hissəsi çətin çıxarılan neft növlərinə aiddir. Bu da böyük kapital xərcləri tələb edir. Onlar da bu xərcləri sərf etmədikləri üçün ölkədə neft hasilatı kəskin azaldı".

**İlham Şaban onu da diqqətə çatdırdı ki, neftin qiymətinin bu il ərzində 50 dollar və ondan aşağı həddə düşməsi gözlənilmir:** "Bir tərəfdən ABŞ-da hasilatın artması, digər tərəfdən Latın Amerikasının aparıcı neft ölkəsində hasilatın azalması 2018-ci ildə çox maraqlı bir məqama gətirib çıxarır ki, şist neft hasilatının artması azalan tempi kompensasiya etməyə qadir olmur. Əgər OPEK ölkələri neftin ədalətli qiymətini 55-60 dollar dəhlizində görürdülərsə, artıq bu il neftin qiymətinin 70 dollardan yuxarı olduğu günlər də oldu. İlin əvvəlindən etibarən böyük bir zaman kəsimində neftin qiyməti 65-70 dollar dəhlizində var-gəl edir. Neftin qiymətində hər hansı korreksiya baş versə belə, əvvəlki kimi 50 dollara və ondan aşağı həddə düşməyəcək. Ucuzlaşma 60 dollar ətrafında ola bilər. Ola bilər ki, birinci rüb ərzində neftin orta qiyməti 65 dollardan yuxarı olsun. Ancaq yerdə qalan müddət ərzində 60 dollar ətrafında ola bilər. O zaman istənilən halda neftin orta qiyməti 60 dollardan çox olur. Əvvəlki qiymətlə müqayisədə bu, yenidən 20 faizə qədər artım deməkdir. Neft hasil edən şirkətlər, eləcə də iqtisadiyyatı neftdən asılı olan ölkələr üçün bu böyük sevincdir. 2017-ci ildə daha böyük gəlirə nail oldular, 2018-ci ildə də bu tendensiya davam edir".

❑ **Nərgiz LİFTİYEVA,
"Yeni Müsavat"**



# Qara yurdda talan var...

Xalid KAZIMLI

**Sensasion xəbərdirmi? Bəli. Dövlət Təhlükəsizliyi Xidməti hər gün bu boyda mütəşəkkil dəstəni ifşa edib yaxalamır.**

Görünməmiş cinayətdirmi? Əsla. Bu kimi əməllər bu ölkədə hər gün, daha geniş miqyasda törədilir.

Sıradan bir cinayət xəbərinin sensasionallığı ondadır ki, bu dəfə belə bir “pulqazanma əməliyyatı” keçirənlər ifşa olunublar.

Bax, bu gözlənilməzdir. Hiss olunur ki, yaxalananlar da həbs olunacaqlarını gözləmirmişlər.

Yoxsa onlar indiyə qədər ölkədən hissə-hissə 81 milyon dollar, 5 milyard rus rublu, 249 min avro (rəqəmlər cüzi şəkildə yuvarlaqlaşdırılıb) nağd şəkildə çıxarıblar və onlara bir söz deyən olmayıb.

Belə anlaşılır ki, bu adamlar qorxusuz-ürküsüz şəkildə xaricə valyuta daşımaq işinə baxırmışlar.

İndi əsas məsələ onların bu “məmulatı” (dolları, avronu və rublu) hansı anbardan götürmələrini araşdırıb tapmaqdır.

Təbii ki, bu şəxslər o boyda pulu kimlərdənsə alıb aparıb kimlərəsə verirmişlər, yaxud da hansısa hesaba yatırırmışlar.

Bu, adi, sadə cinayət növü deyil, yüksək mənsəbli, zəngin insanların mənafeyinə uyğun olaraq həyata keçirilən cinayətdir.

Təbii ki, ölkədən valyuta daşınması sırf iqtisadi səciyyəli cinayət olsa da, ümumilikdə dövlətin təhlükəsizliyi ilə bağlı məsələdir, onun iqtisadi dayaqlarını sarsıda biləcək əməldir.

Sovet dönəmində bu kimi cinayətlərin cəzası ağır idi. Bu işlə hətta diletant səviyyədə məşğul olan, sırf bir az pul-para qazanmaq məqsədi güdən şəxsləri “valyuta alverçisi” kimi mühakimə edib sərt şəkildə cəzalandırırdılar.

Bir də var söhbət milyonlardan gedə. Bu dəfə miqdar ölçüyəgəlməz dərəcədə böyükdür.

Həm də bu, son illərdə ölkədən çıxarılmış milyardların heç 0, 000001 faizi də deyil. Toplamda 81 milyon nədir ki?

Son 10 ildə ölkədən ən azı 50 milyard dollar pulun çıxarıldığı, dünyanın ən nüfuzlu banklarındakı hesablara yatırıldığı, yaxud da bahalı mülklər, müəssisələrin alınmasına xərcləndiyi iddia olunur və o iddialar bir qədər şişirdilmiş olsa belə, əsassız sayılmaz.

Bunun əyanı sübutu qalmaqallı məhkəmə proseslərində (“Beynəlxalq Bank işi”, “Rabitə işi”, “MTN işi”) ortaya çıxdı.

Bəlli oldu ki, ölkənin sərvətini talayan, dövlətin büdcəsini dağıdan, xalqın cibini soyan hər bir imkanlı adamın bir ayağı xaricdə olub, oğurluq varidatının mühüm bir hissəsini xaricə daşıyıb.

Bu, o deməkdir ki, onlar ictimai yerlərdə, mediada nə qədər dövlətçilikdən danışsalar da, sadəcə, riyakarlıq edirlər, nə dövlətçilik veclərinədir, nə də xalqın gün-güzəranı. Bura onlar üçün sərvət qazandıqları qara yurddur, “sezon yeridir”.

Adamları maraqlandıran yalnız öz var-dövlətçilikləridir. Onlar sadəcə mənimsədikləri milyonları qoruyub züryətlərinə necə ötürəcəklərini düşünürlər.

Bu cür şəxslərin bu gündən sabaha etibarları yoxdur, anlayırlar ki, ifşa olunan, məhşər ayağına çəkilən nazirlərin, komitə sədrlərinin, digər sabiq vəzifəlilərin aqibəti onları da gözləyə bilər.

Əslində bu, texniki məsələdir. O var-dövlətin “qazanılmasında”, daha dəqiqi, çırpışdırılmasında mühüm rol oynayan, oğrulara şərait yaradan yüksək mənsəbli şəxs (nazir, komitə sədri, xidmət rəisi və s.) işdən azad olunan kimi, bu cür vəzifəli oğruların qara günü başlayır. Onları zəhmli idarələrə çağırıb haqq-hesab (hər mənada) tələb edirlər.

Son nəticədə bu cür şəxslər illərlə “zəhmət çəkib” oğurladıqlarının mühüm bir hissəsini itirməli olur. Onların bu ölkədə saxladıqları varidatın (istər daşınmaz mal-mülk olsun, istərsə də kapital yığımının başqa formaları) böyük bir qismi əllərindən alınır, xaricdəki varidatlarına isə təhlükə yaranmır.

Bu adamları “xaricə güvənmə”yə vadar edən başlıca səbəb budur.

Belə görünür ki, hələ DTX bu istiqamətdə səylə işləməlidir, xarici ölkələrdə böyük ölçüdə malı-mülkü olan şəxslərin tam siyahısını hazırlamalıdır və onları ifşa etməlidir. Bu ölkəni talayıb, var-dövlətini xaricə axıdanlara güzəşt olmamalıdır.

Yoxsa 81 milyon nədir ki? Yerli oliqarxlar bu açıqlanan rəqəmə mühəqqəq gülüblər.

Bəs narahat olublarmı? Mütləq. Çünki bilmirlər, bu, çox şeyi aparacaq bir seldirmi, yoxsa bir hədəfə tuşlanmış təzyiqli sudurmu.

# Atalarının başını yeyən harın məmur övladları

## Başabəla “gül balalar” - bizdə və xaricdə

**Bu günlərdə mətbuata açıqlama verən baş nazirin müavini Abid Şərifov fikirləri ilə müzakirələrə səbəb oldu. O, müxtəlif qalmaqalların, cinayət işlərinin iştirakçısı olan övladların ailədə yaxşı tərbiyə almadıqlarını deyib: “Bəzən misal çəkirlər ki, övladlarımızın tərbiyəsini zəmanə dəyişir və sairə. Bu boş söhbətdir.**



Anar Məmmədov



Aynar Məmmədov



Xalid Mədətov



Rüstəm Orucov

Necə olur ki, eyni zəmanədə yaşayan Əlinin balası ağıllı, qanacaqlı, mərifətli, Vəlinin balası isə narkoman olur? Həmin narkoman isə belində silah gəzdirərək, avtomobili saatda 200 km/saat sürətlə idarə edir? Əgər zəmanə edirsə, niyə biri yaxşı, biri pis olur? Deməli, hər şey ailədə verilən tərbiyədən, münasibətdən asılıdır. Tərbiyə də 5 dəqiqəliklə olmur. Gərək övladı anadan olan gündən böyüyənədək tərbiyə edəsən. Kimsə mənim övladımın, yaxın qohumlarımın haradasa tərbiyəsizlik, yekəbaşlıq etməsi ilə bağlı bir kəlmə eşidə bilər? Xeyr, bu qeyri-mümkündür. Heç kəs mənim övladımın xuliqanlıq etdiyini görə və ya deyə bilməz. Amma digərləri ilə bağlı o qədər var... Gərək övladını vaxtında düzgün tərbiyə edəsən. Övladı yaxşı tərbiyə etməkdən isə vacib nəsə ola bilməz. Kimin tərbiyəsi varsa, gec-tez onun çörəyi, imkanı olacaq. Bu mənim şəxsi fikirlərimdir”.

Abid müəllimin bu fikirlərini böyük əksəriyyət həmkarı, baş nazirin digər müavini Əli Həsənova söz vurmaq kimi qiymətləndirdi. Çünki məhz onun nəvəsi yüksək sürətlə avtomobil idarə edərkən 2 nəfərin ölümünə səbəb olan ağır qəza törətmişdi. Xatırladaq ki, baş nazir müavininin Nail Allahverdiyev adlı nəvəsi bu əməlinə görə 6 il həbs cəzası alıb.

Onu da qeyd edək ki, avtoxuliqanlıq edən, yüksək sürətə görə qəza törədən, digər harın hərəkətləri ilə diqqət mərkəzinə gələn məmur övladları çoxdur. Elə ötən il oğlu avtobus sürücüsünü döyərək təhqir edən general-mayor Novruzəli Orucov övladının bu əməlinə görə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti rəisinin müavini vəzifəsindən azad olundu. Ondan əvvəl “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” QSC-nin keçmiş sədr müavini Mübariz Mədətov oğlu Xalid Mədətovun “avtoşluq” edərkən törətdiyi ağır qəzadan sonra vəzifəsi ilə vidalaşmalı olmuşdu. Xatırladaq ki, X.Mədətovun səbəb olduğu qəzada xalq artisti Ağasəlim Abdullayevin xanımı və nəvəsi həlak olmuşdu. Bundan əlavə, atasına üzqaralığı gətirən daha bir övlad general-mayor Şərif Əsədullayevin oğlu Tamerlan Əsədullayevdir. O, restoranda adam bıçaqladığına görə həbs edilmişdi.

Harın məmur övladlarından bəhs edərkən sabiq nəqliyyat naziri Ziya Məmmədovun oğlu Anar Məmmədovu qeyd etməmək mümkün deyil. Müxtəlif vaxtlarda media ilə çəkişmələrdə iştirakçı olan A.Məmmədov harınlıq nümunəsi sayılan davranışları ilə tez-tez gündəmə gəlirdi. Nəinki Anar, Ziya Məmmədovun qardaşı Elton Məmmədovun oğlu Aynar Məmmədov meyxana-şoular təşkil etdirib, kriminal mahiyyətli qafiyələr açdırırdı. Onun harınlığı jurnalist döydürməyə qədər yüksəlmişdi.

Elə Z.Məmmədovun müavini olan Arif Əsgərovun da övladının adı böyük cinayət əməlində keçir. Belə ki, A.Əsgərovun oğlu, “Liman Group” şirkətinin rəhbəri Elnar Əsgərovun da adının qarışdığı 48 milyon manatlıq dələduzluq əməli Bakı Ağır Cinayətlər Məhkəməsində araşdırılmaqdadır. E.Əsgərov baş fiqurantı xalası oğlu Emil Hüseynov olan cinayət işi üzrə məhkəmədə dindirilib.

Onu da qeyd edək ki, ipə-sapa yatmayan, ağlına gələni etməyə öyrəşmiş, qeyri-adi, əksər hallarda da qanunsuz əməlləri ilə yüksək vəzifəli valideynlərinə problem yaradan övladlar yalnız Azərbaycanda deyil, dünyanın əksər ölkələrində var. Elə bu yaxınlarda İsrailin baş naziri Benyamin Netanyahunun oğlu Yair Netanyahunun atasına çox ciddi problem yaradan səsyazısı üzə çıxmışdı. Mətbuatın yazdığına görə, o, dostları ilə Təl-Əvivdəki striptiz-klublardan birinə hökumət qarajına məxsus maşında gedib, bütün axşam boyunca onları dövlət qulluqçuları olan sürücü və mühafizəçi müşayiət edib. Audioyazıdan məlum olur ki, sərxoş cavanlar zarafatlaşır, qadınlar haqqında biədəb fikirlər səsləndirirlər. Bundan başqa, Yair Netanyahu dostu, məşhur iş adamı Kobi Maymonun oğluna deyir ki, o ona təşəkkür etməlidir, çünki atası (Benyamin Netanyahu) Kobi Maymon üçün 25 milyard dollarlıq “qaz sazişi” təşkil edib. Səs yazısı İsraildə çox geniş müzakirə və qınaqlara səbəb oldu, ata Netanyahunun ofisindən dəfələrlə açıqlamalar verildi.

Yaxud ABŞ-ın sabiq prezident Corc Buşun qızları Cenna və Barbara Buş spirtli içkilərə hədsiz aludə olublar. 2001-ci ildə polis Barbaranı gecə barında hədsiz içkili vəziyyətdə yaxalayıb. Buşun digər qızı Cenna da bacısından geri qalmayıb. Uels Universitetinin tələbəsi olan Cenna da Ostindəki digər bir restoranda “Marqarita” içkisi sifariş etdiyi üçün polis tərəfindən cəzalandırılıb.

Böyük Britaniyanın keçmiş baş naziri Marqaret Tetçerin oğlu Mark Tetçer isə hər dəfə tarixə fərqli qalmaqallarla girib. 2005-ci ildə 52 yaşlı biznesmeni Qvineyada çevrilişə görə ittiham edərək 500 min dollar məbləğində cərimələdilər və 4 il şərti cəza verdilər. Bundan başqa, o, qanunsuz silah alverinə, habelə iri dələduzluq faktlarına görə dəfələrlə ittiham edilib. Anası Marqaret Tetçer isə onun haqqında aşağıdakı unikal sözləri deyib: “Mark pulları o qədər çox sevir ki, eskimoslara qar, ərəblərə qum sata bilər”.

❑ TURQUT,
❑ “Yeni Müsavat”

YENİ MÜSAVAT
N 16 (6905) 23 yanvar 2018

# SSRİ-ni Qorbaçov, yoxsa xalq cəbhələri dağıdıb?

## Nəzakət Məmmədova: "SSRİ-nin parçalanmasını Qərb və onlarla gizli sövdələşməyə gedən Qorbaçov razılaşdırmışdı"

**SSRİ-nin süquta uğramasından bu günə qədər keçən 27 il ərzində hər zaman bu imperiyanın necə dağıldığı barədə müzakirələr gedir.**

Bəziləri hesab edir ki, Sovetlər Birliyi Amerika tərəfindən dağıdılıb. Soyuq müharibənin sonluğunun SSRİ-nin də sonunu gətirdiyi deyilir. Bunun əksini düşünüb, postsovet məkanı ölkələrinin Azərbaycan da daxil, bəzilərində xalq cəbhələrinin yaradılması və onların ölkələrini müstəqil etmək üçün başlatdıqları milli azadlıq hərəkatının SSRİ-nin süqutunda başlıca rol oynadığını düşünənlər də var. Bu imperiyanın dağılmasının səbəbi SSRİ-nin ilk və sonuncu prezidenti Mixail Qorbaçovla bağlıdır. 80-cı illərin sonlarında Amerika başda olmaqla, Qərb ölkələri tərəfindən hakimiyyətə gətirildiyi iddia edilən Qorbaçovun məhz xüsusi tapşırıq əsasında SSRİ-ni buraxdığı deyilir.

**Politoloq Nəzakət Məmmədova** SSRİ-nin dağılması prosesini hər hansı bir hadisə ilə bağlamağı doğru saymır: "Putinin "20-ci əsrin ən böyük geosiyasi fəlakəti" adlandırdığı nəhəng bir fövqəldövlətin dünya xəritəsindən silinməsi bir sıra daxili və xarici amillərlə bağlı olub və xalq cəbhələri, müttəfiq respublikada baş verən mitinqlər bu amillərin yalnız bir hələqsidir. SSRİ-nin süqutunun geosiyasi, siyasi, iqtisadi və s. amilləri olmuşdur. Onu qeyd edim ki, SSRİ yarandığı ilk illərdən etibarən kommunist ideologiyalı bir dövlətin meydana çıxması Qərbi narahat etmiş, bu dövlət uzun illər dünya birliyinin çox az üzvləri tərəfindən tanınmış, onunla diplomatik münasibətlər quran dövlətlərin sayı çox az olub. İkinci Dünya müharibəsi və faşizm təhlükəsi Qərb və SSRİ arasında olan gərgin münasibətləri arxa plana atsa da, İkinci Dünya müharibəsindən dərhal sonra soyuq müharibə başlamışdı. ABŞ və SSRİ arasında dünyanın bütün bölgələrində qızğın rəqabət baş vermiş, siyasi-diplomatik, kəşfiyyat müharibələri özünün ən yüksək nöqtəsinə çatmışdı. ABŞ və digər Qərb ölkələri SSRİ-ni parçalamaq üçün uzun illər mübarizə aparıblar. Ölkə qızğın silahlanma yarışına cəlb olunmuş, bütün vəsait kosmosun fəthinə, hərbi texnologiyaların inkişafına sərf olunmuşdu. Bundan başqa, Varşava Müqaviləsi Təşkilatına və Qarşılıqlı İqtisadi Yardım Şurasına daxil olan və faktiki SSRİ-nin Mərkəzi və Şərqi Avropadakı nüfuz dairəsinə daxil olan sosialist düşərgəsi ölkələrinin saxlanılması da ölkənin iqtisadiyyatına ağır yük olaraq onun tənəzzülünə səbəb olub. SSRİ-nin özünün bəzi geosiyasi səhvləri də bu prosesi tezləşdirmişdi. Məsələn, isti dənizlərə çıxmaq üçün Əfqanıstana sovet qoşunlarının yeridilməsi geosiyasi səhv idi. ABŞ özünün yaşadığı Vyetnam sindromu məğlubiyyətini SSRİ-yə də yaşatmaqı istəyirdi və bu, baş verdi. Qızğın silahlanma yarışında iştirak, dünyanın bütün bölgələrində çoxşaxəli agentura şəbəkəsinin saxlanılması və kəşfiyyat fəaliyyətinin həyata keçirilməsi, kommunizm ideologiyasının dünyaya yayılması üçün dövlət çevrilişlərinin təşkili ölkənin büdcəsini əhəmiyyətli dərəcədə kasadlaşdırdı".




**N.Məmmədova Qorbaçov amilindən də söz açdı:** "80-ci illərin ortalarında Qərbin təsir agenti olan Qorbaçovun hakimiyyətə gətirilməsi SSRİ-nin süqutunu sürətləndirən başlıca amil oldu. Ona qədər SSRİ-yə rəhbərlik edən şəxslər bir qayda olaraq müharibəni görmüş, iliyinə qədər kommunist ideologiyası ilə yoğrulmuş, böyük həyat təcrübəsi olan insanlar idilər. Onları ələ almaq, xəyanətə sövq etmək mümkün deyildi. Qorbaçov isə bütün bu stereotiplərdən uzaq, kənd təsərrüfatı sahəsindən və komsomoldan gəlmiş adam idi. Belə bir adamı təsir altına salmaq, ələ almaq Qərb xüsusi xidmət orqanları üçün çətin olmadı. Onun İngiltərə kəşfiyyatı tərəfindən ələ alındığına dair çoxsaylı şübhələr var. Qorbaçovun ABŞ-la danışıqlarda birtərəfli güzəştə getməsi, Almaniyadan sovet qoşunlarının çıxarılması və Şərqi Avropada baş verən "məxməri inqilablara" göz yumması SSRİ-nin təslimçi mövqeyə keçməsi öz fövqəldövlət statusundan imtina etməsi demək idi. Halbuki Macarıstan, Çexoslovakiya hadisələrinə və Polşadakı Solidarnost hərəkatına qarşı SSRİ-nin münasibəti əvvəllər çox kəskin olmuş, qoşun yeridilmişdi. Qorbaçovun Yenidənqurma adı altında SSRİ-də islahatlar həyata keçirməsi, konvergensiyanin uğursuzluğu nəticəsində SSRİ-nin çöküşü sürətləndi. Konvergensiya prinsipinə əsaslanan bu islahatlar SSRİ və Qərbin tədricən islahatlar vasitəsilə yaxınlaşmasını, bir-birinə məxsus müsbət xüsusiyyətləri mənimsəyərək ortaq bir dəyərlər sisteminə əsaslanan formasiyanın qurulmasını nəzərdə tuturdu. Məsələn, Qərb SSRİ-dən planlı iqtisadiyyatı, SSRİ isə siyasi demokratiyanı cəmiyyətə nüfuz etdirməli idilər. Bunun ideoloqu isə Saxarov idi. Lakin SSRİ birtərəfli qaydada bu güzəştlərə getsə də, Qərb buna getmədi. Eyni zamanda sovet dövlətinin təməl prinsiplərinə zidd olan prinsiplərin cəmiyyətə yeridilməsi çox mənfi nəticələrə gətirib çıxardı. Nəticədə totalitarizm prinsipinə əsaslanan bir dövlətin süqutu artıq qaçılmaz oldu.

Artıq SSRİ-də hərc-mərclik başlamışdı. Sosial narazılıqlar artmışdı. Belə bir şəraitdə millətlərarası münaqişə də alovlanmağa başladı. Ermənilər artıq Qarabağda Miatsum tələbi irəli sürməyə başlayanda, bildiyimiz kimi, Qorbaçovun ətrafında, müşavirləri sırasında ermənilər var idi. Heydər Əliyevin siyasi büro üzvlüyündən uzaqlaşdırılması Kremldə güc nisbətini ermənilərin xeyrinə dəyişdirmişdi. Eyni zamanda xarici səfərləri zamanı erməni diasporu ilə yaxın təmasları zamanı onlar Qorbaçova bu məsələnin ermənilərin xeyrinə həll olunması vacibliyini təlqin etmişdilər. Təbii ki, milyonlarla dollar vəsaitin və qiymətli hədiyyələr verməklə onun və ailəsinin üzvlərinin ələ alınması da istisna edilmir. Belə bir şəraitdə bəzi müttəfiq respublikalarda xalq cəbhələri yaradıldı və milyonlarla insan meydanlara çıxdılar. Bu proseslər SSRİ-nin süqutunu sürətləndirdi, lakin tək bu səbəbdən onun süquta uğramasını demək doğru olmazdı. Müstəqillik təkcə meydanlarda xalq cəbhələrinin mitinqləri hesabına başa gəlmişdisə, bəs necə oldu ki, meydan hərəkatları olmayan sovet respublikaları da müstəqillik qazandılar?! SSRİ-nin parçalanmasını Qərb və onlarla gizli sövdələşməyə gedən Qorbaçov razılaşdırmışdılar və bu prosesə artıq çoxdan start verilmişdi. Hətta Qorbaçov və Qərb arasında gizli sövdələşmə olmasa belə, hər bir halda uğursuz islahatlar apararaq fövqəldövlətin çöküşünün məsuliyyəti onun üzərində qalır. Lakin tarixdə qalan əsas məqam odur ki, Azərbaycan xalqı Qorbaçova, SSRİ rəhbərliyinə, ədalətsizliyə qarşı öz haqq səsini ucaldan xalqlar arasında yer tutmağa layiq olduğunu sübut edib".

❑ **Cavanşir ABBASLI,
"Yeni Müsavat"**

---

# Arxivlər açılsın, açılmasın?



**Zahid SƏFƏROĞLU**
zsafaroglu@gmail.com

**Prezident Ərdoğan iddiaları yerə-göyə sığmayan mənfur qonşulara yenə arxivləri açmağı təklif edib. Deyib ki, "qondarma soyqırımı araşdırmaq üçün arxivləri açmağı təklif etdik, amma indiyədək təklifimizi qəbul etmədilər, qarşımıza çıxmağa cəsarətləri çatmadı".**

Çünki xain xoflu olar, yalançı şahidləri sevər. Türkiyə erməni iddialarına son qoymaqdan ötrü çoxdandır ortaq, mötəbər beynəlxalq komissiya yaratmağı da təklif edir. Çifayda, erməni bundan da imtina edir. Nədəni bəlli: o halda əsassız soyqırım iddiaları siyasi qlafından çıxıb, tarixi mahiyyət daşımış olacaq. Təsadüfi deyil ki, uydurma genosidi tanıyan 10-15 ölkənin hamısı tarixi faktları yox, sırf özlərinin siyasi maraqlarını əsas götürüb.

Tarix isə siyasət, yalan-palan sevmir. Necə var, elə də qəbul olunmağı xoşlayır. Əlahəzrət fakt, tarixi dəlil-sübut yaman şeydir. Bəzən bir fakt az qala, bir hökm gücündə olur - o ki ola cəmi 100 il öncəki sərt, danılmaz gerçəkliklər...

Gələk indi özümüzə. O gün politoloq Zərdüşt Əlizadə vaxtilə prezident Əbülfəz Elçibəyə KQB arxivlərinin açılması üçün müraciət etdiyini demişdi. Lakin eks-prezident buna razı olmayıb, səbəbini Elçibəy belə izah edib ki, arxivlər açılsa, ölkədə vətəndaş müharibəsi başlayar.

Güman ki, Elçibəy də məsələyə tarixi yox, siyasi prizmadan yanaşmalı olub. Hansı daxili səs onu belə bir qərara sövq edib, artıq sirr olaraq onun özü ilə o dünyaya gedib. Ancaq bununla Z.Əlizadənin iddiaları da müəyyən qədər haqq qazanmış olub. O mənada ki, əgər qaranlıqlara işıq salınmırsa, obıvatel "iki ürəkli" qalır - elə də düşünə bilər, belə də.

"Arxivləri açmaq olmaz" fikri isə ən azı, mübahisəlidir, bizcə. Ona görə ki, həqiqət nə qədər acı olsa belə, onu qəbul eləmək hamının borcudur. Mədəni insanlar, sivil cəmiyyətlər belə edir. Öz keçmişini öyrənir, nəticə çıxarır, nəinki üsyana, qırğına qalxır, vətəndaş müharibəsinə girir.

Bir də ki, nə vətəndaş müharibəsi? Azərbaycana olan olub da. Ərazimizin 20%-i erməni işğalı altındadır. Onsuz da müharibə vəziyyətindəyik. İslanmışın yağışdan nə qorxusu? Ötən il "MTN işi"ndə bəzi adlar açıqlandı. Dünya dağıldımı, ya bəlkə dövlətin dayaqları sarsıldı?

Arxivlərin açılması acı həbə bənzər: zəqqum da olsa, çox vaxt o, xəstəliyin yeganə dərmanına çevrilir. İndi KQB arxivləri də. Cəmiyyəti canlı, lakin xəstə orqanizmə oxşatsaq, bəlkə məhz elə həmin arxivlərin açılması ilə Azərbaycan toplumu xeyli gümrahlaşacaq? Heç olmasa, bilinərdi ki, kimin əli kimin cibindən çıxır. Heç kim də heç kimdən quşqulu qalmazdı. Ən önəmlisi, cəmiyyətin daxilən təmizlənməsi, saflanması, "ballastlardan" qurtulması baş verə, ictimai səviyyədə ibrət dərsi götürülərdi.

Aydındır ki, satqın və şpionların ifşa olunması bənzər hərəkətlərin təkrarlanmaması üçün ən effektli yoldur və cəmiyyətdə belə hallara qarşı yaxşı immunitet yaradacaq. Bu, indiyədək kimlərinsə, hətta xalqa müqəddəs kimi təqdim edilən "kumirlərin", bəzi nadürüstlərin maskalarının yırtılmasının yaradacağı məyusluqdan qat-qat önəmlidir. Nə bilmək olar, bəlkə onların bəziləri və ya siyasi törəmələri hələ də aramızda öz çirkin işlərini davam etdirir.

Ötən ilin yayında cəbhə xəttində ermənilərə işləyən azərbaycanlı xainlərin saxlanması xəbəri yayıldı. Bəlkə də KQB arxivləri vaxtında açılsaydı, belə hallar olmazdı. Sözsüz ki, milli-azadlıq hərəkatının sıralarında da satqınlar olub, 20 Yanvar qanlı olaylarının yaşanmasında da onların məxsusi "xidmətləri"ndən gen-bol istifadə edilib. İstisna deyil ki, onların varisləri hələ də aramızda gəzir, hətta orduda, cəbhə bölgəsindədir.

Ən nəhayət, öz şərəfsiz keçmişinə görə xəcalət hissi keçirməyən, əksinə, bu gün də millətə mənəviyyat dərsi keçənlər necə bu millətin kumiri, önündə gedəni ola, ona örnək sayıla bilər ki?

Arxivlər açılsın! Əleyhinə olan varmı?



# Nümunəvi həkim

Zamin HACI
zaminhaci@gmail.com

"Özün özünü dərk et"

*(Sokrat)*

**Xəbər lentində başlıq gördüm: "Həkim özü özünü əməliyyat etmişdir". Foto-video da vardı, doğrusu, açıb baxmağa həvəs olmadı, ancaq gözümün ucuyla gördüm ki, həkim qardaşımız rahatca uzanıb əməliyyat masasına, bir əlində güzgü ilə qarnına baxır, o biri əli ilə də kəsib-tikir, ya nəsə başqa iş görür - mənim tibb elmindən savadım Səyavuş Novruzovun kvant fizikasından bilikləri qədər ola, ya olmaya.**

Sevindirici haldır. Həkimin özünün öz qarnını cırmağını deyirəm. Biz qabaqlar belə şeyləri Amerika kinolarında-zadda görmüşdük. Qəhrəman, misal üçün, Rembo müəllim dağda, meşədə yağı düşmənləri əsir-yesir günə qoyurdu, ancaq bir yaramazın gülləsi qayadan-filandan çovuyub bunun qoluna dəyirdi. Rembo iynə-sap götürüb yaranı kamal-ədəblə tikirdi. Bu zaman ağrını azaltmaq üçün ağzına odun parçası soxulmalı, dezinfeksiya üçün də mütləq yaraya viski tökülməlidir. Viski olmasa patronun barıtını boşaldıb yaranın içində yandırırdılar. Hollivud aktyorları belə böyüyürlər, bəs nə sanmışdınız? Bizdə də vaxtilə Rasim Balayev aslanla güləşəndə qabağına kimsə çıxa bilmirdi, elə ki, Ayaz Salayev onu "Yarasa" filmində sındırıb yastıqla qucaqlaşdırdı, vəssalam, bununla xarizma əldən getdi. Nəticədə Rasim müəllim sədri Rüstəm müəllimi beş qəpiyə baqaja qoydu, üstəlik, pensiyasının azlığından şikayətləndi.

Sözümün canı odur ki, gərək biz mətin, cəsur olaq. Bizim Qarabağ boyda dərdimiz vardır. Hər bir kəs o həkim yoldaşdan örnək almalıdır. Misal üçün, qəzetçilər özləri yazıb özləri oxusunlar. Rəssamlar ancaq avtoportret çəksinlər, camaatı bezdirməsinlər. Qəssablar eşşək ətini özləri kabab eləsinlər. Müəllimlər öyrətdikləri uşaqların işlədiyi obyektlərə üz tutsunlar. Əsgərlər... Nəsə, ta bu hissəsi hərbi sirdir, uzağa getməyə ehtiyac yoxdur, qəzeti ermənilər oxuyarlar.

Eyni zamanda həkimin özünü əməliyyat etməsini həkim yoldaşlarına, bütövlükdə səhiyyə sistemimizə etibarsızlıqla da bağlamaq olar, ancaq bu cür bağlantı bizə qətiyyən yaraşmır. Bu cür fikirə *(bəlkə fikrə yazmalıydım, ancaq son vaxtlar dili o qədər qatıb-qarışdırıblar, heç bilmirsən nə düzdü, nə isə artıq yanlışdır)* düşdüyüm üçün durub özümə təpik vurdum, inandığınız haqqı. Səhiyyəmiz son illərdə o qədər inkişaf edib ki, hətta müxalifət liderlərini 3 günə sağaldıb evə göndərirlər! Sonra bəzi ağzıgöyçək Qərb qurumları mızıldanır, guya bizdə avtoritar rejimdir. Qardaşım, avtoritar rejimdə müxalifət liderini timsahın qabağına atardılar! Ürəyinə stend qoymaq nədir, ciyərini çıxarardılar. Ermənistan boşalır, sözarası bunu da biləsiniz.

Ancaq bəzi ünsürlər hələ də dövlətimizin səviyyəsinə uyğunlaşmaqda çətinlik çəkir, müvəqqəti çətinliklərdən bəzən təxribat qayırırlar. Srağagün onlardan bir qrupu Xırdalan şəhəri tərəfdə avtomobil yolunu bağlamış, əhalinin istirahət, səfər hüququnu pozmuşdular. Deyirlər "AAF-park" adlı tikinti kompleksindən ev almışıq, ancaq evə istilik, qaz, su, işıq gəlmir, problem xirtdəyə qədərdir.

İlk növbədə, adam gərək ev alanda şirkətin adına baxsın. AAF - Ağır Atletika Federasiyası deməkdir. Bu evləri tikən qardaşımız nəsə o federasiyada vəzifə tutur. Ağır həyata hazır olmalı idiniz. İndi sən ştanqist olmaq məqsədi ilə mənzil almısansa, soyuğa, qaranlığa dözməlisən. Bunlar məşq prosesinin tərkib hissəsidir. Adam var, qışın günü dənizdə çimir. Hələ özü öz qarnını yaranı demirəm (deyəsən bayaq yazdım amma).

Doğrudur, bizdə yüngül atletika federasiyasından da ev alsan külək əsəndə uçub getmək ehtimalı vardır. Misal üçün, "Yüksəliş" adında bir tikinti şirkətimizin adı son illər ancaq alçaq işlərdən çıxmaqdadır. Dələduzluq, fırıldaq, nə bilim nələr. Bu mənada dil faktoruna çox aludə olmaq məsləhət görülmür.

Ən yaxşısı odur evi özün tikəsən. Suyunu Oğuzdan, qazını Şahdənizdən, işığını Mingəçevirdən ayrıca liniya ilə çəkib gətirəsən. Sonra yaşa özün üçün, kim sənə mane olur? Həkim qardaşımız kimi yaşa. Elə ona görə də həkimlər heç vaxt etiraz üçün yol bağlamağa çıxmırlar. Əksinə, camaat görəndə həkimin maşını gəlir, yol verir.




# Bakıdan Tehrana böyük yaxşılıq - İrəvana bəd xəbər

## Azərbaycan İranı Ermənistandan daha da uzaqlaşdırır, cənub qonşumuzla iqtisadi bağlarımız möhkəmlənir; işğalçı ölkə isə Gürcüstanda pozucu əməllərini davam etdirir: ASALA-nın ardınca erməni partiya sədri Cavaxetiyaya keçmək istədi, buraxılmadı...

**Ötən həftə Ermənistanın baş naziri Karen Karapetyan ölkəsinin İranla iqtisadi-ticari əlaqələrinin çox aşağı səviyyədə olmasından şikayətlənmişdi. Demişdi ki, keçən il İranla Ermənistanın ticarət dövriyyəsinin həcmi cəmi 62.5 milyon dollar olub ( Azərbaycanla ticarət dövriyyəsi müvafiq dövrdə 257 milyon dollar təşkil edib). "İranın əhalisi nəzərə alınarsa, bu, çox cüzi rəqəmdir" - Karapetyan giley-lənmişdi.**

"Yeni Müsavat" xatırladır ki, erməni baş nazir İranla Ermənistan arasında yeni dəmir yolu inşasının baş tutmamasına da münasibət bildirərək belə söyləmişdi: "Tərəflər arasında dəmir yolu əlaqəsi qurulacaqmı? Bu, əmtəə axınından asılı olacaq. Fikrimcə, belə bir dəmir yolunun inşası məqsəd yox, vasitə olmalıdır. Biz bu məsələyə bazar aktivləşəndə qayıdacağıq".

Bu arada Azərbaycanın Rəşt-Astara dəmir yolunun inşası üçün Tehrana yarım milyard dollar vəsait ayırdığı məlum olub. "Yeni Müsavat"ın məlumatına görə, bu barədə İranın "Mehr" agentliyinə İran İslam Respublikasının yollar və şəhər inkişafı nazirinin müavini Əsgər Kaşan bildirib. "Azərbaycanın Rəşt-Astara dəmir yolu üçün İrana ayırdığı 500 milyon dollar vəsait İran-Azərbaycan birgə müəssisəsinin yaradılmasına sərf olunacaq" - o deyib.

"Şimal-Cənub" nəqliyyat dəhlizi layihəsi çərçivəsində bu dəmir yolunun inşasına 2018-ci ilin birinci yarısında başlanacaq. "Astara-Rəşt dəmir yolunun işə düşməsi ilə Hindistan və Çin kimi dövlətlər öz yüklərini Mərkəzi Asiya ölkələri, Azərbaycan, Rusiya və Avropaya göndərə biləcək", - deyə iranlı məmur qeyd edib.

Bu da qeyd olunur ki, öncələr İtaliya, Rusiya və Çin şirkətləri Rəşt-Astara dəmir yolunun inşası üçün böyük sərmayə qoymağa hazır olduqlarını bildirib. Ancaq iranlı nazir müavininin sözlərinə görə, Tehran məhz qonşu ölkə kimi Azərbaycandan yatırım almağa və birgə müəssisə qurmağa qərar verib.

*****

Bütün hallarda bu, əlbəttə ki, Azərbaycan-İran iqtisadi əlaqələrinin daha da möhkəmlənməsinə, deməli, iki qonşu ölkənin bir qədər də yaxınlaşmasına sanballı töhfədir. Faktiki, İrana böyük bir yaxşılıqdır. Çünki dəmir yolunun işə düşməsindən İran xəzinəsi də böyük gəlirlər əldə edəcək.

Bu yerdə yada salaq ki, tərəflər arasında iqtisadi münasibətlər təkcə nəqliyyat sahəsini əhatə etmir, başqa sferalarda da uğurla davam edir. Məsələn, Bakıda İranın iştirakı ilə ortaq dərman zavodları inşa edilməkdədir.

Ötən ay isə İrandakı məlum iğtişaşlara rəsmi Bakı özünün prinsipial mövqeyi və yanaşması ilə Tehrana elədiyi başqa bir yaxşılıqla diqqət çəkmişdi ki, bu da tərəflər arasında etimadın artmasına və siyasi atmosferin yaxşılaşmasına başqa mühüm töhfə sayıla bilər. Bunu da yada salmağa dəyər ki, 2018-ci ilin birinci yarısında Moskvada Rusiya, Azərbaycan və İran prezidentlərinin üçlü formatda növbəti görüşü keçiriləcək.

Bu kimi təmas və layihələr isə şübhəsiz ki, üç ölkə arasında iqtisadi-ticari telləri gücləndirməklə yanaşı, onlar arasında siyasi bağları və qarşılıqlı asılılığı da yaxşı mənada artırmış olur. Həmçinin Türkiyə-Rusiya əlaqələrinin yüksəlişdə olmasını nəzərə alsaq, ehtimal eləmək olar ki, günün birində Azərbaycanın Qarabağ məsələsi üçlü və ya dördlü formatlarda diqqət mərkəzinə gətirilə və Azərbaycanın ərazi bütövlüyü və suverenliyi öndə tutulmaqla, irəliləyişə nail oluna bilər.

Yeri gəlmişkən, son vaxtlar bir sıra tanınmış rusiyalı politoloqlar (Maksim Şevçenko, Aleksandr Duqin) artıq bu haqda danışmağa başlayıblar...

*****

Bu arada isə Qarabağ məsələsinə görə illərdir haqq elədiyi blokada şəraitində olan Ermənistan qonşu Gürcüstanın ermənilər yaşayan və Bakı-Tiflis-Qars dəmir yolunun keçdiyi Cavaxetiya bölgəsində pozucu əməllərini davam etdirir. Bu xüsusda ASALA erməni terror təşkilatının artıq sözügedən bölgədə özəyini yaratması haqda məlumat vermişik. Bu da növbəti fakt.

"Yeni Müsavat" apsny.ge saytına istinadən xəbər verir ki, bu günlərdə Gürcüstan sərhədçiləri Ermənistanın "Yerkir Sirani" partiyasının başçısı, İrəvan Şəhər Ağsaqqallar Şurasının üzvü, deputat Zaruhi Postancyanı ölkə ərazisinə buraxmayıblar. Ona bildirilib ki, Gürcüstana keçməsi qadağan edilib.

Postancyanın sözlərinə görə, ona səbəblər barədə heç nə deyilməyib. Məlumatlara görə, deputat öz partiyadaşları ilə Axalkalakiyə partiyanın təşəbbüsü ilə başladılan "ümumerməni qiyamı" ilə bağlı təbliğat aparmaq üçün (?! - red.) gedirmiş. Sonuncu dəfə belə bir proqramla onun Cavaxetiyada iki ay öncə görüş keçirdiyi deyilir. Bunu da əlavə edək ki, 2015-ci ildə o, öz tərəfdarları ilə birgə Tiflisdə erməni kilsəsinin açılışı mərasimində etiraz aksiyası keçirmişdi.

Qarabağ məsələsində də radikal mövqeyi ilə fərqlənən Postancanın indiki Sərkisyan rejiminə müxalif mövqedə durduğu məlumdur. Lakin onun qonşu, suveren bir ölkədə kompakt ərazidə yaşayan erməni əsilli Gürcüstan vətəndaşlarını siyasi mübarizəyə cəlb eləmək yönündə fəaliyyəti suallar doğurmaya bilməz. Erməni ermənidir hər halda...

❑ Siyasət şöbəsi ,

YENİ MÜSAVAT
N 16 (6905) 23 yanvar 2018

# Ermənistanda prezident-baş nazir qarşıdurması baş verə bilər

## Ekspertlərdən işğalçı ölkədəki prezident seçkiləri ilə bağlı ilginc təhlillər

**"Ermənistanda hakimiyyətdə struktur dəyişikliyinə hazırlıq gedir. Prezident Serj Sərkisyan prezident kürsüsündən baş nazir kürsüsünə keçmək istəyir. Sərkisyanın məqsədi hakimiyyətinin ömrünü mümkün qədər uzatmaqdır".**

"Atlas" **Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu** Ermənistanda mart ayında keçiriləcək prezident seçkiləri ilə bağlı "Yeni Müsavat"a açıqlamasında bunları bildirdi. Ekspert xatırlatdı ki, artıq Ermənistan Konstitusiyası dəyişib və bu ildən əsas fiqur prezident yox, baş nazir olacaq: "Sərkisyan məhz elə bu məqsədlə sözəbaxan prezident axtarışında Ermənistanın Böyük Britaniyadakı səfiri Armen Sərkisyana üstünlük verib. Hakim partiya həmin şəxsi prezident seçdirəcək".



Arzu Nağıyev

**Ancaq E.Şahinoğlu hesab edir ki, gələcək prezident ssenarini poza da bilər:** "Məsələn, Gürcüstanda hakim partiya istədiyi şəxsi prezident kürsüsündə otuzdurdu. Ancaq Gürcüstan prezidenti zaman-zaman baş nazirin fərmanlarının və təyinatlarının əleyhinə çıxır və müəyyən qarşıdurmalar yaranır. Ona görə də Ermənistanda gələcəkdə prezident-baş nazir qarşıdurmasının baş verməyəcəyini söyləmək çətindir". **Politoloq qeyd etdi ki, Dağlıq Qarabağ danışıqları baxımından Ermənistanda unikal vəziyyət yaranır:** "Konstitusiya dəyişikliklərinə qədər danışıqlara Ermənistan prezidenti məsul idi. İndi isə prezidentin səlahiyyətləri azaldılacaq. Deməli, mümkündür ki, danışıqlarda Ermənistanı prezident yox, səlahiyyətləri artırılan baş nazir təmsil etsin. Doğrudur, böyük ehtimalla Azərbaycan prezidenti ilə yenə də Serj Sərkisyan görüşəcək. Ancaq bu dəfə o, parlamentin rəyini də nəzərə almalıdır. Əgər əvvəllər Serj Sərkisyan prezident kürsüsünə istinad edərək hər hansı razılaşma ətrafında qərar verə bilirdisə, bu dəfə parlamentdəki qüvvələrin rəyini nəzərə almaq məcburiyyətində qalacaq. Bunun danışıqlara elə bir ciddi təsiri olacağını düşünmürəm. Onsuz da Serj Sərkisyan və ya ondan əvvəlki prezident Robert Köçəryan danışıqlarda heç bir real addım atmadılar. Baş nazirin də işğalçı siyasətdən vaz keçəcəyini düşünmürəm. Sadəcə, parlament tez-tez yeni baş nazirdən Qarabağ danışıqları ilə bağlı hesabat tələb edəcək və baş nazir hər dəfə deputatları məlumatlandırmalıdır. Bunu rəsmi Bakı da nəzərə almalıdır. Mənə elə gəlir ki, Azərbaycan parlamenti də il ərzində bir neçə dəfə danışıqların gedişatı haqqında məlumatlandırılmalıdır ki, qarşı tərəf bu məsələdə də üstünlük qazanmasın".

Bu arada S.Sərkisyanın namizəd göstərdiyi səfir Londona qayıtdı. O bildirib ki, düşünüb qərar verəcək. Ortaya sual çıxır, səfir niyə tərəddüd edir? Ermənistanın mövcud durumuna görə, yoxsa Rusiya və ya başqa ölkələrdən dəstək almaq istəyir? Yəni Aram Sərkisyan Rusiyanın da namizədidir, yoxsa Moskva hazırkı baş nazir Karen Karapetyanı müdafiə edir?

**E.Şahinoğlu:** "Əlbəttə, Ermənistanda prezidentin və baş nazirin kimliyi Moskva ilə qeyri-rəsmi şəkildə razılaşdırılmalıdır. Çünki Ermənistan tamamən Rusiyadan asılıdır. Ancaq hesab etmirəm ki, prezident Qərb ölkələrinin birində çalışan səfir olacaqsa, Moskva mütləq onun əleyhinə getməlidir. Ona qalsa, Ermənistanın hazırkı xarici işlər naziri Edvard Nalbəndyan bu vəzifəyə Fransadakı səfir postundan gətirilmişdi. Hardan gəlirsə-gəlsin, Moskvaya itaət etməlidir və hakim partiyada və diplomatik korpusda hər kəs bu amillə hesablaşır". **Politoloq qeyd etdi ki, S.Sərkisyanın hakimiyyət bölgüsü Moskvada təsdiq olunmalıdır:** "Kim bilir, bəlkə Moskva Karen Karapetyanın prezidentliyində israr etdi və ya onun baş nazir kimi davam etməsinə üstünlük verdi. Ona görə də Sərkisyan 3 mərhələ keçməlidir. Birinci mərhələ prezidentin və baş nazirin kimliyini müəyyənləşdirməlidir, ikinci mərhələdə Moskvanın bu təyinatlara razılığını almalıdır, üçüncü mərhələdə həmin şəxsləri seçdirməlidir".

**Politoloq Arzu Nağıyev isə əməkdaşımıza bildirdi ki, kimin prezident olması Sərkisyan üçün çox önəmli və vacibdir:** "Onun əsas namizəd kimi göstərdiyi Armen Sərkisyan Böyük Britaniyada səfir, geniş biznes imkanlarına malik, Avropanın aparıcı siyasətçiləri ilə münasibətləri olan şəxsdir. O, Ermənistanın baş naziri olub və siyasi və iqtisadi problemləri bilən şəxsdir. Yeni hazırkı prezident Armen Sərkisyanı dövlət başçısı kürsüsünə əyləşdirməklə ilk növbədə Rusiyaya Avropaya meylli olmaqla bağlı bir ismarış göndərir və daxili ictimai rəyə təsir edəcək bir addım atır. Eyni zamanda Armen Sərkisyanın "Qarabağ klanı"ndan olmadığını qabardır. Baxmayaraq ki, seçki öncəsi oynanılan kart əlbəttə ki, "Qarabağ kartı"dır. Bundan başqa, Rusiya və onun sərhəd qoşunları və bazaları ilə bağlı verilən bəyanatları da bunun bariz sübutudur". **Hazırkı baş nazir Karen Karapetyanın necə davranacağına gəldikdə, A.Nağıyev bunları söylədi:** "O, birmənalı şəkildə Rusiyanın "adamı"dır və təbii ki, Kremlin siyasətini yürüdən və həyata keçirən şəxs olacaq. Maraqlısı odur ki, martın 2-də kimin prezident olmasından asılı olmayaraq, aprelin 9-da artıq baş nazir məsələsi də həll edilməli və əsas səlahiyyətlər ona verilməlidir. Zənnimcə, kimin seçilməsindən asılı olmayaraq, Sərkisyan rejimi saxlanılacaq və Dağlıq Qarabağ məsələsində status -kvonun qorunması üçün müvafiq addımlar atılacaq. Armen Sərkisyan da bunu başa düşür və neyin nə ilə əvəz edilməsinin fərqindədir, imtina məsələsi də ona görə gündəmə gəlib. Bütün təhlillər göstərir ki, Ermənistan hakimiyyəti bugünkü rejimi saxlamaq niyyətindədir və Rusiya da onu dəstəkləyir".

❑ **E.PAŞASOY,**
❑ **"Yeni Müsavat"**

# Afrin əməliyyatı - kiçik ərazidə oynanan böyük oyun

## Suriyanın şimalında kürdlərin taleyi kiçik vilayətdə həll olunacaq

**Yanvarın 22-də Türkiyə ordusu və müttəfiq qüvvələrin Suriyanın Afrin vilayətinə qarşı əməliyyatı davam etdirilib. "Zeytun budağı" adı verilmiş əməliyyat çərçivəsində müxalif "Azad Suriya Ordusu" (ASO) qüvvələri Afrinin içərilərinə doğru 7,5 kilometr irəliləyib.**

Qeyd edək ki, əməliyyatın ikinci günündə Türkiyə Silahlı Qüvvələri 32 təyyarə vasitəsilə 45 hədəfi məhv edib. "Habertürk" kanalının məlumatına görə, əməliyyatın ikinci günü ASO bölmələri Azez-Gülbaba sərhəd xəttindən Afrin ərazisinə daxil olub. Qeyd edək ki, bəzi iddialara görə, əməliyyatda 25 min ASO və digər müxalif qruplardan olan döyüşçülər və 6400 nəfərlik Türkiyə hərbi qüvvələri qatılıb. Türkiyə ordusu ikiqat sürətlə irəliləyərək 4 günlük yolu iki günə keçib və 48 saat ərzində 7.5 kilometr Azez içərilərinə daxil olub.

Bu arada məlum olub ki, Afrinin mərkəzindən mülki əhali qaçır. Rusiyanın Suriyadakı əməliyyat qərargahından verilən məlumata görə, son 24 saat ərzində 1000 min nəfərdən çox qadın və uşaq Afrini tərk edib. Əhali Tel Acar yaşayış məntəqəsinə doğru qaçır. Əhalinin bir qismi isə oradan Hələb şəhərinə doğru gedir.

Bu arada məlum olub ki, Türkiyə ordusunun Baş Qərargah rəisi, general Hulusi Akar "Zeytun budağı" əməliyyatının gedişini izləmək üçün qoşun komandirləri ilə birlikdə Hatay vilayətinə gedib.

BBC-nin məlumatına görə, Fransa hökumətinin tələbi ilə yanvarın 22-də axşam Bakı vaxtı ilə saat 19-da BMT Təhlükəsizlik Şurası Türkiyənin Afrin əməliyyatını müzakirə edib. Fransa xarici işlər naziri bildirib ki, Afrin əməliyyatı ilə bağlı türkiyəli həmkarı ilə danışıqlar aparıb və Suriyadakı vəziyyətlə, Quta, İdlib və Afrindəki olaylarla bağlı BMT TŞ-nin toplantısını onlar çağırıblar.



Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğli isə bəyan edib ki, Afrin əməliyyatını BMT TŞ-nin müzakirəsinə çıxaran ölkəni "müttəfiq" deyil, "terrora dəstək verən ölkə" olaraq görəcəklər. Yeri gəlmişkən, BMT TŞ-nin 5 daimi üzvündən biri - ABŞ Türkiyənin sərhəd təhlükəsizliyi ilə bağlı qayğılarının olduğunu, Rusiya isə ABŞ-ın təktərəfli Suriya siyasətinin "Ankaranı qəzəbləndirdiyini" bəyan edib.

Qeyd edək ki, Türkiyə uzun müddət sərhədlərində möhkəmlənən PYD/YPG terror qruplaşmasını sərhədlərindən təmizləmək üçün şənbə günü saat 11-də əməliyyata başlayıb. Əməliyyatda 25 min nəfərə yaxın əsasən ASO, "Levlek əş-Şam" və digər qrupların birləşməsi və Türkiyə ordusu iştirak edir. Əməliyyatın əsas məqsədi YPG-ni Afrin rayonundan çıxarmaq, bölgədə Türkiyə və müttəfiqlərinin nəzarətini təmin etmək, təhlükəsizlik bölgəsi yaratmaqdır. Baş nazir Binəli Yıldırım bildirib ki, əməliyyatın əsas hədəfi Türkiyə-Suriya sərhədindən 30 kilometr içərilərə doğru təhlükəsizlik zonası yaratmaqdır.

Ötən ay Suriya ordusu Türkiyə ilə sərhəddə yerləşən İdlib vilayətində təmizləmə əməliyyatları başladıb. Rusiya və İranın dəstək verdiyi bu əməliyyat hazırda davam edir və hökumət qüvvələri vilayətin böyük bir qismini müxaliflərdən azad edib. Türkiyə hakimiyyəti daha öncədən mövqeyini ortaya qoyaraq Afrin kimi sərhəd rayonundan kürd silahlılarının çıxarılmasını tələb edib.

Afrinin azad edilməsi əməliyyatı Türkiyə üçün mühüm əhəmiyyət kəsb edir. Çünki ötən il avqustda başlayan "Fırat kalkanı" əməliyyatı nəticəsində Türkiyə ordusu Əziz-Cerablus xəttində 100 kilometrə qədər uzunluğunda 2 min kv.km ərazini İŞİD-dən azad edib. Bu əməliyyatın davamı Afrində olmalıdır ki, Türkiyə sərhədinin bir qismini özü, yeni müttəfiqlərinin nəzarətinə versin. Afrin coğrafi olaraq Türkiyənin ərazilərinə daxil olan bir çıxıntıdır və rəsmi Ankaranın bəyan etdiyi kimi, bir çox terrorçu qruplar Afrini Türkiyəyə keçid məntəqəsi kimi istifadə edirlər.

Rəsmi məlumata görə, Afrinin mərkəzində 50 min mülki insan yaşayır. Ərazidə ümumilikdə 8-10 min arası YPG və müttəfiq qüvvələri var. İlk bombardmanlarda 100-dən çox terrorçu məhv edilib. Ancaq əməliyyatın tezliklə başa çatacağını demək tələsik olardı. Afrin əməliyyatının sonrakı gedişi Türkiyə və ABŞ-ın anlaşmasından asılı olacaq. Əgər amerikalılar kürdlər üçün uyğun variant təklif edərlərsə, kürdlər geriyə - Qamışlı-Raqqa bölgəsinə geri çəkilə bilərlər.

Yox, əgər anlaşma olmasa, kürdlər müqavimət göstərməyə davam edəcək. Bu isə o deməkdir ki, savaş uzanacaq. Çünki ərazinin şəraiti mürəkkəbdir, Kobanidə və Raqqada olduğu kimi küçə döyüşləri olacaq. Bu isə yorucu və ağır müharibə deməkdir. Məsələnin daha bir mənfi tərəfi kürdlərin Kobanidə və digər şəhərlərdə vuruşan kürdlərin ciddi döyüş təcrübələri və həm də amerikalı təlimatçıların öyrətdiyi döyüş taktikaları var. Ötən ilin yayında Vaşinqton kürdlərə 300 milyon dollarlıq silah-sursat verib.

Kürdlərdən fərqli olaraq ASO-nun bu qədər təcrübəsi və savaş bacarığı hələ ki müşahidə olunmayıb. Bu da "Fırat Kalkanı" əməliyyatında olduğu kimi, gücün Türkiyə ordusunun üzərinə düşəcəyinə işarədir. Bu o deməkdir ki, Afrin əməliyyatı uzana bilər. Ancaq istənilən halda Türkiyə üçün geri yol yoxdur, Afrin azad edilməlidir.

### Kürdlər rusları, ruslar isə amerikalıları

Maraqlıdır ki, artıq bəzi kürd aktivlər Rusiyanı onları satmaqda ittiham edib. Rusiya mediası isə kürdlərin növbəti dəfə amerikalılar (Qərb) tərəfindən aldadılaraq yalnız qoyulduğunu yazır. Rusiya xarici işlər naziri Sergey Lavrov isə ABŞ-ın kürdləri Dəməşqlə dialoqdan uzaqlaşdırdığını və onları separatçılığa təhrik etdiyini iddia edib.

Lavrov eyni zamanda deyib ki, kürdlər gələn ay keçiriləcək Suriya Milli Dialoq Konqresinə dəvət olunanlar siyahısındadır. Rusiya XİN rəhbəri bildirib ki, ABŞ kürdlərin əli ilə provokasiyaları davam etdirir.

Hazırkı vəziyyəti mürəkkəbləşdirən ən önəmli detal kürdlərin gələcək taleyinin Afrindəki əməliyyatdan asılı olmasıdır. Əgər Afrin sürətli şəkildə həll olarsa, o zaman növbəti ünvan Raqqa və digər kürd (SDQ) bölgələri olacaq. Bunu indi hər kəs yaxşı anlayır. Bu mənada Suriya kürdlərinin gələcək taleyi həm də Ankaradan asılıdır. Formal olaraq Ankaranın müttəfiqləri olan Rusiya və İran Afrin əməliyyatına qarşı çıxış ediblər. O cümlədən rəsmi Dəməşq də Afrin məsələsini ərazi bütövlüyünə təhdid adlandırıb. Ancaq aydın məsələdir ki, bu daha çox beynəlxalq sənədlər üçün edilən formallıqdır. İstənilən halda hazırda Suriyanın 30 faizə yaxın ərazisinə nəzarət edən kürdlərin cəzalandırılması həm Dəməşq, həm də onun müttəfiqləri olan Rusiya və İran üçün göydəndüşmədir. Üstəlik, kürdlər indi amerikalılarla birgə hərəkət edir.

Beləliklə, Yaxın Şərqdə daha bir mürəkkəb hərbi-siyasi kampaniya artıq start götürüb. Afrin kiçik bir ərazi olsa da, bölgənin taleyi üçün önəmi çoxdur. Bu əməliyyat həm də Suriya kürdlərinin gələcək taleyi ilə bağlı cavabsız suallara aydınlıq gətirəcək.

❑ **KƏNAN,**
❑ **Musavat.com**



# Ac ölkənin fövqəliddiaları...

Hüseynbala SƏLİMOV

**"Nəhayət ki, ABŞ Rusiyanı fövqəlgüc kimi tanıdı!". Nə qədər qəribə olsa da, rusiyalı təhlilçilərin ABŞ-da qəbul olunmuş son təhlükəsizlik sənədlərinə ilkin reaksiyası belə oldu.**

Daha təbiisi bu olardı ki, onlar ABŞ-ın hələ də Rusiyanı özü üçün əsas təhdid saymasından incik olaydılar, çünki soyuq müharibə çoxdan bitib, kommunizm artıq yoxdur və formal şəkildə olsa da, Rusiyanın özündə də bütün böyük ideologiyalar təmsil olunubdur.

Amma yox, bunları tamam başqa məsələ maraqlandırır - ac olaq, susuz olaq, amma hamı rus silahından danışsın.

Bu, nə psixologiyadır, nə düşüncə tərzidir - şəxsən biz bunu anlamaqda acizik, çünki ta qədimdən, hələ qədim Yunanıstan və ya Roma dövründən hər xalqın imperiya ambisiyalarının mərkəzində onun xudbin maraqları dayanıb; başqalarını idarə etmək və talamaqla varlı yaşamaq...

Amma rus imperiyasının ən qüdrətli çağlarında belə bu xalq demək olar ki, aclıq və səfalət içində olub. Üstəlik, 1861-ci ilə qədər ölkə quldarlığa yaxın bir quruluşda yaşayıb, üstəlik, burada Yunanıstanda və Romadakı kimi hərbi əsirlər və yaxud da Amerikadakı kmi "qaradərili"lər deyil, elə ruslar özləri, daha doğrusu, rus kəndlisi qul halında yaşayırdı.

Qüdrətli çağlara gəldikdə isə, çətin sovet dövründən o tərəfə gedə bilsinlər, çünki indinin özündə belə həmin dövrdə yaradılmış hərbi silah və texnika hesabına cikkildəyirdilər. Amma sovetin vaxtında orta statistik vətəndaşın sosial və siyasi durumu necə idi? Öyünməli nəsə bir şey vardımı?

Yox, idi. Amma bunlar bu haqda nə 19-cu əsrdə, nə də sonra düşünməyiblər və 2018-ci ildə də o adama səs verməyə hazırlaşırlar ki, həmin adam Ukraynanı işğal etsin! Baxın, Ukraynanın şərqini və Krımı işğal etmiş Putindən reytinqdə önə keçmək üçün V.Jirinovski prezident olacağı təqdirdə bütün Ukraynanı işğal edəcəyini vəd edir!..

Soruşan da yoxdur ki, balam, bu Ukrayna sizin üçün nədir? Ölkə, xalıq deyilmi? Yoxsa dünya tamam hərc-mərclik və yiyəsizlikdir?..

Elə qəribəsi də budur ki, azı on illərdir, hamı onlara bunu deyir, amma heç faydası varmı? Əksinə, Rusiyanın adı qorxu və təlaş subyekti kimi hallananda bunlara ləzzət edir. Hər millət bir şeydən fəxr duyur, bunların da fəxarət yeri hamıya qorxu aşılayan təpədən-dırnağa silahlı Rusiyadı...

Ona görə də biz yazmaqla da bir şey düzələsi deyil. Elə bu yazını yazarkən özümüz üçün bir-iki müqayisə apardıq və bu müqayisələr ötən 2017-ci ili əhatə edir.

Həmin il ABŞ səhiyyəyə 1.17 trilyon, Rusiya isə 6 milyard dollar xərcləyib. ABŞ təhsilə 85 milyard, Rusiya 9 milyard dollar ayırıbdır. Elə həmin il ABŞ elmə 32 milyard, Rusiya isə 1.95 milyard dollar ayırıb!..

Fərqləri duyursunuzmu? İndi başqa ədəd deyəcəm. Həmin il ABŞ hökumət aparatının saxlanmasına 8 milyard, Rusiyasa düz iki dəfə çox - 15 milyard dollar xərcləyibdir!

Baxın, ABŞ-ın əhalisi Rusiyanınkından təxminən iki dəfə çoxdur, düşünmək olardı ki, hökumətin xərcləri də daha çox olmalıdır. Amma yox, total büdcəsi ABŞ-ın təkcə hərbi büdcəsindən üç dəfə kiçik olan bir ölkənin hökumət xərcləri "rəqib"indən iki dəfə artıqdır!

Bəlkə ruslar bunun səbəbləri haqqında düşünsələr, daha yaxşı olar? Axı bu da hakimiyyətin büdcəni talamasının bir yoludur, özü də leqal yoludu və nə qədər qeyri-leqal yollar da var ki, bunu siz bəlkə məndən də yaxşı bilirsiniz...

Amma yox, heç kim bu haqda düşünmür. Hətta baxıram, yazırlar ki, büdcəmiz seçki debatlarının predmeti olmamalıdır! Deməli, büdcədən yox, Ukraynadan danışmaq lazımdır! Hökumət aparatının ixtisarından deyil, Ukraynanın işğalından danışmaq lazımdır...

Bayaq dediyim kimi, əslində hər şeyin hesabı aparılmalıdır. Məsələn, ABŞ SSRİ-nin dağılması üçün böyük vəsait xərcləmişdi. Sonradan onu da hesabladılar ki, görək, bundan nə qədər qazandıq!..

Və yaxud da Səddam Küveyti işğal edəndə şeyxlər gedib yıxıldılar ABŞ-ın ayağına ki, bizi xilas et! ABŞ da dedi ki, silah və əsgər məndən, pul sizdən...

Seçki ərəfəsində olan Rusiyada isə bir nəfər də demir ki, axı bizim Suriyada nə işimiz var və ya B.Əsədi qorumaq bizə nə qazanc gətirəcək? Əvəzində Putinin əsgərlərin qarşısından keçməsini göstərirlər - bəli, Putin öndə, Bəşər də arxasınca...

# Dünyanın ilginc köç xəritəsi - faktlar, sarsıdıcı rəqəmlər

## Kimin hansı ölkəyə və niyə, necə köç etməsi barədə bilmədiklərimiz



**Xeyli insan var ki, ölkədəki maddi-mənəvi durumdan şikayətlənir və xaricə getmək istəyir. Hərə bir yol axtarır. Bəzən redaksiyalara gəlirlər, jurnalistlərdən bunun yollarını öyrənməyə çalışırlar. Mühacir hekayələri bu səbəbdən çox oxunan yazılardandır. Az qala 3 adamdan birinin xaricdə yaşayan bir qohumu, tanışı var. Ora gedərsə, həyatının dəyişəcəyini düşünür.**

Amma bu, təkcə azərbaycanlılar, suriyalılar, fələstinlilər... üçün keçərli deyil. "Yeni Müsavat" dünya miqyasındakı rəqəmlərə istinad edərək, gerçək mənzərəni sizlərin nəzərinə çatdırır.

### 710 milyon insan köç etmək arzusundadır, 23 milyon isə hazırlıqlara başlayıb

Birləşmiş Millətlər Təşkilatının hesabatı dünya miqyasında 710 milyon insanın köç etmək istədiyini, 23 milyon insanın isə bununla bağlı hazırlıqlara başladığını ortaya qoyub. İnsanların ən çox köç etmək istədikləri ölkələr Amerika və İngiltərədir.

Araşdırma çərçivəsində rəyi soruşulanlara "İmkanınız olsa qalıcı olaraq başqa bir ölkəyə köç etmək istəyərdizmi?", "Başqa bir ölkəyə qarşıdakı bir il ərzində köç etmə planınız varmı?" və "Qarşıdakı bir il ərzində başqa bir ölkəyə köç etmək üçün hər hansı bir hazırlıq görmüsüzmü?" kimi suallar verilib. Verilən cavablara görə, 710 milyon insan imkanı olsa başqa bir ölkəyə qalıcı olaraq köç etmək istədiyi, 66 milyon insanın bir il ərzində köç etməyi planlaşdırdığı, 23 milyon insanın isə bu məqsədlə hazırlıqlara başladığı qeyd olunub.

Sənəddə potensial miqrantların ən çox getmək istədiyi ölkələrin ABŞ, İngiltərə, Səudiyyə Ərəbistan, Fransa, Kanada, Almaniya və Cənubi Afrika olduğu üzə çıxıb. Köç etməyi düşünənlərin ən çox olduğu ölkələr isə Nigeriya, Hindistan, Demokratik Konqo Cümhuriyyəti, Sudan, Banqladeş və Çindir.

Türkiyə ən çox köç edilmək istənilən ölkələr arasında 15-ci sırada yer alıb. Köç etmək istəyənlərin böyük əksəriyyəti Afrika və Asiyada yaşayan insanlardır. Avropalılar arasında başqa ölkələrə ən çox köçmək istəyən xalqların italyanlar və ispanlar olduğu təsbit edilib. Maraqlıdır ki, İtaliya və İspaniya eyni zamanda digər ölkə vətəndaşlarının da ən çox köç etmək istədiyi ölkələr olub.

Köç hazırlığı edənlərin böyük əksəriyyətinin şəhərlərdə yaşayan, ən azı orta məktəb məzunu, gənc və subay kişilər olduğu da üzə çıxıb.

Beynəlxalq hüquqa görə, ölkələrin müharibə və təbii fəlakət kimi səbəblərlə ölkələrindən ayrılmaq məcburiyyətində qalan miqrantlara yönəlmiş qanuni öhdəlikləri olsa da, daha yaxşı həyat qurmaq xəyalı ilə yola çıxan qaçqınlar üçün bənzər öhdəliklər yoxdur. Bir çox ölkə miqrant qəbul edərkən onların təhsil və xüsusiyyətlərini araşdırır, bu baxımdan daha üstün göstəriciləri olanlar seçilir.

### Hindli qaçqınlar dünyanı bürüyüb... necə?

16.59 milyon hindli miqrantın yarıdan çoxu Basra körfəzi bölgəsində yaşayır. 2017 Beynəlxalq Köç Arayışı sürətli qloballaşma dönəmində hindli qaçqın sayının 2000-ci ildəki 7.98 milyondan iki qat artdığını göstərib. Sənəddə 13 milyon miqrant ilə Meksika ikinci ən çox köç verən ölkə olub.

Rəqəmlər beynəlxalq və ya etnik köklər nəzərə alınaraq həyata keçirilən bir insan saya alınması deyil və bu səbəbdən ailələrin getdiyi ölkələrdə doğulan miqrant uşaqlarını əhatə etmir.

Birləşmiş Ərəb Əmirliklərində 2000-ci ildə 978 min 99 nəfər hindli miqrant sayı 3.31 milyona yüksələrək bu ölkəni ən çox hindli miqranta sahib olan ölkə statusuna daşıyıb. Sənəddə göstərilib ki, hindlilərin ən çox köç etdiyi ikinci ölkə isə Amerikadır. Belə ki, burda hindlilərin sayı 1.04 milyondan 2.3 milyona qədər artıb.

Körfəz ölkələrinin hamısında isə hindlilərin sayı 8.96 milyona çatıb. Bunlardan 2.27 milyonu Səudiyyə Ərəbistan, 1.2 milyonu Ümman və 16 milyonu Küveytdə yaşayır. Hindistana digər ölkələrdən gələn miqrant sayı isə 5.2 milyondur və bu, 2000-ci ildəki rəqəmdən 1.22 milyon daha azdır.

Asiyadakı qaçqınların yüzdə 60-nın digər Asiya ölkələrinə gedib. Bundan başqa, inki.af etməkdə olan ölkələrə miqrantlar tərəfindən təxminən 400 milyard dollar gəlir gəlib və bu gəlirlər təhsil, tikinti və inkişafı təşviq edən digər fəaliyyətləri maliyyələşdirmək üçün istifadə olunub.

Sənədə görə, Avropada 1.3 milyon hindli var. Bu rəqəm 2000-ci ildəki 665.105 nəfərdən iki dəfə artıqdır. Avropadakı hindlilərin çoxu - 836.524-ü İngiltərədədir. Bu rəqəm 2000-ci ildə 452 bin 144 idi.

### Kasıbları anladıq, bəs varlılar niyə köç edir?

2017-ci ildə dünyada təhlükəli meyllər daha da gücləndi. Həm bizim bölgəmizdə, həm də digər regionlarda narahatedici məqamlar kifayət qədər çoxdur. Müharibələr, münaqişələr, qanlı toqquşmalar, böhranlar - əfsuslar olsun ki, bugünkü beynəlxalq mənzərənin əlamətləri bunlardır. Belə ki, əgər 30 il əvvəl dünyada 30 milyon qaçqın və məcburi köçkün, 25 münaqişə zonası var idisə, bu gün dünyada qaçqın, məcburi köçkünlərin sayı 65 milyonu keçib və münaqişəli zonaların sayı isə 70-ə qədərdir. Artıq dünyanın bir çox qaynar nöqtələrində baş verən qarşıdurma və müharibələr geniş, davamlı xarakter alıb.

Amma köç edənlər arasında imkanlı şəxslər də az deyil. Məsələn, Türkiyə keçən il 6 min milyonerini itirib. Daha doğrusu, 6 min türk milyoner Türkiyəni tərk edib. Milyonerlər əsasən uşaqlarının daha yaxşı təhsil alması və şəxsi təhlükəsizlikləri üçün ölkələrini tərk edirlər. Yəni özlərini təhlükəsizlikdə hiss etmək istəyirlər. Bu səbəblərə iqlim, sağlamlıq kimi faktorlar da əlavə olunanda köç qaçılmaz hala çevrilir.

Məsələn, 2015-ci ildə dünya miqyasında 64 min milyoner öz ölkələrini tərk edib. 2016-cı ildə bu rəqəm 82 minə qədər artıb. Ən çox tərcih edilən yerlər arasında isə inkişaf etmiş ölkələr var. Avstraliya 11 min, Amerika 10 min, Kanada 8 min, Yeni Zelandiya isə 4 min milyonerin yeni evi olub.

Bəs ən çox milyoner itirən ölkələr hansılardır? İlk sırada son illər terrorun dərin izlər qoyduğu Fransa var. Bu ölkədən gedən milyonerlərin sayı 12 mindir. İkinci yerdə olan Çindən 9 min, Braziliyadan 8 min, Türkiyə və Hindistandan isə 6 min milyoner gedib.

Braziliya, Çin, Hindistan və Türkiyə kimi inkişaf etməkdə olan ölkələrin yanında Fransanın da bu köç siyahısında olması təəccüblü görünə bilər. Əhalisinin 9 faizinin miqrantlardan ibarət olduğu Fransada bu rəqəm 6 milyondur. Fransa Beynəlxalq Statistikalar İnstitutunun rəqəmlərinə görə, ölkəni 229 min nəfər tərk edib. Sənədə görə, Fransadan Avropa Birliyi, ABŞ və İsrail kimi bölgə-ölkələrə köçənlərin sayı isə 3.4 milyon nəfərdir.

Statistika və faktlar göstərir ki, köç heç də hər zaman kasıbların tərcihi deyil. Varlılar da, elm adamları, iş adamları da zaman-zaman ölkələrini tərk edirlər. Daha yaxşı şərtlərə, daha uyğun vəziyyətə görə yaşayış məkanını dəyişirlər.

❑ Sevinc TELMANQIZI
❑ "Yeni Müsavat"

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi


**ATƏT-in Minsk Qrupunun həmsədrlərindən biri ABŞ-ın Qarabağ məsələsinə ikili standartlardan yanaşmasını təsdiqləyən yeni faktlar heyrət doğurur. Postsovet ölkələrindəki digər münaqişə bölgələrinə münasibətdə fərqli yanaşma ortaya qoyan, hətta Rusiya ilə üz-üzə gələrək Krımın, Cənubi Osetiya və Abxaziyanın azad olunmasını tələb edən, paralel olaraq Kremlə qarşı sanksiya qərarları verən Vaşinqton Qarabağın işğalına sıradan bir "təbii hadisə" kimi olduqca sakit yanaşır.**



# Həmsədr ölkədən işğalçıya inanılmaz dəstək

## ABŞ Azərbaycan torpaqlarını işğalda saxlayan Ermənistana qarşı sanksiyalar tətbiq etmək əvəzinə, Azərbaycana təhdidləri artırır; Azərbaycana silah satmaqdan imtina edən Ağ Ev işğalçını, üstəlik, silahlandırır? Ekspertlərdən yeni faktlar...

Ancaq təəssüf doğuran həm də odur ki, Ağ Evin siyasəti yalnız Azərbaycanın işğal altında olan ərazilərinə müşahidəçi statusunda yanaşma ilə məhdudlaşmır. Məsələ burasındadır ki, ABŞ illərdir ki, bu məsələdə həm də tərəfə çevrilməkdədir. Bu istiqamətdə ilk addım hələ 1992-ci ilin payızında, ABŞ Konqresində ermənipərəst konqresmenlərin və Erməni Milli Assambleyasının təşəbbüsü ilə Azərbaycana qarşı "907-ci düzəliş"in qəbul edilməsi, faktiki, sanksiya qərarının verilməsi olub.

Qəzetimizin ötən saylarında yazılan faktlara hələlik nə okeanın o tayından, nə də ABŞ-ın Azərbaycandakı səfirliyindən hər hansı reaksiya verilməyib. Elə bu yazını hazırlayarkən səfirliklə əlaqə saxlayıb münasibət öyrənmək istədik. Lakin nə təsdiq, nə də təkzib cavabı olmadı. Əslində isə deyiləcək bir söz də yoxdur. ABŞ Konqresində separatçı qurumun bayrağının asılması, Azərbaycan əleyhinə ittihamların səsləndirilməsi üçün separatçıların rəhbərliyinə və onun dəstəkçilərinə tribuna verilməsi halları barədə də dəfələrlə yazılıb. Lakin ABŞ hər zaman Azərbaycanın ərazi bütövlüyünü tanıdığını bəyan etməklə bu kimi anti-Azərbaycan hərəkətləri unutdurmağa çalışıb. Ancaq Azərbaycanın ərazi bütövlüyünü tanıyan ölkənin atdığı addımlar bu mövqenin səmimiliyinə şübhə yaradır.

Ötən sayımızda yazdığımız kimi, söhbət ABŞ tərəfindən maliyyələşən "HALO Trust" adlı şirkətin işğal altındakı ərazilərimizdə mina təmizləmək adı ilə apardığı qeyri-şəffaf fəaliyyətdən, Ermənistana və qanunsuz rejimə, faktiki, dəstək göstərməsindən gedir. Özü də bu şirkət öz fəaliyyəti barədə Azərbaycan hökumətindən icazə almır və fəaliyyətinin nəticəsi barədə hesabat vermir. Özünün yaydığı açıq hesabatlarda isə Dağlıq Qarabağ bölgəsi ayrıca subyekt kimi və bəzi yerlərdə "ölkə" kimi, işğal olunmuş ətraf rayonlar isə "Dağlıq Qarabağ tərəfindən nəzarət olunan, lakin onun sovet sərhədlərindən kənarda yerləşən ərazilər" kimi təqdim olunur.

Digər faktı isə 7 il Amerikanın Rusiyadakı səfirliyində çalışmış (2010-2017) gürcü diplomat Georgi Kbiltetslaşvili açıqlayıb. "Dağlıq Qarabağ erməniləri məhz Bakıdakı səfirliyin yox, İrəvandakı səfirliyin immiqrasiya şöbəsinə viza üçün müraciət edir, bu zaman da separatçı rejimin sənədlərini təqdim edirlər", - deyə keçmiş diplomat vurğulayıb.

Sadalanan faktlar həmsədr ölkənin bitərəflik və ədalətlilik prinsiplərindən uzaq fəaliyyət göstərdiyini bir daha təsdiqləyir. Ancaq ABŞ davamlı şəkildə Azərbaycanda insan haqları və demokratiyanın vəziyyəti ilə bağlı sərt mövqe sərgiləyir, hətta vaxtaşırı sanksiya təhdidləri eşidilir. Ancaq Azərbaycan üçün bir nömrəli məsələ olan ərazilərimizin işğaldan azad edilməsi məsələsində Vaşinqton prinsipial mövqe ortaya qoymur, Ermənistanı işğalçı adlandırmağa belə ehtiyac görmür. Hansı ki, sanksiyaya məhz qonşu ölkənin ərazisini işğalda saxlayan Ermənistan məruz qalmalıdır.

**Politoloq Elçin Mirzəbəyli "Yeni Müsavat"a bildirdi ki, ABŞ-ın demokratiya və insan haqları ilə bağlı iddiaları ilk növbədə bu ölkənin yürütdüyü xarici siyasətin real mənzərəsinə adekvat deyil:** "Vaşinqton dünya üçün demokratiya və insan haqları üzrə "rəmzi mərkəz" missiyasını çoxdan itirib. Bu proses İraq kampaniyası ərəfəsində "kimyəvi silah" haqqında ABŞ-da və Vaşinqtondan idarə olunan transmilli KİV-lərdə tirajlanan yalanlardan başlayıb. "Ərəb baharı"nda isə ABŞ "demokratiyası"nın qanlı üzü milyonlarla insanın faciəsində özünü büruzə verib. Bu səbəbdən, bu gün postsovet məkanını qanlı münaqişələrlə nəzarət altında saxlayan, xalqların faciəsi üzərindən imperiya maraqlarını təmin etməyə çalışan Rusiyanın demokratiya və insan haqlarından danışmağa nə qədər haqqı yoxdursa, ABŞ-ın da bir o qədər, bəlkə daha artıq haqqı yoxdur".

**Politoloq qeyd etdi ki, postsovet məkanındakı münaqişələrin həll olunmamasının məsuliyyətinin bir hissəsi də ABŞ və müttəfiqlərinin üzərinə düşür:** "Demokratiya və insan haqları kompleks anlayışdır, ABŞ-ın kontekstdən çıxararaq şantajla, təhdidlə və xüsusi həyasızlıqla təqdim etdiyi kimi deyil. İnsanların öz evlərində təhlükəsiz yaşamaq və mülkiyyət hüquqlarının qorunması hər şeydən öndə gəlir. Əgər bu yoxdursa, deməli, heç nə yoxdur. Əgər 1 milyon Azərbaycan vətəndaşı etnik təmizləmə, soyqırım və işğal faktları nəticəsində öz evindən, torpağından zorla, silah gücünə çıxarılıbsa, o zaman hansı azadlıqdan danışmağa dəyər?




ABŞ onun maraqlarını çıxış edən, nüfuz müvəkkilliyini yerinə yetirən 1 nəfərin "hüququnu" 1 milyon adamın fundamental hüquq və azadlıqlarından üstün tutursa, o zaman bu yanaşma ən yaxşı halda ikrah doğura bilər. Demokratiya, insan haqları daha öncə də vurğuladığım kimi, kompleks anlayışdır. Bu yanaşma özünü həm daxildə, həm də xaricdə, beynəlxalq münasibətlər sistemində də büruzə verməlidir".

**E.Mirzəbəyli ABŞ-ın Qarabağ məsələsində yanaşmasında Rusiya ilə eyni mövqe sərgiləməsinə də münasibətini açıqladı:** "Sovet İttifaqı süquta uğradıqdan sonra biz ABŞ-la Rusiyanın bir çox məsələlərdə ortaq mövqedən çıxış etdiyinin şahidi olmuşuq. Əgər SSRİ-nin süqutundan sonra ABŞ Rusiyanın postsovet məkanında yürütdüyü siyasətə qarşı adekvat mövqe sərgiləsəydi, yeni müstəqil dövlətlərə ciddi dəstək versəydi, o zaman bu regionda olan münaqişələrin əksəriyyəti öz həllini tapardı. Dağlıq Qarabağla bağlı Rusiya ilə ABŞ-ın mövqeyinin üst-üstə düşməsinin səbəblərini də, zənnimcə, elə burada axtarmaq lazımdır".

**Ekspert Ağ Evin siyasətindəki ermənipərəst çalarların arxasında erməni diasporu, yaxud lobbisinin dayandığını güman etmir:** "Diaspor, lobbi və s. ABŞ-ın xarici siyasətinə, fundamental maraqlarına təsir etmək gücündə deyil. Zərurət yaranarsa, ABŞ-dakı erməni lobbi və diasporunu bir neçə günün içərisində susdura bilərlər. Dağlıq Qarabağdakı mövcud status-kvonun hər iki dövlətə sərf etməsinin səbəbləri isə çox sadədir: Dağlıq Qarabağ münaqişəsinin həlli bu gün ABŞ-ın dövlət maraqları üçün mühüm əhəmiyyət kəsb etmir. Münaqişənin indiki vəziyyətdə qalması isə regiona müdaxilə imkanı verir. Rusiya da həmçinin, status-kvonu qoruyub saxlamaqla regiona, o cümlədən Azərbaycana təsir imkanlarını qoruyur, Ermənistanı isə tamamilə öz nəzarətində saxlayır".

2016-cı ilin aprel döyüşlərindən sonra ABŞ-ın Dağlıq Qarabağ separatçılarına müasir gecəgörmə cihazlarını hədiyyə etdiyi məlum olmuşdu. Hətta o zaman erməni işğalçıları buna görə ABŞ-a təşəkkür etməyi də unutmamışdılar. Eyni vaxtda Rusiya Ermənistanı Azərbaycan ordusunun sarsıdıcı zərbələrindən xilas etmək üçün işğalçı ölkəyə "İsgəndər" raket-komplekslərini bağışladı. Qəribəsi budur ki, ABŞ və Rusiya Ermənistanın müdafiəsi prosesində eyni mövqedən çıxış etdilər. ABŞ Azərbaycana hətta silah-sursat satmaqdan da imtina edib. Bu günlərdə isə məlum olub ki, Ermənistan ABŞ-ın "Desert Tactical Arms" şirkətinin istehsalı olan "Desert Tech HTİ" snayper tüfəngləri alıb. "AzeriDefence"nin məlumatına görə, erməni blogger Arşak Zaxaryan öz facebook səhifəsində Ermənistan ordusunun istifadəsində yer alan həmin snayper tüfəngi ilə fotosunu paylaşaraq "test etdik" yazıb. Qeyd edək ki, bundan əvvəl Ermənistan İngiltərə və digər həmsədr Fransadan da snayper tüfəngləri əldə edib.

**ABŞ-ın bu davranışı yenidən bu ölkənin həmsədrliyindən imtina məsələsini gündəmə gətirir.**

**"Mən daha əvvəllər də söyləmişəm və bu gün də o fikirdəyəm ki, Minsk Qrupunun həmsədr ölkələri olaraq bildiyimiz ABŞ, Fransa və Rusiya bu illər ərzində yalnız ona çalışıblar ki, "Dağlıq Qarabağ Respublikası"nı de-yure tanıtsınlar". Ermənişünas araşdırmaçı alim Qafar Çaxmaqlı bu fikirləri "Yeni Müsavat"a açıqlamasında bildirdi. Qeyd etdi ki, indiyədək təklif olunan bütün həll variantlarında sonda Dağlıq Qarabağdakı bu separatçı qurumun legitimləşdirilməsi məqsədi durub:** "Bu prinsip bu gün də dəyişməyib. O dəyişməyibsə, Amerikanın şirkətlərinin Azərbaycana müraciət etmədən qanunsuz şəkildə Dağlıq Qarabağda "fəaliyyət göstərməsi"nə təəccüblə baxmamalıyıq. Yalnız Amerikanın deyil, elə digər həmsədr ölkələrin də burada şirkətləri var. 2001-ci ildə Dağlıq Qarabağa səfərimiz zamanı bizi Xankəndində bir fransalı erməninin hotelində yerləşdirmişdilər. Həmin erməni-fransız Anjey Kasprşikin çox yaxın dostu idi, ən azından biz bunu belə anlamışdıq. Dağlıq Qarabağdakı separatçı qurumun "hökumət" üzvləri Amerikaya vizanı kimdən alırlar? Azərbaycanın bundan xəbəri olurmu? Vizalar Ermənistandan verilir. Amerika bu durumu qəbul edir. Amerikaya viza verilməsi və bu ölkədə Dağlıq Qarabağdan gələnlərin dəfələrlə ağırlanması da göstərməkdədir ki, ABŞ faktiki olaraq burada keçirilən "seçkiləri" tanımadığını bəyan etsə də separatçı qurumu dəstəkləməkdədir. Bu faktın özü bu ölkənin vasitəçiliyinin səmimi olmadığını ortaya qoyur. Bu və digər amerikasayağı yanaşma Birləşmiş Ştatların Qarabağ məsələsində qərəzsiz vasitəçiliyi ilə bir araya sığmayan əməllərdir. Abxaziya, Cənubi Osetiya və Dnestryanı bölgəyə yanaşma da eynidir. Azərbaycanın razılığı olmadan onun ərazilərində mina fəaliyyəti aparan "HALO Trust"ın fəaliyyətinin dayandırılması üçün Azərbaycan etiraz etməlidir. Ən azından digər qanunsuz fəaliyyətləri önləmək üçün".

**Rəsmi Bakının bunun qarşılığında ABŞ-ın həmsədrliyindən imtina etməsi barədə fikirlərə gəldikdə, Q.Çaxmaqlı qeyd etdi ki, Azərbaycan hər üç həmsədrin fəaliyyətindən narazı olduğunu dəfələrlə ifadə edib:** "Cəmiyyətdə də bu vasitəçiliyin Azərbaycanın xeyrinə olmadığı fikri hakimdir. Bir ölkə ilə bağlı bu edilərsə, düşünürəm ki, Azərbaycan hədəf götürülə bilər. Ermənilərin istəyi də budur. İmtina üçün əsaslandırmalar olmalıdır. Məncə, indi ATƏT-in faktaraşdırıcı missiyasının fəaliyyətini də qabartmaq lazımdır. Bu missiyanın faktiki olaraq vəzifəsi Dağlıq Qarabağa əhali yerləşdirilməsinin qarşısını almaq olmalı idi. Ancaq əksinə, onun bu işə yardım etdiyi ortadadır. Kasprşikin ermənipərəst fəaliyyətinə də etiraz edilməlidir. Minalardan təmizlənmə proqramında dediyimiz şirkətlərlə işləyən odur. Kasprşik üçün Şuşada ideal şərait yaradılıb. Onun ofisi üçün xüsusi erməni qızları seçilir".

Ekspertimizin dediklərindən də göründüyü kimi, müşahidə missiyasının heyətini genişləndirməyi yeganə çıxış yolu sayan həmsədrlərin fəaliyyəti Qarabağın işğalının uzadılmasına yönəlib. Lakin işğalçıya dolayı və birbaşa dəstəyin verilməsi ilə müqayisədə bu, o qədər də təəccüblü deyil.


Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Elşad PAŞASOY

YENİ MÜSAVAT
N 16 (6905) 23 yanvar 2018

**Zaqafqaziyada yeganə dəmir filizi dağ-zənginləndirici müəssisə "Daşkəsən Filizsaflaşdırma"nın sabiq rəhbəri Əlləddin Sadıqova yeni vəzifə veriblər. "Daşkəsən Filizsaflaşdırma"dakı 14 illik fəaliyyəti mətbuatda araşdırma mövzusuna çevirilən Ə.Sadıqovun "Azbentonit"də rəhbər vəzifəyə təyin olunması haqda xəbərlər var.**

# "Daşkəsən Filizsaflaşdırma"nın Əlləddini Qazaxda "Azbentonit"ə rəhbər təyin olunub

## Dövlətə milyonlarla ziyan vuran və əməllərinin araşdırılmasına başlanılan müəssisə rəhbərini kimlər və niyə himayə edir?





Belə məlumatlar da var ki, Əlləddin Sadıqovun fəaliyyəti haqda mətbuatda yazılar dərc edildikdən sonra barəsində qeyri-rəsmi araşdırmalara başlanıb. Onun həmin vəzifəyə təyinatının arxasında dayanan qüvvələrin maraqları çərçivəsində baş tutduğu da bildilir.

"Yeni Müsavat"ın ötən saylarından birində "Əlləddinin "sehirli" əməlləri - "Daşkəsən Filizsaflaşdırma"nı dağıdan əllər - reportaj" sərlövhəli yazıda bu haqda məlumat vermişdik. "Daşkəsən Filizsaflaşdırma"nın fəhlələri bildirmişdilər ki, Əlləddin Sadıqov müəssisəni milyonlarla manat borca salıb. Çıxardıqları konsentratın tonunu 6-7 manata rəsmiləşdirib Potiyə daşıyıblar. Oradan isə Çinə tonu 78 avrodan satıblar. Müəssisənin hesabına təkcə bu əməliyyatdan 68 milyon avro pul gəlməli imiş. Amma gəlməyib, pulu "yeyiblər".

Bundan başqaölkə prezidentinin 13 iyul 2016-cı il tarixli sərəncamı ilə "Daşkəsən Filizsaflaşdırma" ASC özəlləşdirilmək məqsədilə Əmlak Məsələləri Dövlət Komitəsinin balansına verilib və müəssisənin özəlləşdirilməyə çıxarılması üçün 3 ay vaxt qoyulub. Həmin gündən 1 il 6 ay vaxt keçib, müəssisə özəlləşdirilməyib. Mətbuatda müəssisənin özəlləşdirilməsinin bəzi məmurların maraqlarına uyğun olmadığı haqda çeşidli yazılar dərc olunub. Ölkənin ağır sənayesini ayağa qaldıracaq gücdə olan "Daşkəsən Filizsaflaşdırma"nın məmur maraqları səddini nə vaxt aşacağı bəlli deyil. "Daşkəsən Filizsaflaşdırma" rayonda yeganə müəssisədir ki, vaxtilə orada 2 mindən artıq işçi çalışıb. Hazırda isə müəssisənin 340 işçisi var. 2015-ci ildə müəssisə fəaliyyətini tam olaraq dayandırıb. Fəhlələr borc içində çabaladıqları bir vaxtda Əlləddin Sadıqovun sorağı Bakıdan, Gəncədən, Gürcüstandakı müxtəlif obyektlərindən gəlir. Fəhlələr sabiq direktorun həmin əmlakları hansı hesabdan aldığının araşdırılmalı olduğunu da söyləmişdilər. Yada salaq ki, "Daşkəsən Filizsaflaşdırma" ASC 2016-cı ilin martın sonundan bu günə qədər 4 dəfə satışa çıxarılıb. Rəsmi məlumatlarda qeyd olunur ki, müsabiqəyə investorlardan müraciət olmayıb. Müəssisənin fəhlələri isə bu fikirlə razı deyillər. Onların sözlərinə görə, özəlləşməyə qarşı çıxanlar var. Məqsəd isə "Daşkəsən Filizsaflaşdırma"nın əmlakını dağıtmaqla dəyərsizləşdirməkdir. Bundan sonra "Daşkəsən Filizsaflaşdırma"nın hazırkı duruma salınmasında maraqlı olan qüvvənin təmsilçiləri dövriyyəyə girəcək və bu gəlirli sahəni qat-qat ucuz qiymətə ələ keçirəcəklər. Mətbuatda "Daşkəsən Filizsaflaşdırma"nın mal-materialını Gəncəyə daşıyıb metalloma təhvil verilməsi, bahalı, paslanmayan dəmirdən olan materialların Gəncədə tikilən bazarın damına vurulması haqda da məlumatlar var.

**❑ E.HÜSEYNOV**
**"Yeni Müsavat"**

# Bayılda onlarla ailənin həyatı təhlükədədir

## Sürüşmə davam edərsə, xeyli insan torpaq altında qala bilər









**Bayılda sürüşmənin baş verdiyi ərazidə bərkitmə işləri aparılsa da təhlükə hələ qalmaqdadır. Sürüşmə davam edərsə onlarla ailə torpaq altında qala bilər... Bir neçə gündür ki, Bakının Səbayel rayonu, Bayıl qəsəbəsi, Bakı Televiziya Qülləsinin ətrafında torpaq sürüşməsi baş verir. Sürüşmə nəticəsində ərazidə dərin yarğanlar əmələ gəlib ki, onların da eni 1 metrə yaxındır. Bildirilir ki, ərazinin bəzi yerlərində yarğanların dərinliyi 10 metrdən çoxdur.**

"Yeni Müsavat"ın əməkdaşı sürüşmənin baş verdiyi əraziyə yollanıb, baş verənlərlə yaxından tanış olub.

Öncə onu qeyd edək ki, yaxınlığında onlarla evin olduğu hadisə baş verən əraziyə qədər gedib çıxmaq çox çətindir. Teleqüllə istiqamətindən əraziyə gəlmək üçün ağacların arası ilə dağ döşündəki cığırlardan keçməlisən. Bu cığırlarda aşağı yuvarlanma riski böyükdür. Bayraq meydanı istiqamətindən isə gələn avtomobil yolu yararsız vəziyyətdədir. Bütün bunlara baxmayaraq, orada yaşayan insanlar hər gün bu təhlükəli yollardan keçərək, evlərinə gedirlər. Əraziyə yaxın marşrut xətti keçmir. Taksilər isə 5 manata aparırlar. Taksi sürücüləri bildirdilər ki, yollar kələ-kötür olduğu üçün avtomobillərinə zərər dəyir. Ona görə də baha qiymətə aparmağa məcburdurlar.

Nəhayət, biz də keşməkeşli yollardan keçib, sürüşmə zonasına çatdıq. Öncə dağa qalxıb, görülən işlərlə tanış olduq. Müşahidə etdik ki, hazırda ərazidə Fövqəladə Hallar Nazirliyinin və Respublika Seysmoloji Xidmət Mərkəzinin əməkdaşları çalışırlar. Yuxarıda da qeyd etdiyimiz kimi, sürüşmə nəticəsində teleqüllədən yaşayış evləri istiqamətində təxminən 300 metr aşağıda böyük yarğanlar əmələ gəlib. Hazırda fəhlələr bu yarğanların doldurulması ilə məşğuldurlar. Söylədilər ki, bunun üçün şimal rayonlarından gil də gətirilib. Ərazidə işləyənlər bildirdilər ki, yarğanları doldursalar da dərinliyi çox olduğu üçün işləri tez zamanda yekunlaşdırmaq mümkün deyil.

**Respublika Seysmoloji Xidmət Mərkəzinin əməkdaşları isə söylədilər ki, onlar hazırda ərazini yoxlayıb, müvafiq qeydlərini götürürlər:**

"Bu qeydləri götürdükdən sonra üzərində işləyib, xəritə hazırlayacağıq. Daha sonra ərazidə təhlükənin miqyası ilə bağlı konkret məlumat verə biləcəyik".

Mütəxəssislər konkret fikir söyləməsələr də ərazidəki təhlükənin miqyasını yarğanlara baxdıqda da anlamaq olur. Belə ki, dağ yamacına çəkilən istinad divarında da artıq böyük çatlar əmələ gəlib. Bundan başqa, yamacda yaşayış evləri tikilib ki, həmin evlərin də divarlar çatlayıb, pilləkənləri uçub. Yaşayış evlərinin arasından yüksək gərginlikli elektrik xətti də keçir. Bu da orada yaşayan insanlar üçün əlavə təhlükədən xəbər verir. Sakinlərlə söhbətimiz zamanı onlar bildirdilər ki, bu ərazidə 25 ildən çoxdur ki, məskunlaşıblar. Lakin ötən illərdə bu miqyasda sürüşmə baş verməsinin şahidi olmayıblar. Hazırda isə hər gün qorxu içərisindədirlər.

**Sakin Qaragöz Xudiyeva bildirdi ki, artıq onların evlərində çat yaranıb və getdikcə dərinləşir:** "Cəbrayıl rayonundan məcburi köçkün ailəsiyik. Bu ərazidə torpaqlar işğal olunandan sonra məcburiyyətdən məskunlaşmışıq. Həmin ərəfədən də ev tikib, burada çətin şəraitdə yaşayırıq. İndiyə qədər bu ərazidə bu cür sürüşmə hadisəsi baş verməyib. Sürüşmə Şəhidlər Xiyabanı tərəfdə ucaldılan abidənin ətrafında olurdu. İndi isə burada təhlükə daha yüksəkdir. Hər birimiz qorxu içərisindəyik. Çünki bilirik ki, oradan üzüaşağı torpaq gəlsə, qarşısını ala bilməyəcəyik".

**Onu da qeyd edək ki, evlərin bəziləri yamacla bitişik vəziyyətdədir. Əksər evlərin hasarı mövcud deyil. Digərlərinin isə hasarı nazik dəmirdən və ya taxtadandır. Sakinlər iddia edirlər ki, vəziyyətin bu həddə gəlməsinin səbəbi Yaşıllaşdırma Təsərrüfatı Birliyinin əməkdaşlarının hər dəfə ağacları sulayan zaman suyu açıq qoyub getmələridir:**

"Elə vaxt olub ki, bir də görmüşük dağdan şəlalə kimi su axır. Ağacları sulamaq üçün suyu açırlar, sonra da çıxıb gedirlər. Nəticədə torpaq ağırlaşır, yağış da yağan kimi sürüşmə başlayır. Sonra da camaatın üstünə yıxırlar ki, burada ev tikmisiniz, ona görə dağ sürüşür. Əslində isə məsələ başqadır".

**Sakinlərlə söhbət etdiyimiz zaman onlar bildirdilər ki, hazırda burada torpaq alqı-satqısı həyata keçirilmir. Lakin əvvəllər hər kəs ev tikən zaman icra nümayəndələrinin haqqını verib:**

"Burada illər öncə torpağın sotunu 500-1000 manata almışıq. İndi də burada kimsə ev tikirsə o da özbaşına tikmir. İcazə verilməsə kimsə daşı-daş üstünə qoya bilməz. Əgər təhlükə yaradacaqdısa, dağın başında camaata niyə ev tikməyə icazə verirlər?"

Doğrudan da sürüşmə zonasında istinad divarlarının 2-3 metrliyində belə ev tikilib. Hazırda ən böyük təhlükə qarşısında da elə bu evlərdir.

Ərazidə məcburi köçkünlərlə yanaşı, müxtəlif rayonlarımızdan olan insanlar da orada ev tikib yaşayırlar. Hazırda ailələr dövlətdən kömək gözləyirlər. Onlar təhlükənin miqyasını dərk edirlər, lakin gedəcək başqa yerləri də yoxdur. Onu da qeyd edək ki, ərazidə olan tikililərin əksəriyyəti kiçik, bir-iki otaqlı daxmalardır. Onların bəziləri kərpicdən, bəziləri isə yöndəmsiz formada daşdan tikilib. Mütəxəssislər bildirirlər ki, 24-40 dərəcə arasında meyllik olan şaquli yamacda bu evlərin tikilməsi hər kəsi təhlükə qarşısında qoyub. Nəticədə isə təbii olaraq kütlənin dayanıqlığı itib, sürüşməyə meylli olan ərazilərdə proses bir qədər də sürətlənib.

Orada olduğumuz zaman öyrəndik ki, ərazidə Fövqəladə Hallar Nazirliyindən yüksək vəzifəli məmurlar da gəlib, baxış keçirəcəklər. Bildirildi ki, məsələ müvafiq qurumların diqqətindədir.

Qeyd edək ki, 2000-ci ildə Bayıl qəsəbəsində 37 metr çökmə baş verib və Neftçilər prospektində təxminən 200 metr məsafədə asfalt qalxıb. Dərinlikdəki horra şəklində olan məhlul ora yığılıb, amma həmin məhlul dənizə axa bilmədiyi üçün asfalt hündür qalıb.

**❑ Əli RAİS,**
**"Yeni Müsavat",**
**Fotolar müəllifindir.**

# İran üzərindən qara buludlar çəkildimi?

**Bu ayın əvvəllərindən başlayaraq İranda həyata keçirilən etiraz aksiyaları hələ də gündəmdən düşmür. Doğrudur, artıq etirazlar səngiyib və İran rejimi görünən təhlükələri qismən də olsa aradan qaldıra bilib. Amma bununla belə, rəsmi Tehranı qarşıda təhlükələrin gözlədiyi barədə fikirlər var.**





## Elxan Şahinoğlu: "İran dəyişikliyə hamilədir, çünki..."
## Əhəd Məmmədli: "Əslində Qərbə indiki İran rejimi daha sərfəlidir"

Xüsusilə son aksiyalarda Amerika başda olmaqla, Qərb ölkələrinin əlinin olması barədə iddialar və bunu sübut edən bəzi faktların üzə çıxması cənub qonşumuzun heç də təhlükədən tam qurtulmadığını göstərir. Hazırda İranla Qərb arasında münasibətlər olduqca gərgindir və bunu aradan qaldırmaq üçün tərəflərin heç birinin irəliyə doğru addım atmadığı göz önündədir. Əksinə, Qərbdən gələn təzyiqlər hər iki tərəfi bir-birinə daha çox qarşı qoyur. Bütün bunları nəzərə alan müstəqil ekspertlər İran üzərindən təhlükələrin hələ də sovuşmadığı qənaətindədirlər.

**Qərb Universitetinin Tətbiqi Politologiya Mərkəzinin rəhbəri Elxan Şahinoğlu bildirdi ki, İran rejimi üzərindən təhlükə sovuşmayıb:** "Təhlükənin sovuşması üçün İran prezidenti köklü siyasi və iqtisadi islahatlara başlamalıdır. Bunun əvəzinə isə ölüm hökmünə məhkum olunmuş İran vətəndaşlarının küçələrdə insanların və azyaşlı uşaqların gözü qarşısında qaldırıcı kranlardan asılması səhnələri davam edir. Bunun kimə nə xeyri var? İran prezidenti Həsən Ruhani islahatların zəruriliyini anlayır. Ancaq o, ali dini lider və İslam Keşikçilər Korpusunun generalları ilə münasibətləri də korlamaq istəmir. Bu qüvvələr üçün isə əsas İranın bölgədəki rolunu gücləndirmək, Suriya, Yəmən və Livandakı tərəfdaşlarına dəstəyi davam etdirməkdir. Bu dəstək davam etdikcə isə maliyyə resurslarını iqtisadi və sosial problemlərin həllinə yönəltmək mümkün olmayacaq. Deməli, insanların narazılığı azalmayacaq. Məsələnin başqa tərəfi də var. İran teokratik dövlətdir. İran gəncliyinin əksəriyyəti isə qloballaşan dünyanın tərkib hissəsi olmaqda maraqlıdır, istədiyi kitabı oxuyub, istədiyi filmi izləmək və istədiyi musiqini dinləmək istəyir. Bütün bunlar isə İranda qadağandır. İranda yalnız icazə verilən kitabları oxumaq və icazə verilən filmləri izləmək və icazə verilən musiqini dinləmək olar. Bəlkə də keçmiş illərdə bu qadağa işləyirdi, ancaq internet əsrində bu qadağalara qarşı müqavimət də güclənir. İran dəyişikliyə hamilədir. Yaxşı olardı ki, bu dəyişikliklər təlatüm olmadan baş verərdi. Bu, Azərbaycanın da maraqlarına uyğundur. Ancaq bu tək bizim istəyimizdən asılı deyil. İranda iki istiqamətdə narazılıq var. İnsanlar həm sosial problemlərinin həllini, həm də süni qadağaların ortadan qaldırılmasını istəyirlər. Bu problemlər həll olunmadıqca hər an vəziyyətin dəyişəcəyini gözləmək mümkündür".

**Politoloq Əhəd Məmmədli fərqli düşünür. O hesab edir ki, əslində Qərbə indiki İran rejimi daha sərfəlidir:** "Hər bir rejim həmişə devrilmə təhlükəsindədir. Bu, demokratik rejimlərə də, avtoritar rejimlərə də aiddir. İranda mövcud rejim həmişə devrilmə təhlükəsini yaşayacaq. İldən-ilə İran daxilində siyasi-iqtisadi-sosial vəziyyət pisləşdikcə, gərginləşdikcə üsyanlar qaçılmazdır. Təbii, İran tipli rejimlər daima ayıq-sayıq olurlar. Lakin çatlar çoxaldıqca, dərinləşdikcə ayıq-sayıqlıq da kömək edə bilməyəcək. Düşünmürəm ki, ən azı İranda son iğtişaşları Amerika edib. İrandakı son aksiyalar hakimiyyətdaxili qarşıdurmaya daha çox bənzəyir. Təbii ki, ABŞ İrandakı ildən-ilə artan daxili gərginlik, sosial narazılıqdan istifadə etməyə çalışacaq, müdaxilə edəcək, amma ən azı indiki dövrdə bunu edəcəklərini düşünmürəm. İndiki İran ABŞ başda olmaqla, Qərbə lazımdır. Çünki ortada iddialı, güclü Türkiyə var və Amerika, Avropa, İsrailə bu cür Türkiyəyə qarşı belə bir İran lazımdır. İnqilab təhlükəsini tamam atmaq üçün İrandakı mövcud rejim islahatlara getməlidir. Artıq bu cür islahatlara gedilir. İranda qadınlar çarşabı atmaqdadır. Belə davam etsə, bir neçə ildən sonra ümumiyyətlə, çarşabı tam atacaqlar. Qeyri-rəsmi alkoqol dükanları, restoranları, məclisləri İranda artmaqdadır. İran rejimi buna da göz yummağa məcburdur. Musiqi, digər əyləncə növləri də İranda çoxalır. İran bir baxımdan Çinin yolu ilə gedir. Rejimi qoruyub saxlamaq üçün başqa yolları da yoxdur. İran sosial, iqtisadi baxımdan dünyəviləşir, kapitalistləşir, marginallığını ancaq siyasi baxımdan qoruyub saxlamağa məcburdur. Ən yaxşı halda İran rejimi ancaq bu şərtlər altında iqtidarını qoruyub saxlayacaq. Onlar üçün ən pis hal isə odur ki, siyasi-ideoloji müstəvidə hakimiyyətlərini qoruyub saxlaya bilməyəcəklər. Fikrimcə, hələlik indiki İran Qərbə lazımdır. İraq və Əfqanistan müharibələrində ABŞ-la İran çox gözəl anlaşdılar. Nəticədə də İraq tam, Əfqanıstan isə natamam şəkildə İranın nəzarətinə verildi. Düşünürəm ki, İranda indiki rejim çökəcək, lakin bu, o vaxt baş verəcək ki, İran regionda artıq Amerika və Avropaya lazım olmayacaq".

❑ **Cavanşir ABBASLI**

# "Ərəb baharı" niyə gözlənilən dəyişiklikləri gətirmədi-təhlil

## "Dünyəvilik, yoxsa şəriət" məfhumları arasında çapalayıb qalan xalqlar hələ də öz talelərinə sahib çıxa bilmirlər

**Yanvarın əvvəlində "Ərəb baharı"nın başlanğıc ölkəsi Tunisdə yenidən aksiyalar başladı. 7 ildən sonra insanlar küçələrdə idi. Paytaxt da daxil olmaqla, bir sıra şəhərlərdə küçələrə çıxan əhali bahalaşmaya etiraz edirdi. Ümumilikdə Tunisdən başlayan etirazlar Bəhreyn, Suriya, Əlcəzair, İordaniya, Mavritaniya, Livan, Misir, Yəmən və demək olar ki, zəif və ya güclü şəkildə bütün ərəb ölkələrinə yayıldı.**

2011-ci il yanvarın sonunda Misirdə başlanan etirazlar fevralın 11-də prezident Hüsnü Mübarəkin istefası ilə nəticələndi. Eyni zamanda Liviyada başlayan etirazlar tezliklə silahlı qarşıdurmaya çevrildi, martda isə NATO Qəzzafinin qüvvələrinə qarşı havadan və dənizdən bombardmanlara başladı. Eyni zamanda Suriyada baş qaldıran etirazlar çox tezliklə ölkədə silahlı vətəndaş qarşıdurmasına çevrildi. Yəməndə isə kütləvi etirazlar terror aksiyalarının kölgəsində davam etdi. İordaniyada kral Abdullah hökuməti istefaya göndərərək islahatlara başlamaqla narazılığı azaltmağa nail oldu. Bəhreyndə isə şiddətlənən etirazların fonunda hökumət Körfəz Ölkələri Birliyinə müraciət edərək yardım istədi. Nəticədə Səudiyyə Ərəbistanı Bəhreynə ordu yeridərək etirazların qarşısını aldı.

Suriyada başlayan etirazlar isə tezliklə vətəndaş müharibəsinə çevrildi və dünyanın ən qəddar terror təşkilatlarının bu ölkədə peyda olmasına səbəb oldu.

Bu gün baxdıqda "ərəb baharı"nın baş verdiyi ölkələrin heç birində sabitlik əldə etmək mümkün olmayıb. Misir, Liviya, Yəmən, Suriya, Bəhreynin özü hələ də tam şəkildə sabitliyə nail olmayıb. Misir kimi bölgənin lider ölkəsi inqilabdan iki il sonra hərbi çevriliş və qanlı qırğınlara səhnə olub. Hələ də ölkədə terrorun qarşısını almaq mümkün olmur. Yəməndə isə 2014-cü ildə ikinci çevriliş baş verib və hələ də müharibə davam edir. Liviya isə faktiki olaraq İŞİD də daxil olmaqla, 3 fərqli silahlı güc arasında bölünüb. Üstəlik, indi ölkədə hərbi biri silahlı qüvvəyə malik qəbilələr at oynadır.

Bu vəziyyətdə istər-istəməz sual yaranır: "Ərəb baharı" nədən uğursuz oldu?

Halbuki "ərəb baharı" bir ümidlə başlamışdı. Bunun əsas səbəbi isə etirazların önündə əsasən təhsilli, amma işsizlik və sosial ədalətsizlikdən əziyyət çəkən gənclərin olması idi. Bu səbəbdən də hadisələrin ilk günlərində ərəb ölkələrində proses sürətlə cərəyan edirdi və müəyyən mənada gözlənilməz idi. Prosesin mühüm məqamı Qərb ölkələrinin, o cümlədən bölgənin əsas oyunçu dövlətlərinin baş verənlərə hazırlıqsız yaxalanması idi. Bu mənada böyük ölkələr prosesləri öyrənib qərar verənə qədər ərəb dövlətlərində bir-birinin ardınca çürümüş rejimlər çökürdü.




Ancaq sonrakı mərhələdə proseslər bir növ nəzarətə alındı və Qərb ölkələri baş verənlərə istiqamət verməyə başladılar. Məsələn, Liviyada 42 illik diktator Müəmmar Qəzzafinin devrilməsi üçün NATO üsyançıları silahlandırdı, Bəhreyndə isə "regional faktorlar" nəzərə alınaraq Səudiyyə Ərəbistanının üsyanı boğmaq üçün qoşun göndərməsinə göz yumuldu.

Ümumilikdə "ərəb baharı" bütövlükdə böyük bir coğrafiyada ciddi siyasi dəyişikliklərə səbəb olmasa da, oturuşmuş rejimlərin laxlamasına gətirdi, ən əsası bu cür rejimlərin möhkəm olmadığına inam yaratdı. İstənilən halda inqilabın baş verdiyi ərəb ölkələrində yenidən "keçmişə qayıdıb" despotik rejimlərin bərpa olunması real görünmür. Ciddi kəmiyyət dəyişikliyi olmasa da, "ərəb baharı" bu coğrafiyada dəyişiklik üçün müəyyən ümidlər yaratdı. Amma eyni zamanda bir sıra təhlükəli risklərin də real olduğunu göstərdi.

Ancaq məsələ ondadır ki, inqilablar bir qayda olaraq respublika quruluşlu ərəb dövlətlərində baş verdi. Baxmayaraq ki, onların da hamısı avtoritar, sülalə rejimləri idi. Ancaq məsələn, monarxiya rejimli ərəb ölkələrinin heç birində dərin inqilab baş vermədi. İordaniya, Mərakeş, Səudiyyə Ərəbistanı, Bəhreyn kimi ölkələrdə etirazlar olsa da, böyümədi. Bəhreyndə isə qonşu ölkələr üsyanı güc tətbiqi ilə yatırdı. Bu isə həm də ərəb cəmiyyətlərində siyasi təşkilatlanma mövzusunda ciddi axsaqlığın olduğunu göstərir.

İkinci mühüm məsələ, siyasi sistemlə bağlı təsəvvür qarışıqdır. Məsələn, gözlənildiyinin əksinə, demokratiya çağırışları çox zəif oldu, ya da heç olmadı. Bunun əvəzində isə tezliklə radikal islamçıların səsi daha bərk gəlməyə başladı. Bunun nəticələrini bütün ərəb ölkələrində az və ya çox şəkildə görmək olar.

Nəhayət, iqtisadi və sosial sahədə dərin problemlər, amansız təbəqələşmə və sair kimi problemlər. Nəticə etibarilə dünyəvilik, yoxsa din, şəriət, yoxsa demokratiya məfhumları arasında çapalayıb qalan Yaxın Şərq və Şimali Afrika xalqları öz talelərinə sahib çıxa bilmirlər. Burada həm də ərəb dünyasının bir-biri ilə ciddi bağlarının olması, bir ölkədə xaos və müharibənin o biri ölkəyə təsir etməsi amilini unutmaq olmaz. Beləliklə, bölgədə hələ də neft və qaz ehtiyatları sayəsində inanılmaz zənginliyə sahib olan, avtoritar monarxiyaların at oynatdığı regionda, siyasi təşkilatlanmanın zəif olduğu, şəriətçi düşüncənin güclü olduğu bir regionda mütərəqqi siyasi dəyişikliklərdən danışmaq bir qədər tezdir.

❑ **Kənan RÖVŞƏNOĞLU, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 16 (6905) 23 yanvar 2018

# Leş əti insan orqanizmində hansı fəsadlara yol açır?

## Bakıda kişi arvadını yastıqla boğub öldürdü

**Bakıda arvadını boğaraq öldürən şəxs saxlanılıb. Bu barədə "Report"a DİN-in mətbuat xidmətindən məlumat verilib. Məlumata görə, yanvarın 20-də Qaradağ rayonunun Lökbatan qəsəbəsində Cəlilabad rayon sakini Elvin Qəhrəmanlı yaşadığı evdə münaqişə zəminində arvadı Güneli yastıqla boğaraq qətlə yetirib.**

Qaradağ Rayon Polis İdarəsinin 10-cu Polis Bölməsinin əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində E.Qəhrəmanlı saxlanılaraq istintaqa təhvil verilib.

Araşdırmalar davam etdirilir.

## 14 yaşı tamam olmamış şəxslərə dərman vasitələrinin satışı qadağan edilir

**Azərbaycanda 14 yaşı tamam olmamış şəxslərə dərman vasitələrinin satışı qadağan edilir. "Report"un xəbərinə görə, bununla bağlı "Dərman vasitələri haqqında" Qanuna dəyişiklik edilir. Qanunun hazırda qüvvədə olan 13-cü (Əhaliyə dərman vasitələrinin buraxılması) maddəsinə əsasən, əhaliyə dərman vasitələri yalnız aptek təşkilatları tərəfindən buraxılır.**

Aptek təşkilatlarında "Həyati vacib və təcili hallarda istifadə edilən dərman vasitələrinin siyahısı"na daxil edilmiş dərman vasitələrinin olması məcburidir. Optik ləvazimatlar, ətriyyat-kosmetika, uşaq yeməkləri, müalicəvi mineral sular, bioloji fəallığa malik qida əlavələri və şəxsi sanitariya-gigiyena malları istisna olmaqla, aptek təşkilatlarında digər malların satılması qadağandır. Həkim resepti əsasında buraxılan dərman vasitələrinin reseptsiz buraxılması qadağandır. Aptek təşkilatlarına dair tələblər və aptek təşkilatlarından dərman vasitələrinin buraxılması qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

Maddəyə yeni - 13.3-1 bənd əlavə edilir. Bəndə əsasən, 14 yaşı tamam olmamış şəxslərə dərman vasitələrinin buraxılması qadağan edilir.

Dəyişiklik layihəsi Milli Məclisin plenar iclasında müzakirəyə çıxarılacaq.

## Ukraynada Azərbaycan vətəndaşı adam oğurluğuna görə həbs edildi

**Ukraynada Azərbaycan vətəndaşı adam oğurluğu və qarət üstündə saxlanılaraq həbs edilib. "Report" xəbər verir ki, paytaxt Kiyev şəhərinin Qolosevskiy rayonu məhkəməsinin qərarı ilə saxlanılan Azərbaycanın vətəndaşı, 1975-ci ildə anadan olan Neymətzadə Xalid Fəzail oğlu barəsində 3 aylıq həbs-qətimkan tədbiri seçilib.**

Hazırda ona qarşı irəli sürülən ittiham üzrə cinayət işinin istintaqı gedir, zərərçəkənlər dindirilir.

## Metroda cibgir yaxalandı

**Bakı Şəhər Baş Polis İdarəsinin Metropolitendə Polis Şöbəsinə müraciət edən Bakı şəhər sakini F.Babayeva yanvarın 17-də metronun "Gənclik" stansiyasında cibindən mobil telefonunun oğurlandığını bildirib.**

DİN-in mətbuat xidmətindən musavat.com-a verilən məlumata görə, polis əməkdaşları tərəfindən əməliyyat-axtarış tədbirlərinə başlanılıb və qısa zamanda cinayət əməlini törədən şəxs müəyyən edilərək saxlanılıb.

Araşdırmalarla onun paytaxt sakini, əvvəllər məhkum olunmuş Emil Kudaybirqanov olması məlum olub.

Ətrafında aparılan tədbirlərlə onun yanvarın 19-da metronun "28 May" stansiyasında daha bir qadının cibindən mobil telefonunu oğurlaması da müəyyən edilib.

Faktla bağlı cinayət işi başlanılıb.

## Nikaha girənlər üçün müayinəsi məcburi olan xəstəliklərin siyahısının artırılması təklif edilir

**Azərbaycanda nikaha daxil olmaq istəyənlərlə bağlı müayinəsi zəruri olan xəstəliklərin sayının artırılması, hepatit B və hepatit C-nin də müayinəsi məcburi olan xəstəliklərin siyahısına daxil edilməsi təklif olunub.**

APA-nın məlumatına görə, Milli Məclisin Səhiyyə komitəsinin dünən keçirilən iclasında deputat Məlahət İbrahimqızı hepatit və xərçəng xəstəliklərinin artmasından narahatlığını bildirib, bununla bağlı uzun müddətdir müzakirəsi ləngiyən "Reproduktiv sağlamlıq haqqında" qanun layihəsinin bu sessiyada müzakirəyə çıxarılmasının vacibliyini qeyd edib.

Deputat Musa Quliyev isə bildirib ki, Ailə Məcəlləsinə dəyişikliklər etmək lazımdır. O qeyd edib ki, nikahdan əvvəl bir neçə xəstəlik üzrə məcburi müayinələr həyata keçirilir: "Bunun olduqca gözəl nəticələri var. Təklif edirəm ki, hepatit B və hepatit C-ni də müayinə paketinə daxil etmək üçün Ailə Məcəlləsinə dəyişiklik edək".

## "İnsanın gözünün önündə kəsilən heyvan belə xəstə ola bilər"



**Ölkədə leş əti mafiyasının "fəaliyyəti" hər kəsə məlumdur. İllərdir bu istiqamətdə mübarizə aparılsa da mafiyanın kökünü kəsmək mümkün olmur. Vaxtaşırı mətbuatda tonlarla mənşəyi məlum olmayan yararsız ətlərin satış üçün hansısa istiqamətdə aparılarkən saxlanıldığı haqda informasiyalar oxuyuruq. Mənşəyi məlum olmayan heyvan ətlərinin və leş ətlərinin bir hissəsi hüquq-mühafizə orqanları tərəfindən aşkarlanıb məhv edilsə də, aşkar edilməyən daha böyük hissəsi gizli yollarla bazarlara çıxarılır.**

O ətlər də bizim qarşımıza dönər, kabab, kolbasa, sosiska olaraq kafe və restoranlarda, bazar-dükanlarda çıxır. Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, bu ətlər körpələr evinə qədər gedib çıxa bilir. Bəs görəsən, hər birimizi gözləyən bu acınacaqlı durum insan səhhəti üçün nə dərəcədə təhlükəlidir? Leş əti və ya mənşəyi məlum olmayan heyvan ətləri yeyilərsə, orqanizmdə hansı fəsadlara səbəb ola bilər?

"Yeni Müsavat"ın bu sualını cavablandıran tibb elmləri doktoru Adil Qeybulla dedi ki, ilk növbədə qidanın tərkibində zooloji infeksiyaların olmamasına diqqət edilməlidir: "İnsanların qida rasionunun müəyyən tərkibi var. Bizim öyrəşdiyimiz qidalar var ki, onlar bizim qida rasionumuza daxildir. Məsələn, hər bir ət növü Azərbaycan əhalisi tərəfindən qəbul olunmur. Ayrı-ayrı ölkələrdə müxtəlif heyvanların ətlərindən istifadə olunur. Ancaq ilk məsələ qidanın təhlükəsizliyidir. Yəni zooloji infeksiyaların insan orqanizminə keçməsinin qarşısını almaq üçün hər bir kəsilmiş ət istehlakdan öncə baytarlıq nəzarətindən keçməlidir. Zooloji infeksiyalar -toksoplazmoz, difteriya, brusellyoz və digər bu kimi infeksiyaların insana keçməməsi üçün ətlər öncədən yoxlanmalıdır. Ancaq təəssüf ki, Azərbaycan praktikasında heç də həmişə belə olmur. Xəstə heyvanların da satışa buraxılması, baytarlıq nəzarətindən kənar olması, müxtəlif məqsədlər üçün Azərbaycan əhalisi tərəfindən qəbul olunmayan ət növlərinin bazara çıxarılması halları var".

**A.Qeybulla onu da qeyd etdi ki, bəzən baytarlıq nəzarətinin özü də formal xarakter daşıyır:** "Ətin üzərinə möhür vururlur, ancaq reallıqda hər hansı yoxlama həyata keçirilmir. Bütün bunlar hamısı onu göstərir ki, ölkənin ərzaq təhlükəsizliyi sistemində boşluq mövcuddur. Əslində ölkənin ərzaq təhlükəsizliyi konsepsiyası olmalıdır, bu, milli təhlükəsizlik konsepsiyasının bir tərkib hissəsi olmalıdır. Bildiyiniz kimi, Qida Təhlükəsizliyi Agentliyi fəaliyyətə başlayıb. Düşünürəm ki, bu agentlik problemin həlli üçün konkret tədbirlər planı işləyib hazırlayacaq. Ancaq hələlik bu agentlik formalaşana qədər qanunda olan boşluqlardan sui-istifadə halları da yetərincədir".

**Ekspertin sözlərinə görə, əhalinin aldığı ətin keyfiyyətini yoxlamaq imkanı yoxdur:** "Ət alarkən insanın gözünün önündə kəsilən heyvan belə xəstə ola bilər. Onu yoxlamırıq və ətdə hansı infeksiyalar olduğunu bilmirik. Difteriya və brusellyoz kimi infeksiyalar daşıyan heyvanlar var ki, baxarkən xəstə olduğu bilinmir. Bu mənada əhalinin əti yoxlamaq imkanı yoxdur. Ancaq baytarlar bunu yoxlamalıdırlar. Əhali mümkün qədər ətin rənginə, iyinə diqqət etməlidir. Təzə ətdən istifadə olunmalıdır. Qalan məsələlər isə müvafiq qurumların işidir və məsuliyyət də onların üzərindədir".

❑ **Nərgiz LİFTİYEVA**
**«Yeni Müsavat»**

## "Qoca" ilə birlikdə dustaq vaqonundan qaçan Əli Ağami hakim qarşısına çıxarılır



**Ağır cinayətdə təqsirləndirilən, bir müddət əvvəl isə xüsusi təyinatı vaqondan qaçan şəxs hakim qarşısına çıxarılır. Musavat.com xəbər verir ki, Əli Ağami Lənkəran Ağır Cinayətlər Məhkəməsinin hökmündən apelyasiya şikayəti verib.**

İşə Şirvan Apelyasiya Məhkəməsində baxılacaq.

Əli Ağami Lənkəran Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə 19 il müddətinə azadlıqdan məhrum edilib.

28 yaşlı Ə.Ağami 2015-ci ilin noyabrında Şirvan şəhərində 2 nəfərin xuliqanlıq zəminində qətlə yetirilməsindən sonra həbs edilib.

Ə.Ağami Şirvan şəhər sakinləri Elvin Nəciyev və Zaur Sarıbalayevin qətlinə görə həbs edilənlərdəndir. Elvin Nəciyev kriminal aləmdə "Krıtıy Elvin" adı ilə tanınıb.

Xatırladaq ki, Ə.Ağami və digər məhbus, "Qoca" ləqəbli Etibar Məmmədov oktyabrın 22-də gecə Lənkərandan Bakıya qatarla gətirilib. Oktyabrın 23-də səhər saatlarında Biləcəri stansiyasında E.Məmmədovla Ə.Ağami qatardan düşürülən zaman qaçmışdılar.

Hadisədən 3 gün sonra Ə.Ağami Şirvanda həbs edilmişdi. E.Məmmədov isə əməliyyat zamanı öldürülmüşdü.

Bu iş üzrə ifadə verən Əli Ağami qətli özünün törətmədiyini, "Qoca"nın istəyi ilə cinayəti üzərinə götürdüyünü deyib.

"Hadisə baş verən zaman "Qoca" ilə söhbətimiz oldu. Etibar dedi ki, işi mən üstümə götürüm. Onun 1-2 aylıq işi var. Onları həll edib, gəlib təslim olacaq və həqiqətləri açacaq. Mən onun sözünə inandım. Etibar Hacıqabulda və digər ətraf rayonlarda tanınmış adam idi. Dediyi kimi elədim, gözlədim ki, gəlib özü hər şeyi etiraf edər. 1 ay keçdi, 2 ay keçdi, 3 ay keçdi, artıq anladım ki, "Qoca" gəlməyəcək. Onda bildim ki, Etibar aradan çıxıb, bütün cinayət də mənim üstümə qalıb"- deyə Ə.Ağami məhkəmədəki ifadəsində deyib.

❑ **İ.MURADOV**
**«Yeni Müsavat»**

YENİ MÜSAVAT
N 16 (6905) 23 yanvar 2018

**Məşhurların vergidən yayınması hər zaman müzakirə olunan mövzulardan sayılır. Bu siyahıda daha çox zəngin iş adamlarının və şou-biznes dünyası məşhurlarının adları çəkilir. Cəmiyyətin yüzdə biri olan super varlılar, məşhur insanlar və böyük şirkətlərin vergi qaçaqçılığı ilə bağlı çirkli işləri zaman-zaman ortaya çıxır.**

# Məşhurlar və milyonerlər vergidən yayınmağın “kitabını yazıblar”

## Kim, necə və nə qədər vergi qaçırıb - ilginc siyahı


Nikolas Keyc


Mayk Tayson


Dieqo Maradonna


Luçano Pavarotti


Kristiano Ronaldi

“Yeni Müsavat” vergi qaçaqçılığı və bu siyahıda kimlərin olması ilə bağlı dosye təqdim edir. “Paradise Papers” adını daşıyan və 13.4 milyon sənəd bu mövzuda bütün dünyaya mühüm faktlar təqdim edir. 19 “vergi cənnəti”ni ortaya qoyan “Paradise Papers” bir Almaniya qəzeti tərəfindən ələ keçirilib və başqa yayım orqanlarında da yayımlanıb. Xatırladaq ki, daha öncə də “Panama Papers” adı altında çox önəmli məlumatlar ortaya çıxmışdı. Çox varlıların öz ölkələrində vergi ödəməmək üçün nələr etdikləri indi daha yaxşı şəkildə ortaya çıxıb. Sənədlər gizli olan, bizim görə bilmədiyimiz bir dünyaya pəncərə açır. “Paradise Papers”də İngiltərə kraliçası, Oksford, Kembric universitetləri, Amerikada nazir olan Vilbur Ross, Kanada baş naziri Castin Trudeau, İngiltərədən Lord Ashcroft, məşhur simalar, eləcə də Nike, Apple kimi şirkətlər yer alır. Siyahı uzundur. “Panama sənədləri”ndən fərqli olaraq, “Paradise Papers” ortaya hər hansı cinayət çıxarmır. Qanuni yollardan, ofşor şirkətlər vasitəsilə necə vergi ödənmədiyini göstərir. Mühasiblər super zənginlərin əvəzinə bu yolları tapırlar. Beləcə, sıradan vətəndaşlar vergilərini ödəyərkən varlılar böyük miqdarda vergi qaçırırlar.

Sistem buna imkanlar yaradır. İnkişaf etmiş ölkələrdə gedərək artan qeyri-bərabərlik ciddi bir problem olduğu halda “üstdəkilərin” vergi qaçırması durumu daha da ciddi hala gətirir. Bəs bu durum belə davam edə bilərmi? Varlılar vergi qaçırarkən dövlət səhiyyə, təhsil və digər sahələrdə vəzifəsini lazım olduğu kimi yerinə yetirə bilirmi?

İqtisadçılar deyirlər ki, müasir texnoloji imkanları nəzərə alaraq vergi qaçırmağın qarşısını tamamən almaq mümkün deyil. Hər zaman kimlərsə bir yolunu tapıb, bir miqdar vergi qaçıracaqlar. Buna baxmayaraq, “Paradise Papers”in ortaya qoyduğu faktlar çox böyük miqdarda vergi qaçırıldığını göstərir. Hökumətlər bu duruma necə göz yumur? Dövlətlə lazımi çıxış yolları taparaq, qaçırılan miqdarı azalda bilir. Daha təsirli bir şəkildə vergi toplaya bilir. “Vergi cənnətləri” (Bermuda Adaları, Isle of Man, Jersey, Hollandiya, Lüksemburg, İrlanda və s.) mövzusunda çıxış yolları tapıla bilər.

İqtisadçı Qabriyel Zucmana görə, milli şirkətlər keçən il 600 milyard avronu ofşor “vergi cənnəti”nə yönləndiriblər.

Aralarında Nobel İqtisad Mükafatı sahibi olan Angus Deatonun da olduğu 300-ə yaxın iqtisadçı dünya liderlərinə göndərdikləri bir məktubda “vergi cənnətləri”nin varlığının qlobal varlılıq və rifaha hər hansı fayda vermədiyini, faydalı bir iqtisadi məqsəd olmadığını demişdi. “Vergi cənnətləri” şəffaf deyillər. Siyasətçilərin bu mövzuda ciddi müzakirə aparması lazımdır. Amerikada, İngiltərədə, digər ölkələrdə böyük şirkətlərin, super varlıların paylarına düşən vergiləri ödəmələrinin təmin olunması, vergi qaçırmaq yollarının bağlanması üçün işlər görülməlidir. Xalqın bu mövzuda siyasətçilərə təzyiq göstərməsi də son dərəcə vacibdir.

Məsələn, İngiltərədə İşçi Partiyası ofşor vergi rejimləri mövzusunda araşdırma aparılmasını tələb edib. Təkcə İngiltərədə yox, bütün ölkələrdə belə araşdırmalar aparılmalı və nəticələri də cəmiyyətlə paylaşılmalıdır.

Amma bu günə qədər dünyada vergi qaçıran bir çox məşhurların adları açıqlanıb. Onlar daha çox “ağıllı” menecerlərinin əli ilə vergi qaçırsalar da, uzun müddət məhkəmələrdə sürünüblər.

### Hollivud aktyorları vergidən belə yayınır

Başlayaq Hollivud aktyoru **Nikolas Keycdən**. O, uzun müddət vergidən yayınmağa cəhd edib. Hazırda onun vergi borcunun 14 milyon dollara çatdığı iddia edilir. Lakin Snaypsdan fərqli olaraq, Keyc həbsxanaya düşməmək üçün problemin hüquqi həlli ilə ciddi şəkildə məşğuldur.

**Mark Entoni** - məşhur aktrisa və müğənni Jenifer Lopesin keçmiş əri Mark hələ 2007-ci ildə 2,5 milyon dollar vergi borcuna görə cəzalandırılmışdı. Buna baxmayaraq, hazırda onun 3,4 milyon dollar vergi borcunun olduğu iddia edilir.

**Uesli Snayps** - "Bleyt" filmində baş rolu oynamış bu məşhur aktyor vergi orqanlarına 15 milyon dollar vergi borcuna görə həbsxanaya düşüb. Onun bu hekayəsi "Ulduzlar və vergi" serialının ən qalmaqallı seriyası hesab edilir.

**Mayk Tayson** - məşhur boksçu 2005-ci ildə, müflis olduğunu bəyan etmiş və dövlətə 25 milyon dollar borcu qalmışdı. Mayk Tayson uzun müddət vergi orqanları ilə hesablaşmasa da, sonda bütün borclarını tam şəkildə ödəməyə məcbur olub.

**Kris Taker** - bu məşhur Hollivud aktyorunun indiyə qədər yığılmış vergi borcu 11 milyon dollardan artıqdır.

**Lindsi Lohan** - tanınmış aktrisa hələ 2009-cu ildə 93,7 min dollar vergi borcuna görə qalmaqal qaldırmışdı. O vaxt iddia edirdi ki, bu borc ona səhv hesablanıb. Keçən il isə Lohan qanunla hesablaşmalı olub və bütün vergi borclarını ödəyib.

**Dieqo Maradonna** - məşhur futbolçunun da uzun illər boyunca vergi orqanları ilə problemi olub. 2012-ci ildə onun vergi orqanlarına 40 milyon dollar vergi borcu qalmışdı.

**Luçano Pavarotti** - bu qeyri-adi səs sahibi opera səhnəsində olarkən illik gəliri 60 milyon dollardan az olmayıb. Lakin Pavarotti 6 il dalbadal öz gəlirləri haqqında bəyannaməni düzgün doldurmayıb, vergi borcları 19 milyon dollara çatıb. İtaliya qanunlarına görə, onu həbs cəzası gözləyirdi, lakin borcunun 15 milyon dollarını ödədikdən sonra dünya səviyyəli müğənni həbs cəzasından qurtula bilib.

**Sofi Loren** - bu aktrisa isə hər nə qədər zərif rollar canlandırsa da, tam bir vergi qaçaqçısıdır. O, vergidən yayındığına görə 17 gün həbsxanada yatmalı olub. Onu yüksək mədəni davranışına görə həbsxanadan azad etsələr də, məhkəmə çəkişmələri illərlə davam edib.

### Futbolçular həm topun dalınca, həm də vergidən qaçır...

“Real Madrid”in ulduz futbolçusu Kristiano Ronaldi da vergi qaçaqçılığına görə zamanında halim qarşısına çıxıb. İspaniya məhkəməsi onun 14.7 milyon avroluq vergi qaçırdığını iddia edir.

Ondan öncə Barselonada forma geyinən Lionel Messi, 4,1 milyon avro vergi qaçırdığı iddiası ilə Ali Məhkəmə tərəfindən 21 aylıq həbs cəzası almışdı. Keçmişdə eyni səbəbə görə Barcelonanın argentinalı futbolçusu Cavier Maşeranoya da bir illik həbs və 815 min avro pul cəzası verilmişdi.

İtaliyanın sabiq baş naziri Silvio Berluskoni özünün media imperiyası olan “Mediaset” üçün televiziya hüququ əldə edərkən vergidən yayınıb. Daha sonra bu ittihamlar onun üzərindən götürülsə də, yaratdığı “Mediaset” media holdinqinin rəhbəri və oğlunun üzərində qaldı.

Biznesmen və lobbiçi Jek Abramoviç də bu siyahıda xüsusi yer tutur. İçində vergidən yayınma da olmaqla, əlavə 4 ittihama əsasən, o, 5 il 10 ay müddətinə həbs cəzasına və 21 milyon cərimə ödəməyə məhkum edilib. Cəza çəkdiyi zaman təkrar ittihamla üzləşib və əlavə 4 il cəza alıb.

Türkiyədə də vergi qaçaqçılığı ilə iri şirkətlərlə yanaşı, tanınmış ulduzlar da məşğul olur. Zaman-zaman cəmiyyət onların səs-küylü məhkəmələrinin şahidi olub. Müğənni Sibel Can, aktrisa Fatma Girik, müğənnilər Mustafa Sandal və Mahsun Qırmızıgüllə yanaşı, məşhur rejissorlar Osman Sınav və İrfan Tözüm də “vergi qaçaqçılığı etmək” ittihamı ilə hakim qarşısına çıxıb.

### Bizim məşhurların siyahısını Vergilər Nazirliyi açıqlayır

Azərbaycan Respublikasının Vergilər Nazirliyi isə bir neçə dəfə vergi ödəməyən şou-biznes nümayəndələrinin adlarını açıqlayıb. Son olaraq 2016-cı ildə açıqlanan siyahıda 50 sənətçi yer almışdı. Siyahıda Brilliant Dadaşova, Abbas Bağırov, Rəqsanə İsmayılova, Gülyanaq Məmmədova, Elza Seyidcahan, Səidə Sultan, Xəyyam Nisanov kimi məşhurların da adları var. Həmin vaxt musavat.com-a açıqlama verən məşhurlar bu məsələyə birmənalı yanaşmamışdı.

Əməkdar artistlər Elza Seyidcahan, Mətanət İsgəndərli, müğənnilər Rəqsanə İsmayılova, Səidə Sultan adlarının vergi ödəməyən şou-biznes nümayəndələrinin siyahısında olması barədə danışmaq istəməsələr də, Abbas Bağırov və Zamiq Hüseynov vergi borcunun olmadığını bildirmişdi.

❑ **Sevinc TELMANQIZI, “Yeni Müsavat”**

## Rusiyada qanunvericiliyə “faktiki evlilik” anlayışı daxil edilir

**Rusiyada Dövlət Dumasına RF “Ailə Məcəlləsi”nə dəyişikliklərin edilməsi ilə bağlı qanun layihəsi daxil olub.**




Virtualaz.org TASS-a istinadən xəbər verir ki, sənəd olduğu kimi qəbul edilərsə, Rusiyada qanunvericilikdə “faktiki evlilik” anlayışı meydana gələcək.

Belə ki, 5 il ərzində bir yerdə yaşayan, yaxud iki il bir yerdə yaşayaraq birgə övlad sahibi olan, rəsmi nikahı olmayan cütlüklər “faktiki evli” hesab olunacaqlar.

Belə “faktiki evli”lər qanuni nikahda olanlarla eyni mükəlləfiyyətləri daşıyacaqlar. Məsələn, birgə yaşayış dövründə əldə olunmuş mülkiyyətə hər iki tərəf eyni dərəcədə sahiblik hüququ qazanacaq.

YENİ MÜSAVAT

Son səhifə

N 16 (6905) 23 yanvar 2018



# Xərçəngi qabartma tozu ilə müalicə etmək istədi, gənc qızı öldürdü

Xərçəngi xalq arasında qabartma tozu adlanan maddə ilə müalicə etdiyini iddia edən italyan həkim bir xəstənin ölümünə səbəb olub. Tullio Simoncini bu səbəbdən də 5 il 6 ay müddətinə həbs olunub. T.Simoncini xərçəngin bir növ göbələkdən qaynaqlandığını və sodium bikarbonatla müalicə oluna biləcəyini iddia edirdi. Tətbiq etdiyi müalicə üsulunun elmi olmaması və ehtiyatsızlıqdan adam öldürmə ittihamlarından sonra Simoncini 2006-da məsləkdən xaric edilmişdi. Amma bundan sonra o, başqa ölkələrdə doktorluqla məşğul olub və xərçəng müalicəsini yenə də qabartma tozu ilə aparmağa davam edib.

İtaliya mediasında yer alan xəbərlərə görə, 2012-ci ildə beyin şişi diaqnozu qoyulan 27 yaşındakı italyan Luca Ernesto Olivotto da internetdə apardığı araşdırmada "Simoncini metodu" deyilən bu "müalicə üsulu"nu kəşf etdi. Həkim ona bu üsulla müalicənin 70 faiz xəstəliyi aradan qaldırdığını deyib. Simoncini xəstəyə damardan sodium bikarbonat vurub və xəstə öncə şoka girib, ardınca isə ölüb. Keçirilən məhkəmə ötən həftə yekunlaşıb. Məhkəmə Simoncinini ölümə səbəb olmaq və vəzifəsindən sui-istifadə etməyə görə 5 il 6 ay, asistanını isə 2 il müddətinə azadlıqdan məhrum edib.

# Pilotlar havada yata bilər, çünki...

Avropalı Pilotlar Birliyi tərəfindən aparılan araşdırma zamanı müəyyən olunub ki, Avropada hər 3 pilotdan 1-i uçuş əsnasında ən azı bir dəfə pilot kabinasında yatır. Araşdırma zamanı Avropa səviyyəsində 6 mindən çox pilota iş əsnasında nə qədər yorulduqları ilə əlaqədar suallar verilib. İngiltərədə pilotların 43 faizi, Danimarkada 50 faizi, Norveçdə 53 faizi, İsveçdə isə 54 faizinin uçuş əsnasında ən azı bir dəfə istəmədən də olsa yatdığı üzə çıxıb. İngiltərədə isə pilotların üçdə biri oyandıqları vaxt həmkarlarının da yatmış olduqlarını görürlər. Pilotlar isə vurğulayır ki, uzunmüddətli səfərlər, hava limanında gözləyərək keçən vaxt, gecə uçuşlarına görə uzun müddət yuxusuz qalırlar.



Almaniyada isə hər 5 pilotdan 4-ü həddindən artıq yorğunluğa görə uçuş əsnasında səhvlər etdiyini söyləyib. İsveçdə bu nisbət yüzdə 71, Norveçdə isə yüzdə 79 -dur.

# Amerikalı qadın elə öskürdü ki, qabırğası sındı

**66 yaşlı amerikalı bərk öskürdüyü üçün qabırğasını sındırıb. İnfeksion xəstəliyə görə ciddi problem yaşayan qadının durumu haqda "The New England Journal of Medicine" adlı tibb jurnalında da yazılıb. Qadın həkimə quru öskürək və sağ böyründəki ağrılara görə şikayətlənib. Məlum olub ki, bu şikayətlər iki həftə öncə başlanıb. Müayinə zamanı onun sağ böyründə şiddətli bir göyərti müşahidə olunub. Xəstə bunun hansı zədədən əmələ gəldiyini deyə bilməyib. Kompüter tomoqrafiyası isə onun sağdan doqquzuncu qabırğasının qırıldığını üzə çıxarıb.**

Qadını əməliyyat etməklə yanaşı, güclü öskürəyini də müalicə ediblər. Çünki bu öskürək kəskin fəsadlarla, eləcə də növbəti qabırğa sınması, qan damarlarının partlaması ilə müşayiət oluna bilər.






# Qədim akulanın 300 dişi, 2 metr uzunluğu var

Avstraliyalı balıqçılar qədim akula tapıblar. Bu barədə news.com.au saytı xəbər verib. Onu tutan balıqçılardan biri deyib ki, tutulan akula olduqca qorxunc olub: "Bu, məhz o növdəndir ki, yatmazdan əvvəl uşaqlara göstərmək olmaz".

Akulanın uzunluğu 2 metr olub. Balıqçılar onun ağzında 25 sırada yerləşən 300 diş tapıblar. İlk dəfə bu qorxunc növ akula 1879-1881-ci illərdə tapılıb. 600-1000 metr dərinliyə baş vura bilən akula daha çox Atlantik və Sakit okeanda olur. Əsasən kalmarla qidalanır. İnsan üçün hər hansı təhlükə təşkil etmir. Akulanın hamiləliyi 3.5 il davam edir. Bu balıq növü 95 milyon il öncə peyda olub. O, eyni zamanda həm ilana, həm də akulaya bənzəyir. Mövcud olduğu zaman ərzində akulanın xarici görünüşündə hər hansı dəyişiklik baş verməyib.




**QOÇ** - Yeni ilin ilk uğurları sizin üçün məhz bu gündən start götürəcək. Odur ki, bütün cinahlarda tədbirli olmalısınız. Ətrafınızda olanları sınaqdan keçirin ki, sədaqətlilər üzə çıxsın. Bu təqvimdə varlanma ehtimalınız da var.

**BUĞA** - Pulla bağlı uğurlarınız gözlənilsə də, qarşılıqlı münasibətlərdə və sağlıq durumunuzda xoşagəlməzliklər ola bilər. Bu amili nəzərə alıb davranışınıza və qidanıza fikir verin.

**ƏKİZLƏR** - Ulduzlar doğma və yaxınlarınızla soyuq davranışınızdan şikayətçidir. Bunu aradan qaldırmaq üçün digər işləri təxirə salmaq da olar. Əsas vaxtınızı sevimlilərinizlə keçirin.

**XƏRÇƏNG** - İxtiyarınızda olan bu təqvimdə keçmiş günahlarınızdan qurtulmağınız üçün bir sıra addımlar atmalı, ehtiyac olarsa, tövbə etməlisiniz. Uzaqda yaşayan doğmalarınızla əlaqə yaradın.

**ŞİR** - O qədər də səmərəli gün deyil. Lakin güc və potensialınızdan istifadə etməklə vəziyyətin axarını maraqlarınıza uyğunlaşdıra bilərsiniz. Ailədəki narahatçılığa özünüz son qoyun.

**QIZ** - Yaxşı olardı ki, fəaliyyətlə bağlı bütün işlərinizi təxirə salasınız. Münasibətlər zəminində bu qədər çatışmazlıqlar olduğu halda hansısa işə enerji itirməyə lüzum yoxdur.

**TƏRƏZİ** - Baxmayaraq ki hava soyuqdur, qəlbinizin istiliyi ətrafınızda olanları sizə qarşı daha da mərhəmətli edəcək. Nə vaxtsa rastlaşdığınız haqsızlıqları xatırlamaqdan əl çəkin.

**ƏQRƏB** - Ümumi atmosfer passiv olduğundan hansısa qeyri-adi işlərə girişməyin. Əsas enerjinizi qarşılıqlı münasibətlərə yönəldin. Səmimi insanlarla bir araya gəlmək əhvalınızı yüksəldəcək.

**OXATAN** - Yaxşı olar ki, gün boyu maliyyə məsələlərində riskli addımlardan çəkinəsiniz. Əks təqdirdə aldadıla bilərsiniz. İstənilən situasiyada obyektiv qərar verməyə çalışın.

**OĞLAQ** - Qarşılıqlı münasibətlərdə rastlaşdığınız xoş ovqat digər məsələlərdə də irəliləyiş yaradacaq. Özünüzü cəmiyyətdən təcrid olunmuş hala salmayın. Həyatın gözəlliyini duyun.

**SUTÖKƏN** - Günün ümumi mənzərəsi normaldır. Qəlbinizə yaxın olan insanlara qarşı səmimi və qayğıkeş olun. Əgər maddi durumunuz yaxşıdırsa, ehtiyac duyanlara bacardığınız qədər kömək edin.

**BALIQLAR** - Bütün vücudunuzu bürüyən müəmmalara son qoyun. Tarix boyu belə hallar heç kimə uğur gətirməyib. Dünyanı düzəltməkdən əvvəl öz qüsurlarınızı aradan qaldırmağa çalışın.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# Öləndən 10 gün sonra uşağı "oldu"



Cənubi Afrikada 9 aylıq hamilə qadın öləndən 10 gün sonra ölü körpə dünyaya gətirib. Ölkənin şimalındakı Mbizana bölgəsi, Mthayisi kəndi qəbiristanlığı işçiləri Nomveliso Nomasonto Mdoyinin (33 yaş) tabutunu açdıqları zaman qadının ayaqları arasında ölü körpə tapıblar. Qəbiristanlıq işçiləri isə bu mənzərə qarşısında şok keçiriblər: "Elə təəccübləndik ki, uşağın cinsiyyətinə belə baxmaq ağlımıza gəlmədi" . Mütəxəssislər deyib ki, əzələ boşalması və ya bədəndə yığılan bakteriyalar körpənin ana qarnından çıxmasına səbəb olub.

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

Lisenziya N: B 114
SAYI: 5.100